RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 116 (9861) 5 iyun 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# MÜTLƏQ VƏ TAM QƏLƏBƏ

**Müasir müharibələr birbaşa hərb meydanında başlamır.**

**Əvvəlcə siyasi müstəvidə gedir, sonra informasiya savaşında davam edir.**

*Belə "hazırlıq" prosesində beynəlxalq qurum və təşkilatlar da işə qarışır, mövqe və qərarları ilə kimin tərəfində olduqlarını büruzə verir, hətta hərdən yüksək fəallıq da nümayiş etdirirlər.*

1988-ci ildə yenidən qızışdırılaraq meydana atılan Qarabağ probleminə ermənilər hərtərəfli hazırlıq görmüşdülər.

SSRİ-nin birinci və sonuncu prezidenti olan M.Qorbaçovu və arvadı R.Maksimovnanı qiymətli qaş-daşlarla ələ alaraq özlərinin Moskva tərəfindən müdafiələrini təmin etmişdilər.

SSRİ DTK-sının və erməni diasporunun əlbir hazırladıqları və birlikdə həyata keçirdikləri "Sumqayıt hadisələri"ndən Azərbaycana qarşı məkrlə istifadə edərək "vəhşi azərbaycanlı"lar obrazını yarada, SSRİ-nin mərkəzi KİV-ində və dünya mediasında uğurla yaya bilmişdilər.

Həmin dövrdə xarici KİV-ə çıxış yalnız SSRİ-nin (əslində, Rusiyanın) mərkəzi qəzet və informasiya agentlikləri vasitəsilə mümkün idi.

O da Rusiyada bu sahədə həlledici postları ələ keçirən ermənilər tərəfindən bloklanmışdı.

Həmin dövrdə Azərbaycana başçılıq edən maymaq və qorxaq rəhbərlər isə mərkəzə etiraz etməyə, həqiqətləri sübuta yetirməyə cürət etmir, əksinə, Kremlin "ədalətinə və obyektivliyinə" ümid edib bel bağlayırdılar.

*Nəticədə Azərbaycan mübarizənin hələ başlanğıc mərhələsində ideoloji cəbhədə haylara uduzdu.*

*Necə deyərlər, "adımı sənə qoyum, səni yana-yana qoyum" məsəli gerçəyə çevrildi.*

❖ ❖ ❖

**Ulu Öndər Heydər Əliyevin qayıdışı ilə tədricən də olsa, böyük dəyişikliklər baş verdi.**

Ən əvvəl, müharibədə atəşkəs elan edilərək yeni ərazilərin işğalının qarşısı alındı.

Halbuki düşmən havadarlarının dəstəyi ilə "Kür çayınadak olan əraziləri" ələ keçirmək niyyətini açıq şəkildə bildirirdi.

*Sonra iki dəfə dövlət çevrilişi cəhdinin qarşısı alındı, əhalidəki qanunsuz silah-sursat toplanıldı, AXC-Müsavat cütlüyünün iqtidarı dövründəki xaos, anarxiya, özbaşınalıq və qanunsuzluqlara son qoyuldu, ölkədə möhkəm və dönməz sabitlik yaradıldı.*

Ən nəhayət, pozulmuş iqtisadiyyatı bərpa etmək, karbohidrogen ehtiyatlarını müstəqil şəkildə dünya bazarına çıxararaq əldə olunan gəlirləri dövlətin inkişafına və xalqın rifahının yüksəldilməsinə, habelə yeni ordu quruculuğuna sərf etmək təmin olundu.

**Vəfasız ömür bundan artığına imkan vermədi.**

**Ulu Öndər Heydər Əliyev sonadək başa çatdıra bilmədiyi işləri siyasi varisinə vəsiyyət edərək əbədiyyətə qovuşdu.**

*Prezidentliyinin ilk günlərindən "Biz bir qarış torpağımızı belə, kimsəyə güzəştə getməyəcəyik və lazım gəlsə, məsələni hərbi yolla həll edəcəyik" deyən İlham Əliyev Azərbaycanın iqtisadi gücünün artırılması ilə bərabər, torpaqların işğaldan azad edilməsi prosesini də paralel şəkildə aparırdı.*

**İstiqamətlər müxtəlif olsa da, hədəf eyni idi: işğala son qoymaq!**

→ 5



# Azərbaycan-İran əlaqələrinin inkişafında hazırda dönüş nöqtəsinin olduğu vurğulanıb

İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon danışığı olub.

İran Prezidenti dövlətimizin başçısını, qardaş və dost Azərbaycan xalqını qarşıdan gələn müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, xalqımıza rifah və tərəqqi arzulayıb.

Prezident İlham Əliyev də öz növbəsində İran Prezidentini, qardaş və dost İran xalqını qarşıdan gələn müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, firavanlıq və tərəqqi arzularını çatdırıb.

Məsud Pezeşkian ölkəmizə rəsmi səfərini, səfər çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşləri və aparılan səmərəli müzakirələri məmnunluqla xatırlayıb.

Azərbaycan Prezidenti də səfər zamanı aparılan müzakirələri yüksək qiymətləndirib.

Telefon danışığı əsnasında hazırda iki ölkənin aidiyyəti dövlət qurumlarının Məsud Pezeşkianın ölkəmizə rəsmi səfəri zamanı qarşıya qoyulan tapşırıqların həyata keçirilməsi üçün səylərini davam etdirdikləri vurğulanıb. Səfərin nəticəsi olaraq Bakı-Təbriz aviareysinin bərpası və Bakı-Tehran istiqamətində təyyarə reyslərinin sayının artırılması qeyd edilib, bunun xalqlarımız arasında təmasların artmasına müsbət təsir göstərəcəyinə əminlik ifadə olunub.

Azərbaycan-İran əlaqələrinin inkişafında hazırda dönüş nöqtəsinin olduğu vurğulanıb və birgə səylərlə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə dinamik surətdə inkişaf edəcəyinə ümidvarlıq bildirilib.

Telefon söhbəti zamanı dövlət başçıları qarşılıqlı maraq doğuran digər məsələlərə də dair fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan reallıqlarını dünyaya çatdıran platforma



Bu mötəbər tədbirin fonunda Azərbaycanın son 30 ildə çətin və mübarizələrlə dolu yoldan keçərək bugünkü inkişaf mərhələsinə yüksəlməsini və uğurlarını da aydın şəkildə görmək mümkündür. Danılmaz faktdır ki, Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən siyasətin və qətiyyətin nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın istər siyasi, iqtisadi, sosial, istərsə də hərbi inkişafının təməli qoyuldu.

İyunun 2-də Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"unun rəsmi açılış mərasimindəki çıxışında da Prezident İlham Əliyev məhz bu məqama vurğu etdi.

Dövlət başçısı söylədi ki, ilk neft-qaz sərgisi 1994-cü ildə təşkil edilmişdir. Həmin sərgidən dərhal sonra Azərbaycan beynəlxalq neft şirkətləri konsorsiumu ilə "Əsrin müqaviləsi" adlandırılan, regionda bütün geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirən sazişi imzaladı: "Bunlar Prezident Heydər Əliyevin baxışı sayəsində mümkün oldu. O, aydın şəkildə anlayırdı ki, xüsusilə də enerji sahəsində geniş beynəlxalq əməkdaşlıq olmadan - nəzərə alsaq ki, o zaman bizim iqtisadiyyatımızın ən cəlbedici sahəsi məhz enerji idi, - Azərbaycan çətinliklərin öhdəsindən gələ bilməyəcək və həqiqi müstəqil dövlət ola bilməyəcək".

→ 6

# Fransada müsəlmanlara qarşı növbəti təxribat baş verib



Fransanın Rona departamentinin Məscidlər Şurası xəbər verir ki, iyunun 3-də Lion yaxınlığındakı Villeurbanne şəhərindəki məsciddən Quran nüsxəsi oğurlanaraq yandırılıb. Məscidə gələn şəxs üzünü gizlədərək namaz zalına daxil olub və orada müsəlmanların müqəddəs kitabı olan Quranın nüsxələrindən birini götürüb. Daha sonra o, kitabı yandırıb və girişdə qoyaraq gözdən itib. Qeyd edək ki, Lionda və şəhərin ətrafında 100 min erməni yaşayır.

Şura hadisəni müsəlmanlara nifrət aktı adlandırıb. Açıqlamada bunun tək bir hadisə olmadığı, Fransada müsəlmanlara qarşı silsilə hücumların tərkib hissəsi olduğu vurğulanıb. Müsəlman icmasının nümayəndələri islamofobiyanın güclənməsindən rahatsız olduqlarını bildiriblər.

Polis faktla bağlı araşdırmalara başlayıb. Son məlumata görə, Fransada Quranı yandırmaqda şübhəli bilinən şəxs həbs olunub. Prokurorluq şübhəlinin "əqli cəhətdən qeyri-sabit" olduğunu qeyd edib. Lakin "ruhi xəstə"nin hücum obyekti kimi niyə kilsəni, Tövrat və İncili deyil, məhz məscidi və Quranı hədəf alması izah olunmur.

→ 9

# Azərbaycanın və Ermənistanın itkin düşmüş şəxslər üzrə dövlət komissiyalarının nümayəndələri arasında görüş olub

**Azərbaycanın və Ermənistanın itkin düşmüş şəxslər üzrə dövlət komissiyalarının nümayəndələri arasında növbəti görüş keçirilib.**



AZƏRTAC xəbər verir ki, görüş çərçivəsində tərəflər münaqişə zamanı itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması ilə bağlı humanitar məsələləri müzakirə ediblər.

Görüşdə məlumat mübadiləsi imkanları, axtarış tədbirlərinin əlaqələndirilməsi məsələləri nəzərdən keçirilib.

Tərəflər humanitar sahədə dialoqun davam etdirilməsinin vacibliyini vurğulayıb və itkin düşmüş şəxslərin ailələrinin maraqları naminə gələcək təmaslara hazır olduqlarını bildiriblər.

# Dekolonizasiya və təzminat məsələlərində elmi öhdəliyə dair Bakı Bəyanatı qəbul edilib

BAKI TƏŞƏBBÜS QRUPU

"Biz, 2025-ci il iyunun 3-də Bakıda keçirilmiş "İmperial quruluş: Kolonial ideologiyalar və reallıqlar arasında" adlı beynəlxalq elmi konfransında iştirak edən alim və akademiklər olaraq, insan hüquqları, ədalət, dekolonizasiya, elmi azadlıq və həqiqət axtarışına dair qlobal dəyərlərə sadiqliyimizi elmi təşəbbüs və yanaşmalarımız vasitəsilə bir daha bəyan edirik".

→ 7

# Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında","Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 14-cü, 16-cı və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I); 2024, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 7, maddələr 763, 765, 769, 772; 2025, № 2, maddə 98; Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 141.7-ci və 141.8-ci maddələr əlavə edilsin:

"141.7. Bu Məcəllədə nəzərdə tutulan qəyyumluq və himayəçilik orqanlarının razılığı (icazəsi) ilə əlaqədar həmin orqanların qərarları 1 (bir) iş günü ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilir.

141.8. Bu Məcəllədə nəzərdə tutulan qəyyumluq və himayəçilik orqanlarının razılığı (icazəsi) ilə əlaqədar həmin orqanların qərarları Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemindən əldə edilir. Belə sənədin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onun təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**Maddə 2.** Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17; Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 140-VIIQD nömrəli, 18 mart tarixli 158-VIIQD və 161-VIIQD nömrəli qanunları) aşağıdakı məzmunda 36.2-1-ci maddə əlavə edilsin:

"36.2-1. Bu Məcəllənin 36.1-ci və 36.2-ci maddələrində nəzərdə tutulan qəyyumluq və himayəçilik orqanlarının icazəsi ilə əlaqədar həmin orqanların qərarları 1 (bir) iş günü ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilir.".

**Maddə 3.** "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 88 (Cild I) 5-ci maddəsinə aşağıdakı məzmunda yeddinci hissə əlavə edilsin:

"Bu maddənin altıncı hissəsində nəzərdə tutulan qəyyumluq və himayə orqanlarının razılığı ilə əlaqədar həmin orqanların qərarları 1 (bir) iş günü ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilir və belə qərarlar bu maddənin beşinci hissəsinə uyğun olaraq əldə edilir.".

**Maddə 4.** "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484 (Cild I); 2024, № 5 (I kitab), maddə 503, № 12 (II kitab), maddə 1335; Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD nömrəli Qanunu) 10-cu maddəsinə aşağıdakı məzmunda üçüncü və dördüncü hissələr əlavə edilsin:

"Bu maddənin ikinci hissəsində nəzərdə tutulan qəyyumluq orqanlarının razılığı və ya göstərişi ilə əlaqədar həmin orqanların qərarları 1 (bir) iş günü ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilir.

Bu maddənin ikinci hissəsində nəzərdə tutulan qəyyumluq orqanlarının razılığı və ya göstərişi ilə əlaqədar həmin orqanların qərarları Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemindən əldə edilir. Belə sənədin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onun təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**Maddə 5.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564 (Cild I); 2024, № 7, maddə 771, № 8, maddə 932; 2025, № 1, maddə 16, № 2, maddə 94) 27-ci maddəsinin IV hissəsinin "Qeyd"inə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Nəqliyyat vasitəsinin qeydiyyatdan çıxarılmasına icazə verilməsi ilə əlaqədar qəyyumluq və himayəçilik orqanlarının qərarları bir iş günü ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilir və həmin qərarlar bu maddənin VI-II hissəsinə uyğun olaraq əldə edilir.".

**Maddə 6.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477 (Cild I); 2024, № 5 (I kitab), maddə 501, № 12 (II kitab), maddə 1336; Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli və 11 aprel tarixli 172-VIIQD nömrəli qanunları) 7-ci maddəsinə aşağıdakı məzmunda on üçüncü və on dördüncü hissələr əlavə edilsin:

"Bu Qanunun 5-ci maddəsinin yeddinci hissəsində və 7-ci maddəsinin altıncı və yeddinci hissələrində nəzərdə tutulan qəyyumluq və himayəçilik orqanlarının razılığı ilə əlaqədar həmin orqanların qərarları 1 (bir) iş günü ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilir.

Bu Qanunun 5-ci maddəsinin yeddinci hissəsində və 7-ci maddəsinin altıncı və yeddinci hissələrində nəzərdə tutulan qəyyumluq və himayəçilik orqanlarının razılığı ilə əlaqədar həmin orqanların qərarları Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemindən əldə edilir. Belə sənədin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onun təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**Maddə 7.** "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 681 (Cild I); 2024, № 1, maddə 3; 2025, № 2, maddə 98) 14.0-cı, 14.0.1-ci və 14.0.2-ci maddələri müvafiq olaraq 14.1-ci, 14.1.1-ci və 14.1.2-ci maddələr hesab edilsin və aşağıdakı məzmunda 14.2-ci maddə əlavə edilsin:

"14.2. Qəyyumluq və himayə orqanları bu Qanunun 14.1-ci maddəsində nəzərdə tutulan məsələlərlə əlaqədar qəbul edilmiş qərarları 1 iş günü ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edirlər.".

**Maddə 8.** "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 710 (Cild I) aşağıdakı məzmunda 10.1-1-ci maddə əlavə edilsin:

"10.1-1. Bu Qanunun 10.1-ci maddəsində nəzərdə tutulan qəyyumluq və himayə orqanlarının razılığı ilə əlaqədar həmin orqanların qərarları bir iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2025-ci il*

# "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 188-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 188-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 141.7-ci maddəsində, 141.8-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 141.8-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 141.7-ci maddəsində və 141.8-ci maddəsinin birinci cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur;

1.4. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 36.2-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Məcəllənin 36.2-1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur;

1.6. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin yeddinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.7. həmin Qanunun 5-ci maddəsinin yeddinci hissəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur;

1.8. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin üçüncü hissəsində və dördüncü hissəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.9. həmin Qanunun 10-cu maddəsinin dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;

1.10. həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsində və dördüncü hissəsinin birinci cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur;

1.11. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin IV hissəsinin "Qeyd"inin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.12. həmin Qanunun 27-ci maddəsinin IV hissəsinin "Qeyd"inin üçüncü cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur;

1.13. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin on üçüncü hissəsində və on dördüncü hissəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.14. həmin Qanunun 7-ci maddəsinin on dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;

1.15. həmin Qanunun 7-ci maddəsinin on üçüncü hissəsində və on dördüncü hissəsinin birinci cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur;

1.16. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun 14.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.17. həmin Qanunun 14.2-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur;

1.18. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun 10.1-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.19. həmin Qanunun 10.1-1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 188-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 14 iyun tarixli 493 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 89 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd 2.7-ci bənd hesab olunsun və həmin bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 2.1-ci bənd əlavə edilsin:

"2.1. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin yeddinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.3. 2.1-1-ci bənddə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin";

3.4. aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

"2.6. həmin Qanunun 5-ci maddəsinin yeddinci hissəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur;".

4. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 511 (Cild I); 2024, № 12 (II kitab), maddə 1368; 2025, № 2, maddə 125) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. ikinci-altıncı abzaslar müvafiq olaraq üçüncü-yeddinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin üçüncü hissəsində və dördüncü hissəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

4.2. üçüncü abzasda "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin;

4.3. yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda səkkizinci və doqquzuncu abzaslar əlavə edilsin:

"həmin Qanunun 10-cu maddəsinin dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;

həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsində və dördüncü hissəsinin birinci cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur.".

5. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I); 2024, № 3, maddə 260, № 7, maddə 815, № 8, maddələr 937, 947, № 10, maddə 1138) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə "27-ci maddəsinin 1-ci hissəsində," sözlərindən sonra "IV hissəsinin "Qeyd"inin üçüncü cümləsində," sözləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 2.20-1-ci bənd əlavə edilsin:

"2.20-1. həmin Qanunun 27-ci maddəsinin IV hissəsinin "Qeyd"inin üçüncü cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur;".

6. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498 (Cild I); 2024, № 6 (I kitab), maddə 667, № 12 (II kitab), maddə 1362; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 359 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bəndə "altıncı hissəsində" sözlərindən sonra ", 7-ci maddəsinin on üçüncü hissəsində, on dördüncü hissəsinin birinci və ikinci cümlələrində" sözləri əlavə edilsin;

6.2. 2.4-1-ci bənddə "və yeddinci hissəsində "qəyyumluq və himayə orqanı" sözləri", yeddinci hissəsində "qəyyumluq və himayə orqanı", on üçüncü hissəsində və on dördüncü hissəsinin birinci cümləsində "qəyyumluq və himayəçilik orqanları" sözləri ilə əvəz edilsin;

6.3. aşağıdakı məzmunda 2.7-1-ci və 2.7-2-ci bəndlər əlavə edilsin:

"2.7-1. həmin Qanunun 7-ci maddəsinin on dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;

2.7-2. həmin Qanunun 7-ci maddəsinin on üçüncü hissəsində və on dördüncü hissəsinin birinci cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur;".

7. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164 (Cild I); 2024, № 6 (I kitab), maddə 655, № 7, maddə 812, № 8, maddə 956) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.1-ci bəndə "138-1," rəqəmlərindən sonra "141.7-ci maddələrində, 141.8-ci maddəsinin birinci və ikinci cümlələrində," sözləri əlavə edilsin;

7.2. aşağıdakı məzmunda 2.13-1-ci bənd əlavə edilsin:

"2.13-1. həmin Məcəllənin 141.8-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;";

7.3. 2.18-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.19-cu bənd əlavə edilsin:

"2.19. həmin Məcəllənin 141.7-ci maddəsində və 141.8-ci maddəsinin birinci cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur.".

8. "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609 (Cild I); 2024, № 7, maddə 790) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

8.1. 3.1-ci bəndə "Məcəlləsinin" sözündən sonra "36.2-1-ci maddəsində," sözləri əlavə edilsin;

8.2. aşağıdakı məzmunda 3.15-1-ci bənd əlavə edilsin:

"3.15-1. həmin Məcəllənin 36.2-1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur;".

9. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 274 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 706 (Cild I); 2024, № 6 (I kitab), maddə 667) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.1-ci bəndə "Qanununun" sözündən sonra "14.2-ci maddəsində," sözləri əlavə edilsin;

9.2. 2.3-cü bənddə "14.0-cı" sözləri "14.1-ci" sözləri ilə əvəz edilsin;

9.3. 2.6-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.7-ci bənd əlavə edilsin:

"2.7. həmin Qanunun 14.2-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur.".

10. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli 606 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 713 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

10.1. 2.1-ci bənddə "12.2-ci maddəsində" sözləri "10.1-1-ci və 12.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

10.2. 2.6-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.7-ci bənd əlavə edilsin:

"2.7. həmin Qanunun 10.1-1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi, digər hallarda isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Rəqəmsal İcra Hakimiyyəti" portalı nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2025-ci il*

## "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2025, № 2, maddə 104; Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 191-VIIQD nömrəli Qanunu) 2-ci maddəsinə "Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)" yubiley medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" yubiley medalı;".

**Maddə 2.** "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin *(əlavə olunur)*.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2025-ci il*

## "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının sədrinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2025-ci il*

**Azərbaycan Respublikasının**
**2025-ci il 23 may tarixli Qanunu ilə təsdiq edilmişdir**

## "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında

## ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə Məhkəmə-Hüquq Şurasının üzvləri və üzvü olmuş şəxslər, öz vəzifələrini nümunəvi yerinə yetirən, qüsursuz fəaliyyəti ilə fərqlənən hakimlər, Məhkəmə-Hüquq Şurasının aparatında və məhkəmələrin aparatlarında qulluq keçən dövlət qulluqçuları, məhkəmə sisteminin inkişafına töhfə vermiş və məhkəmə orqanları ilə səmərəli əməkdaşlıq edən digər şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində qeyd olunan şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

**Azərbaycan Respublikasının**
**2025-ci il 23 may tarixli Qanunu ilə təsdiq edilmişdir**

## "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 38 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmiş, xarici çevrənin ulduz təsviri yaradan səkkiz kənar çıxıntılı hissəsi relyefli xətlərlə işlənmiş və 1,3 mm enində hamar zolaqlarla konturlanmışdır.

2.2. Xarici və daxili konturların arasında tünd qırmızı minalı fonda yuxarı hissədə qövs boyunca "MƏHKƏMƏ-HÜQUQ ŞURASI" sözləri, aşağı hissədə mərkəzdə"20" rəqəmləri yazılmış, həmin rəqəmlərin sağında və solunda dəfnə yarpaqlarından ibarət çələng təsvir olunmuşdur.

2.3. Daxili çevrənin içərisində ay və səkkizguşəli ulduz, tərəzi və qılınc atributları, Azərbaycan xəritəsi təsvir edilmişdir.

2.4. Bütün yazılar, rəqəmlər və atributlar qızılı rəngdədir, qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfinin səthi hamardır, 1,3 mm enində zolaqlarla konturlanmışdır və mərkəzində dörd sətrə bölünməklə "AZƏRBAYCAN RESPUBLİKASININ MƏHKƏMƏ-HÜQUQ ŞURASI" sözləri, sözlərdən aşağıda bir sətirdə "2005-2025" rəqəmləri yazılmışdır. Bütün yazılar qızılı rəngdədir.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin yuxarı hissəsinə üzərində dəfnə yarpaqlarından ibarət çələng təsvir olunmuş 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.3. Xara lentin mərkəzində 12 mm enində tünd qırmızı rəngli, mərkəzdən sol və sağ kənarlara doğru ardıcıl olaraq 3 mm enində açıq qırmızı rəngli, 3 mm enində tünd qırmızı rəngli, 3,5 mm enində açıq qızılı rəngli, 3 mm enində tünd qırmızı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

**"Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)"**
**Azərbaycan Respublikasının yubiley medalı**



## Azərbaycan Minifutbol Federasiyasına maliyyə dəstəyi göstərilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan milli yığma komandasının 2025-ci il minifutbol üzrə Dünya çempionu olması ilə əlaqədar Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Minifutbol Federasiyasına 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2025-ci il*

## Quba rayonunun Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi (137 km)-Çiçi-Səbətlər-Qənidərə-Sırt Çiçi-Təngəaltı avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yeddi min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi (137 km)-Çiçi-Səbətlər-Qənidərə-Sırt Çiçi-Təngəaltı avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2025-ci il*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 172** **Bakı şəhəri, 3 iyun 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 782 (Cild I); 2024, № 3, maddə 296; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 140 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"na aşağıdakı məzmunda 3.7-ci bənd əlavə edilsin:

"3.7. Dərman vasitələrinin idxalını həyata keçirən hüquqi şəxs ölkə daxilində dərman vasitəsinin aptek təşkilatlarına topdansatışını digər topdansatış əczaçılıq müəssisəsi vasitəsilə həyata keçirdiyi təqdirdə, bu Qaydanın 3.4-cü bəndi ilə müəyyən olunan "Topdansatış əczaçılıq müəssisəsi üçün əlavə"nin 40 faizinədək hissəsini dərman vasitəsinin aptek təşkilatına birbaşa topdansatışını həyata keçirən həmin topdansatış əczaçılıq müəssisəsinə ödəyir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Bələdiyyələrlə iş" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 173** **Bakı şəhəri, 3 iyun 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 49-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 dekabr tarixli 238 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Bələdiyyələrlə iş" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi "Bələdiyyələrlə iş" informasiya sisteminin fəaliyyətinin təşkili, saxlanılması və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə "Bələdiyyələrlə iş" informasiya sisteminin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 174** **Bakı şəhəri, 4 iyun 2025-ci il**

"Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

İş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2025-ci il 27 iyun iş günü ilə 21 iyun istirahət gününün yerləri dəyişdirilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qanunsuz dini təbliğat fəaliyyətini təşkil edən əcnəbilər barədə hüquqi tədbirlər görülmüşdür

Xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikası ərazisində qanunvericiliyin tələblərini pozaraq dini təbliğat işi aparmaları ilə bağlı daxil olmuş məlumatlar əsasında Dövlət Təhlükəsizliyi Xidmətinin və Dövlət Miqrasiya Xidmətinin birgə həyata keçirdikləri tədbirlər nəticəsində başqa dövlətin ərazisində yerləşən dini mərkəzin üzvləri olan əcnəbilər - 1968-ci il təvəllüdlü Şeyx Məhəmməd Hənif (Shaikh Muhammad Hanif), 1981-ci il təvəllüdlü Kərim Bux (Kareem Bux) və 1968-ci il təvəllüdlü Çanna Tac Məhəmmədin (Channa Taj Muhammad) Azərbaycanda qeyri-ənənəvi dini cərəyana aid ideyaların təbliği istiqamətində fəaliyyət göstərmələri, qanunsuz qapalı dini yığıncaqlar və dini ayinlərin icrasını təşkil etmələri təsbit olunmuşdur.




Toplanmış materiallar əsasında, adları qeyd olunan xarici ölkə vətəndaşlarının "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə zidd fəaliyyət göstərmələri müəyyənləşdirilərək onların bu əməllərinin qarşısı alınmış və həmin şəxslər Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 79.1.2 maddəsinə əsasən ölkə hüdudlarından kənara çıxarılmışlar.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Əlamətdar bayram - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Azərbaycanın müstəqilliyinin qürurla qeyd olunduğu bu gün həm də ölkələrimiz arasında möhkəm dostluq və əməkdaşlıq əlaqələrini bir daha təsdiqləmək üçün yaxşı fürsətdir.

Bu əlamətdar gündə xalqlarımızın davamlı rifahı naminə qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əməkdaşlığımızı dərinləşdirməyə sadiqliyimizi bir daha bildirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Məhəmməd ŞAHABUDDİN,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

28 May - Müstəqillik Günü münasibətilə Sizə Paraqvay Respublikasının hökuməti və xalqı adından və şəxsən öz adımdan səmimi qardaşlıq salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu əlamətdar bayram münasibətilə qardaş Azərbaycan xalqına sülh, xoşbəxtlik və rifah arzularımı ifadə edir, eyni zamanda Paraqvay Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərinin daim möhkəmlənməsini diləyirəm.

Fürsətdən istifadə edərək, Zati-alinizə ən dərin hörmət və ehtiramımı bir daha bildirirəm.

***Santyaqo PENYA,***
***Paraqvay Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının elan edildiyi 28 May - Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan müstəqilliyini əldə etdiyi vaxtdan böyük uğurlara imza atıb, ölkə daxilində köklü dəyişikliklər həyata keçirilib, eləcə də Qərb institutlarına inteqrasiya istiqamətində mühüm irəliləyişlər əldə olunub və biz bütün bu prosesləri təqdirlə müşahidə edirik.

Tarix boyu Azərbaycan ilə münasibətlər Türkiyə üçün prioritet olub. Ulu öndərlər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", Heydər Əliyevin isə "Bir millət, iki dövlət" kəlamları ölkələrimiz arasında münasibətlərin təməl prinsipi kimi qəbul edilmiş və Siz bu münasibətləri daha da inkişaf etdirmisiniz.

Türkiyə-Azərbaycan münasibətləri çoxşaxəli əməkdaşlığa əsaslanır, hər iki ölkə münasibətlərin daha da dərinləşməsinə diqqət yetirir, regionda sülhü və sabitliyi prioritet hesab edir, Türk Dövlətləri Təşkilatını gücləndirir və qlobal siyasətdə daha fəal rol oynamağı hədəfləyir.

Cənubi Qafqazda və türk dünyasında uzunmüddətli perspektivdə nümunəvi münasibətlər kimi qiymətləndiriləcək Azərbaycan-Türkiyə əlaqələrinin gələcəkdə daha da möhkəmlənməsini arzulayıram.

Müstəqillik Günü münasibətilə Sizə bir daha səmimi təbriklərimi, dərin hörmət və ehtiramımı çatdırıram.

***Kadim DURMAZ,***
***Türkiyə Böyük Millət Məclisinin deputatı, TÜRKPA-da Türkiyə nümayəndə heyətinin üzvü***

# Baş nazir Əli Əsədov Düşənbəyə işgüzar səfərə gedib

**İyunun 4-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tacikistan Respublikasının Baş naziri Kohir Rasulzodənin dəvəti ilə MDB Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbə şəhərinə işgüzar səfərə gedib.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Düşənbə Beynəlxalq Hava Limanında Ə.Əsədovu Tacikistan Respublikasının Baş nazirinin müavini, Azərbaycan və Tacikistan arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Birgə Komissiyanın həmsədri Usmonali Usmonzoda və digər rəsmi şəxslər qarşılayıblar.

# Yaponiyada Azərbaycanın Müstəqillik Günü və "Ekspo 2025"də ölkəmizin təqdimatı





**Azərbaycanın Yaponiyadakı səfirliyinin və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Tokioda 28 May - Müstəqillik Günü və "Osaka Ekspo 2025" çərçivəsində tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, ölkəmizin Yaponiyadakı səfiri Gürsel İsmayılzadə, Yaponiya hökumətinin rəsmiləri, parlamentin deputatları, diplomatik korpusun təmsilçiləri və bu ölkədə yaşayan həmvətənlərimiz iştirak ediblər.

Əvvəlcə Azərbaycanın və Yaponiyanın Dövlət himnləri yaponiyalı müğənni Kyoko Yamamoto tərəfindən canlı ifa edilib.

Səfir Gürsel İsmayılzadə 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə firavan ölkəyə çevrildiyini, sosial-iqtisadi sahədə böyük inkişafa nail olmaqla əhalinin rifahının yüksəldiyini bildirib. 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan olunduğunu vurğulayan diplomat bu il müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulunun 30-cu, habelə ərazilərimizin işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsində qələbənin 5-ci ildönümü olduğunu diqqətə çatdırıb. Ölkəmizin Şərq ilə Qərbi, Şimal ilə Cənubu birləşdirən coğrafi, siyasi, enerji, nəqliyyat, ticarət körpüsü olduğunu bildirən diplomat əlavə edib ki, Azərbaycanın liderliyi ilə həyata keçirilən irimiqyaslı layihələr Avrasiyada enerji və nəqliyyat xəritələrini dəyişib, çoxtərəfli səmərəli əməkdaşlığa yol açıb. Gürsel İsmayılzadə ölkəmizin Osaka şəhərində "Ekspo 2025"də fəal iştirakına toxunaraq, Azərbaycan milli pavilyonunun "A" kateqoriyalı pavilyonlar sırasında olduğunu diqqətə çatdırıb.

Yaponiya xarici işlər nazirinin parlament müavini, Yaponiya parlamentinin ilk türkəsilli deputatı xanım Eri Arfiya Azərbaycan dilində çıxış edərək, Yaponiya hökuməti adından xalqımıza təbriklərini çatdırıb. İki ölkə arasında 1992-ci ildə diplomatik münasibətlər qurulandan bəri yaxşı siyasi əlaqələrə, sıx iqtisadi əməkdaşlığa əsaslanan dostluğun təmin olunduğunu vurğulayan Eri Arfiya bu əlaqələrin inkişafına parlamentlərin də böyük töhfələr verdiyini deyib. O, Azərbaycanın Osakada keçirilən "Ekspo 2025"də fəal iştirakına toxunaraq, milli pavilyonun Azərbaycanın zəngin mədəni irsini, əsrarəngiz təbiətini təqdim etdiyini deyib.

Ötən il COP29 tədbiri zamanı Azərbaycanda səfərdə olduğunu bildirən Yaponiyanın ətraf mühit naziri Asao Keyiçiro ölkəmizin beynəlxalq konfransa uğurla evsahibliyi etdiyini deyib, tədbir çərçivəsində qazanılan nailiyyətlərin iqlim dəyişmələri ilə mübarizəyə önəmli töhfələr verəcəyinə ümidvar olduğunu ifadə edib.

Yaponiya parlamentində Azərbaycan üzrə dostluq qrupunun fəxri sədri Akira Amari və qrupun sədri Tanaka Kazunori Müstəqillik Günü münasibətilə Azərbaycan xalqını təbrik ediblər.

Sonra keçirilən konsert proqramında klassik əsərlərdən parçalar, xalq və bəstəkar mahnıları, milli rəqslərimiz təqdim olunub.

# Milli Məclisin Sədri Sahibə Qafarova TBMM-in Sədrini təbrik edib

**Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Numan Kurtulmuşa yenidən TBMM Sədri vəzifəsinə seçilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.**




Milli Məclisin Sədri Numan Kurtulmuşu yenidən yüksək vəzifəyə seçilməsi münasibətilə öz adından və Milli Məclisin deputatları adından təbrik edərək, ona ən xoş arzularını çatdırıb. Məktubda bildirilir ki, qardaş xalqlarımızın ortaq milli-mənəvi dəyərlərinə əsaslanan Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin mövcud səviyyəsi məmnunluq doğurur. Dövlətlərarası münasibətlərimiz "Bir millət, iki dövlət" şüarına uyğun olaraq bütün sahələrdə, o cümlədən parlamentlərarası əməkdaşlıq müstəvisində dinamik şəkildə inkişaf edir.

Həmin gün parlamentin Sədri Sahibə Qafarovanın Numan Kurtulmuşla telefon danışığı olub.

Telefon danışığı zamanı Milli Məclisin spikeri, TBMM-in Sədrini bir daha təbrik edərək, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Türkiyə Böyük Millət Məclisinin Sədri təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirərək, TBMM ilə Milli Məclis arasında əlaqələrin bundan sonra da yüksələn xətlə inkişaf etməsi üçün səylərini əsirgəməyəcəyini ifadə edib.

***Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

# Pakistan Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləyir

**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 4-də Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddin ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Pakistan arasında mövcud olan strateji əlaqələrin dostluq və qardaşlıq əsasında inkişafından məmnunluq ifadə edilib.

Spiker Sahibə Qafarova ötən həftə Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şərifin ölkəmizə səfəri, dövlət başçılarının Azərbaycanın işğaldan azad olunmuş Laçın şəhərinə səfərləri və burada Azərbaycan-Pakistan-Türkiyə Üçtərəfli Zirvə Görüşünün keçirilməsini məmnunluqla xatırladaraq bildirib ki, bu görüş ortaq dəyərləri bölüşən ölkələrimiz arasında qardaşlığın və dostluğun növbəti bariz təzahürüdür. Zirvə görüşündə qəbul edilmiş qərarlar dost və qardaş ölkələrimizin ən müxtəlif sahələrdə əməkdaşlığında yeni mərhələ təşkil edəcək.

Səfir Qasım Mohiuddin ölkələrimiz və xalqlarımız arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərindən danışıb. O, Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiqin salamlarını Azərbaycan parlamentinin spikerinə çatdırıb.

Səfir Qasım Mohiuddin Pakistan və Hindistan arasında münaqişə barədə geniş məlumat verib. Diplomat ölkələrimizin bütün məsələlərdə bir-birinə dəstək verdiyini söyləyərək, Azərbaycanın Pakistana dəstəyinin əhəmiyyətini qeyd edib.

Spiker Sahibə Qafarova Azərbaycanın Pakistan və Hindistan arasında son zamanlar yaranmış gərginliyi böyük narahatlıqla izlədiyini, bu çətin zamanda Pakistanla həmrəyliyini açıq şəkildə ifadə etdiyini xatırladıb. O deyib ki, Azərbaycan münaqişənin beynəlxalq hüququn prinsip və normalarına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, dialoq və sülh yolu ilə həllinin tərəfdarıdır. Həmçinin vurğulanıb ki, Pakistan da xalqımızı narahat edən məsələlərdə Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləyir. Azərbaycan xalqı Pakistanın 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan ədalətli mövqeyini dəstəkləməsini yüksək qiymətləndirir.

Görüşdə parlamentlərimiz arasında qarşılıqlı fəaliyyətin dövlətlərimiz arasında əlaqələrin inkişafına müsbət təsir göstərdiyi qeyd olunaraq vurğulanıb ki, bu gün qanunverici orqanlarımız arasında səmərəli əməkdaşlıq qurulub. Spiker Sahibə Qafarova özünün 2021-ci ildə Pakistana rəsmi və işgüzar səfərlərini, o cümlədən pakistanlı həmkarları ilə müxtəlif beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşləri xatırladıb.

Söhbət zamanı qanunvericilik orqanlarımızın ikitərəfli, üçtərəfli və çoxtərəfli formatlarda zəngin gündəliyi olduğu vurğulanıb. Azərbaycan, Pakistan və Türkiyə parlament sədrlərinin üçtərəfli əməkdaşlıq formatının mühüm platforma olduğu bildirilib. Eyni zamanda qanunverici orqanlarımızın beynəlxalq təşkilatlar çərçivəsində də sıx qarşılıqlı fəaliyyət göstərdikləri ifadə edilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycan və Belçika arasında münasibətlərin inkişafı üçün yaxşı imkanlar var

**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 4-də Belçika Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Julyen de Frepon ilə görüşüb.**



Səfiri salamlayan spiker Sahibə Qafarova ona ölkəmizdəki diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə qeyd olunub ki, Azərbaycan və Belçika arasında münasibətlərin inkişafı üçün yaxşı imkanlar mövcuddur. Belçika Krallığının Baş nazirinin ötən il COP29-da iştirak etmək məqsədilə Azərbaycana səfər etdiyi və Prezident İlham Əliyevlə görüşdüyü xatırladılıb.

Spiker Sahibə Qafarova Milli Məclisin Belçika parlamenti ilə əlaqələrin inkişafına hazır olduğunu vurğulayaraq, özünün Belçika parlamentinin keçmiş sədrləri ilə görüşlərini xatırladıb. O, qarşılıqlı səfərlərin və dialoqun münasibətlərin daha da dərinləşməsinə, qarşılıqlı məlumatlandırmanın genişlənməsinə töhfə verdiyini söyləyib. O bu məsələlərdə dostluq qruplarının fəaliyyətinin əhəmiyyətini vurğulayıb.

Səfir Julyen de Frepon ölkəmizdə fəaliyyət göstərdiyi dövrdə xalqımızın qonaqpərvərliyinin şahidi olduğunu söyləyib. O, COP29 çərçivəsində Belçika Baş nazirinin ölkəmizə səfərinin həm mühüm beynəlxalq tədbirdə iştirak, həm də Azərbaycanla ikitərəfli münasibətlərə dair müzakirələr aparmaq baxımından əhəmiyyətini qeyd edib.

Diplomat ölkələrimiz arasında iqtisadi, nəqliyyat, logistika, dənizçilik sahəsində əməkdaşlıq əlaqələrinin inkişafı üçün yaxşı imkanların olduğunu bildirib. O, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolunu qeyd edərək, Azərbaycanla Avropa İttifaqı arasında dialoqun dərinləşməsini dəstəklədiklərini vurğulayıb.

Görüşdə spiker Sahibə Qafarova həmçinin regionda mövcud olan vəziyyət, ölkəmizin işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi nəhəng yenidənqurma işləri, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi, mina problemi və digər məsələlər barədə məlumat verib.

***"Azərbaycan"***

# MÜTLƏQ VƏ TAM QƏLƏBƏ




Qalib gəlmək, qələbə çalmaq hər bir döyüşçünün arzusudur!

Lakin arzu başqadır, gerçəklik isə bambaşqa!

**Əsl qələbə düşməni qarşında diz çökdürərək ona kapitulyasiya aktını imzalatdırmaqdır!**

*Təslim kağızına imza atmaq isə məğlubiyyətin acı və məcburi etirafıdır!*

*İstər həmin sənədə göz önündə imza at, istərsə gizlində.*

*Fərqi yoxdur!*

Bu, rəqibindən zəif, gücsüz olduğunun acizanə etirafıdır!

Daxilən, məcburən, vadar edilən etiraf!

*Məğlubiyyətin üzü çoxdur.*

*Başlıcası zəifliyin, acizliyin, gücsüzlüyün və tabe olmağın zorən etiraf edilməsidir.*

**Qələbə isə birüzlüdür!**

**Gücün, üstünlüyün, öz iradəni diktə və qəbul etdirməyin, zəfərin nümayişi sayılır!**

* Qələbənin mənəvi və maddi tərəfləri də olur!

* Qalib tərəf fərəhli olur!

* Qürurlu olur!

* Sevincli olur!

* Özünü gümrah və güclü hiss edir!

* Təkcə uçmağa qanadın çatmır!

*Son nəticədə qalib tərəf az itkiyə məruz qalır.*

**Məğlub tərəf isə kinli və qəzəbli olur, qalibin gözünə dik baxa bilmir, daha çox maddi-texniki itkiyə məruz qalır, nə vaxtsa qisas alacağını düşünərək özünə təsəlli verməyə çalışır.**

*Heyhat!*

Xəstə çox şey dilər, əmma...

❖ ❖ ❖

**Müasir müharibələr birbaşa hərb meydanında başlamır.**

**Əvvəlcə siyasi müstəvidə gedir, sonra informasiya savaşında davam edir.**

*Belə "hazırlıq" prosesində beynəlxalq qurum və təşkilatlar da işə qarışır, mövqe və qərarları ilə kimin tərəfində olduqlarını büruzə verir, hətta hərdən yüksək fəallıq da nümayiş etdirirlər.*

1988-ci ildə yenidən qızışdırılaraq meydana atılan Qarabağ probleminə ermənilər hərtərəfli hazırlıq görmüşdülər.

SSRİ-nin birinci və sonuncu prezidenti olan M.Qorbaçovu və arvadı R.Maksimovnanı qiymətli qaş-daşlarla ələ alaraq özlərinin Moskva tərəfindən müdafiələrini təmin etmişdilər.

SSRİ DTK-sının və erməni diasporunun əlbir hazırladıqları və birlikdə həyata keçirdikləri "Sumqayıt hadisələri"ndən Azərbaycana qarşı məkrlə istifadə edərək "vəhşi azərbaycanlı"lar obrazını yarada, SSRİ-nin mərkəzi KİV-ində və dünya mediasında uğurla yaya bilmişdilər.

Həmin dövrdə xarici KİV-ə çıxış yalnız SSRİ-nin (əslində, Rusiyanın) mərkəzi qəzet və informasiya agentlikləri vasitəsilə mümkün idi.

O da Rusiyada bu sahədə həlledici postları ələ keçirən ermənilər tərəfindən bloklanmışdı.

Həmin dövrdə Azərbaycana başçılıq edən maymaq və qorxaq rəhbərlər isə mərkəzə etiraz etməyə, həqiqətləri sübuta yetirməyə cürət etmir, əksinə, Kremlin "ədalətinə və obyektivliyinə" ümid edib bel bağlayırdılar.

*Nəticədə Azərbaycan mübarizənin hələ başlanğıc mərhələsində ideoloji cəbhədə haylara uduzdu.*

*Necə deyərlər, "adımı sənə qoyum, səni yana-yana qoyum" məsəli gerçəyə çevrildi.*

❖ ❖ ❖

**Ulu Öndər Heydər Əliyevin qayıdışı ilə tədricən də olsa, böyük dəyişikliklər baş verdi.**

Ən əvvəl, müharibədə atəşkəs elan edilərək yeni ərazilərin işğalının qarşısı alındı.

Halbuki düşmən havadarlarının dəstəyi ilə "Kür çayınadak olan əraziləri" ələ keçirmək niyyətini açıq şəkildə bildirirdi.

*Sonra iki dəfə dövlət çevrilişi cəhdinin qarşısı alındı, əhalidəki qanunsuz silah-sursat toplanıldı, AXC-Müsavat cütlüyünün iqtidarı dövründəki xaos, anarxiya, özbaşınalıq və qanunsuzluqlara son qoyuldu, ölkədə möhkəm və dönməz sabitlik yaradıldı.*

Ən nəhayət, pozulmuş iqtisadiyyatı bərpa etmək, karbohidrogen ehtiyatlarını müstəqil şəkildə dünya bazarına çıxararaq əldə olunan gəlirləri dövlətin inkişafına və xalqın rifahının yüksəldilməsinə, habelə yeni ordu quruculuğuna sərf etmək təmin olundu.

**Vəfasız ömür bundan artığına imkan vermədi.**

**Ulu Öndər Heydər Əliyev sonadək başa çatdıra bilmədiyi işləri siyasi varisinə vəsiyyət edərək əbədiyyətə qovuşdu.**

*Prezidentliyinin ilk günlərindən "Biz bir qarış torpağımızı belə, kimsəyə güzəştə getməyəcəyik və lazım gəlsə, məsələni hərbi yolla həll edəcəyik" deyən İlham Əliyev Azərbaycanın iqtisadi gücünün artırılması ilə bərabər, torpaqların işğaldan azad edilməsi prosesini də paralel şəkildə aparırdı.*

**İstiqamətlər müxtəlif olsa da, hədəf eyni idi: işğala son qoymaq!**

SİYASİ SAHƏDƏ:

* ATƏT-in Minsk qrupunun sülh danışıqlarını imitasiya etdiyini bilsə də, Azərbaycan sonadək münaqişənin sülh yolu ilə başa çatdırılmasına sadiq qaldı, danışıqlardan imtina etmədi.

* Beynəlxalq qurum və təşkilatlarda səmərəli iş aparıldı, Azərbaycanın haqq işini müdafiə edən dostlarının sayı artırıldı, Prezident İlham Əliyevin dörd il sədrlik etdiyi Qoşulmama Hərəkatının imkanlarından maksimum istifadə olundu.

İQTİSADİ SAHƏDƏ:

* Tarixinin ən qüdrətli Azərbaycanı yaradıldı.

* Bir sıra transmilli layihələr həyata keçirildi, "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri işə salındı.

* Böyük uzaqgörənliklə Cənubi Qafqaz Qaz Boru Kəməri genişləndirildi. TANAP və TAP kəmərləri çəkildi. Bu üç xətt birləşdirilərək "Cənub qaz dəhlizi"ni yaratdı. Azərbaycan səkkizi Avropa İttifaqına üzv dövlət olmaqla on Avropa ölkəsinə, bütövlükdə 12 ölkəyə qaz ixracını təmin etdi.

* Okeana çıxışı olmayan Azərbaycan beynəlxalq logistika mərkəzinə, üstəlik, Cənubi Qafqazda söz sahibinə çevrildi.

* Ən əsası, heç bir təsir və təhdid cəhdlərinə baxmayaraq, daim milli maraqlara söykənən müstəqil siyasət yeritdi.

HƏRBİ SAHƏDƏ:

* Ordu quruculuğu prosesi diqqət mərkəzində saxlanıldı, bu sahəyə daim kifayət qədər vəsait ayrıldı.

* Yeni gənc nəsil tərbiyələndirilərək onların hesabına ordu komplektləşdirildi.

* Ordu ən müasir texnologiyalara əsaslanan silah-sursatla təmin olundu.

* Hərbi əməliyyatlar zamanı ən yeni strategiya və taktika tətbiq edildi.

* Xalqın milli birliyi, orduda ruh yüksəkliyi yaradıldı.

**Ən mühüm məqamlardan biri otuzillik işğala son qoyulması üçün hərbi gücün zamanında tətbiqi idi.**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev burada da son dərəcə müdrik və uzaqgörən gedişlər etdi.**

*Əvvəla,* Ermənistanın baş naziri N.Paşinyanın sərxoş olaraq "Qarabağ Ermənistandır və nöqtə" deyə bəyan etməsindən sonra əvvəlcə Soçi Beynəlxalq Diskussiya Klubunda, bir qədər keçmiş Münxen Təhlükəsizlik Konfransında çıxış edərək məhz Ermənistanın sülh danışıqlarından imtina etdiyini beynəlxalq ictimaiyyətə çatdırdı.

*Sonra* Ermənistanın quduraraq Tovuz bölgəsində təxribatlar törətdiyini, əsas ixrac boru kəmərləri üçün real təhlükələr yaratdığını diqqətə çəkdi.

*Ən nəhayət,* Ermənistanın sərhəddə törətdiyi çoxsaylı təxribatlara və atəşkəsi qəsdən, sistemli şəkildə pozduğuna görə Azərbaycanın ona cavab verəcəyini açıq şəkildə bəyan etdi.

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin müharibə dövründə və hərbi əməliyyatlardan sonra atdığı addımlarda qələbənin tamlığına xidmət edirdi.**

*O dövlətlər ki, Ermənistanı daim müdafiə edir, dəstəkləyir, aşkar və gizli şəkildə silahlandırır, maliyyə yardımları göstərir və bu yolla işğalı əbədiləşdirməyə çalışırdılar, müharibə dövründə onlar cənab İlham Əliyevə dalbadal zənglər edərək hərbi əməliyyatların dayandırılmasına can atırdılar.*

*Lakin Azərbaycan Prezidenti heç bir xahişə - minnətə, təsir və təhdid cəhdlərinə baxmayaraq, güzəştə getmədi, Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması qrafiki təmin edilməyənədək hərbi əməliyyatları dayandırmadı.*

Hərbi-siyasi cəbhədə uduzduqlarını yaxşı başa düşənlər əsas qüvvələrini informasiya müharibəsinə yönəltdilər.

Dünyanın hər yerinə yayılmış erməni diasporlarının maliyyəsi ilə beynəlxalq KİV Azərbaycana axın etdi.

Niyyət köhnə və qərəzli idi!

Gələnlərin bir neçəsi istisna olmaqla qalanı Azərbaycanı etmədiyi işlərdə suçlamaq, ermənilərin törətdiklərini ayağımıza yazmaq istəyirdi.

Bizi beynəlxalq ictimaiyyətin gözündən salmaq, halal qələbəmizə ləkə yaxmaq məkri daşıyırdı.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya müharibəsində də əsl sərkərdə kimi çarpışdı, sonadək ağılla, peşəkarlıqla, qətiyyət və əzmlə döyüşdü, düşmən niyyətlilərin tribunasından onların öz əməllərinin ifşasında, məkr, yalan və qərəzin üstünün açılmasında istifadə etdi, "prokurorluq etmək" istəyən jurnalistləri günahkara və müttəhimə çevirdi, informasiya müharibəsinin də baş qəhrəmanı oldu.**

*Əgər cənab İlham Əliyev diplomatiya və informasiya müharibəsində də şəksiz qələbə qazanmasaydı, Zəfərimiz mütləq və tam olmazdı!*

❖ ❖ ❖

Dəfələrlə Ermənistanın müdafiəçiləri və dəstəkçiləri tərəfindən Azərbaycana təzyiqlər və təhdidlər göstərildi.

Lakin Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev belə təpkilər qarşısında geri çəkilmədilər, heç bir ərazi güzəştinə razılıq vermədilər.

Məqsəd işğal altında olan beş rayonu qaytarıb ikisini Ermənistana "bağışlamağa" razılıq almaq idi...

O rayonlar ki ərazicə böyük, təbiətən füsunkar, təbii sərvət sarıdan zəngindir.

Üstəlik, Laçın və Kəlbəcərin güzəştə gedilməsi coğrafi cəhətdən də Ermənistan üçün əlverişli idi.

Sadəcə, sərhəd xəttini irəli çəkməklə məsələ həll oluna bilərdi.

Artıq ermənilər bu xəyallarını gerçəkləşdirmək yolunda zəruri addım da atmışdılar.

Ermənistandan Kəlbəcərə birbaşa rahat yol çəkilmişdi.

Həm də bu danışıqları aparanlar, belə ssenarinin müəllifləri Qarabağın dağlıq hissəsini artıq özlərininki hesab edirdilər.

Adını "artsax respublikası" qoyaraq oyuncaq "prezidentlik institutu", "parlament" yaratmışdılar.

Kimsə tərəfindən, hətta Ermənistanın özü tərəfindən tanınmasa da belə, həyasızcasına seçkilər keçirir, olmayan respublikaya "prezident"lər, qondarma "parlament"ə isə "spikerlər" və "deputat"lar seçirdilər.

Yəqin ki, bu oyunbazlıqlar sonsuza qədər davam edəcəkdi...

Həm də ermənilərə söz verənlər onları arxayın etmişdilər ki: "İşinizdə olun, biz sizi saxlayacaq, hər sarıdan təmin edəcəyik. Azərbaycanın isə hərbi yolla bu reallığı dəyişməyə nə cürəti çatar, nə də gücü".

**Sonda Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u bu "gerçəkliklər"i 44 gündə dəyişdi!**

Mütləq şəkildə qələbə çaldıq!

Tam şəkildə isə özümüzünkü olanlara sahib çıxdıq!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu məqamla bağlı söylədiklərini xatırladırıq:

*"Biz "öldü var, döndü yoxdur" şüarı ilə yaşayırdıq və 44 günlük Vətən müharibəsi həm peşəkarlıq, həm qəhrəmanlıq, həm milli ruh salnaməsidir. Bu, bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi. Onu göstərdi ki, Azərbaycan xalqı mütləq və tam qələbə qazanmaq üçün öz canından keçməyə hazırdır".*

**Artıq təkcə ermənilər yox, onların müdafiəçiləri də Azərbaycanın yaratdığı yeni reallığı qəbul etmək zorundadırlar!**

❖ ❖ ❖

Dostlarının və müdafiəçilərinin dəstəyindən, telefon zənglərindən bir nəticə hasil olmadığını görən düşmənin təslim olmaqdan başqa çarəsi qalmadı.

"Dəmir yumruq" "məğlubedilməz ordu"nu miskin günə salmış, 12 min "qəhrəman döyüşçü" silahını ataraq fərarilik etmiş, zirehli texnika və hücum silahları dəmir qırıntılarına çevrilmişdi.

Kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanata imza atsa da, Ermənistan onun bütün bəndlərini könüllü yerinə yetirmək istəmirdi.

* Hərbi birləşmələr ərazilərimizdən çıxarılmır;

* Terrorçu qruplaşmalar tərk-silah edilmir;

* Şər yoluna çevrilən Laçın dəhlizi vasitəsilə ölkəmizə minalar daşınaraq ərazilərimizdə basdırılır;

* Rusiya sülhməramlı qüvvələri əsl vəzifələrini "unudaraq" erməni hərbi birləşmələrinə himayədarlıq edirdilər.

*Torpaqların mühüm hissəsi işğalçılardan təmizlənsə də, bu, hələ tam qələbə sayıla bilməzdi.*

**Nəyi nə vaxt və necə etməyi hamıdan yaxşı bilən Müzəffər Ali Baş Komandan İlham Əliyev zamana və məqama uyğun qətiyyətli və uzaqgörən addımlar atdı.**

* 2023-cü ilin 23 aprelində Həkəri çayı üzərindəki körpüdə unikal və cəsarətli əməliyyat keçirilərək burada nəzarət-buraxılış məntəqəsi quruldu, Laçın dəhlizi düşmənin üzünə bağlanaraq ərazi bütövlüyümüz təmin edildi.

* Həmin ilin 19-20 sentyabrında 23 saatlıq antiterror əməliyyatında isə Ermənistana məxsus hərbi birləşmələrin və terrorçu qrupların tör-töküntüləri ağ bayraq qaldıraraq təslim oldular.

Azərbaycan Ordusu tərk-silah olunmuş dəstələri, habelə Azərbaycan qanunlarını və Konstitusiyasını qəbul edərək ölkəmizdə yaşamaq istəməyən hayların dinc şəraitdə ərazilərimizdən çıxmalarına şərait yaratdı.

*Beləliklə, ölkəmizin dövlət suverenliyi və Konstitusiya əsasları da bərqərar oldu!*

*Lakin ərazimizdə hələ də Rusiyaya məxsus sülhməramlı kontingent qalmaqda idi.*

Faktiki onların görəcəyi bir iş də qalmamışdı...

İki ölkə rəhbərliyi arasında aparılan danışıqlar nəticəsində Rusiya sülhməramlıları da dinc şəraitdə, çalıb oxuya-oxuya ərazilərimizdən çıxdılar!

**Bununla da mütləq qələbəmiz tamamlanmış oldu!**

❖ ❖ ❖

*Qələbənin tamlığı və mütləqliyi mövqelərimizi möhkəm və sarsılmaz edib:*

* Avropa İttifaqı əleyhimizə qərəzli qərarlar qəbul edir;

* AŞ PA səsimizi dondurur;

* Fransa sərhədlərimizə Avropa İttifaqının casuslarını göndərir;

* Hindistan Ermənistana silah satır.

Vecimizə deyil!

* *Əvvəla,* Qarabağ problemini həll etmişik, daha heç bir dişsiz qurumun dəstəyinə ehtiyac duymuruq!

* *İkincisi,* Avropa İttifaqının və AŞ PA-nın qərəzli və ədalətsiz qərarları bizim üçün adi kağız parçasından başqa bir şey deyil!

* *Üçüncüsü,* AŞ PA-nın ermənipərəst qərarından əvvəl biz özümüz bəyanat verərək qurumdakı fəaliyyətimizi dayandırdıq.

* *Dördüncüsü,* Avropa İttifaqının fransız casuslarının durbinlə bizə boylanmaqdan başqa əllərindən bir şey gəlmir.

* *Beşincisi,* Hindistanın silahları fərli olsaydı, özü Pakistan qarşısında ağ bayraq qaldırmazdı.

* *Ən nəhayət,* özümüzə də arxayınıq, gücümüzə də!

**"Dəmir yumruq" hazır vəziyyətdə gözləyir!**

**Qələbəmiz mütləq və tam olduğundan çəkinəcək yerimiz qalmayıb!**

*Ermənistan isə olub-qalan dövlətçiliyini qorumaq istəyirsə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediklərini etməli, şərtlərini yerinə yetirməlidir!*

**Azərbaycan 27 illik məğlubiyyət acısından sonra Zəfərin şirin dadını doyunca duydu!**

**27 illik işğala mütləq və tam qələbə ilə son qoydu!**

*Özü də təkcə Ermənistana yox, onun dostlarına, müdafiəçilərinə, dəstəkçilərinə, maliyyə və silah yardımı göstərənlərə də qalib gəldik!*

**Bütün bunları Azərbaycan Ordusu etdi!**

**Şəhid qanı tökərək Şuşanı, Şərqi Zəngəzuru, Qarabağı işğaldan azad etdik!**

*Bütün hədələrə, təhdidlərə, təzyiqlərə sinə gərdik, qorxmadan bizi qorxudanların üzərinə getdik və onları geri durmağa vadar etdik!*

**Mütləq qələbə halal qələbəmiz oldu!**

**Tam qələbəni Müzəffər Ali Baş Komandanın ətrafında "dəmir yumruq" kimi birləşərək qazandıq!**

*Mütləq və tam qələbə isə öz Sərkərdəsini sevərək, ətrafında milli birliyə nail olan, "ya qələbə, ya ölüm" deyə hayqıraraq birinci müharibəni uduzan xalqın Vətən müharibəsindəki möhtəşəm Zəfərinə çevrildi!*

**Bu zəfərin dəyərini cənab İlham Əliyev daha dəqiq ifadə etmişdir:**

*"Nə bizdən qabaqkı onilliklər ərzində, nə bizdən sonrakı dörd il yarım ərzində heç kim mütləq və tam Qələbə qazanmamışdır və elə görünür ki, qazanmayacaq".*

* Şəriksiz qələbədir mütləq və tam qələbəmiz!

* Əbədi qələbədir mütləq və tam qələbəmiz!

* Xalqımızın, dövlətimizin şərəfli qələbəsidir mütləq və tam qələbəmiz!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır!" çağırışını əbədi gerçəyə çevirən qələbədir mütləq və tam qələbəmiz!**

*Hamımızın qələbəsidir bu qələbə!*

**Bəxtiyar SADIQOV**

# Azərbaycanın xarici siyasətinin uğurları

**Bakı Enerji Həftəsinin timsalında Azərbaycan növbəti qlobal tədbirə uğurla evsahibliyi etdi. Hər il keçirilən və özündə üç mühüm tədbiri birləşdirən Bakı Enerji Həftəsi dünyanın enerji sənayesi sahəsində mövcud olan liderləri bir araya gətirir və elə bunun sayəsində diqqətlər Azərbaycanın üzərinə fokuslanır. Hər zamankı kimi, builki tədbirdə də xeyli sayda yüksəksəviyyəli qonağın iştirakı və göstərilən beynəlxalq diqqət tədbirin əhəmiyyətini bir daha önə çəkdi, respublikamızın qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələri bir daha gözlər önünə sərdi.**



## Azərbaycan reallıqlarını dünyaya çatdıran platforma

ABŞ Prezidenti Donald Trampın 30-cu Bakı Enerji Həftəsinin açılışında oxunan məktubunda da vurğulanır ki, bu, Azərbaycanın, həqiqətən də, regionda enerji sektorunda liderliyini və qlobal enerji təhlükəsizliyini təcəssüm etdirir: "ABŞ Azərbaycanla tərəfdaşlığını enerji sabitliyinin həyata keçirilməsinin mümkünlüyü istiqamətində də davam etdirmək əzmindədir. Biz bu önəmli sektorla birlikdə səylərimizi enerji müstəqilliyinin dayanıqlılığı və iqtisadi artım istiqamətində reallaşdıra bilərik".

Həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakı Enerji Həftəsi ilə bağlı məktubunda xüsusi qeyd olunur ki, uzun illərdir həm Türkiyəyə, həm də Avropaya ciddi miqdarda qaz tədarük edən Azərbaycanın dünya enerji bazarında bu strateji rolunun, xüsusilə yerləşdiyimiz mövqedə əhəmiyyəti çox böyükdür.

### Hərtərəfli inkişafın təməli

Bu mötəbər tədbirin fonunda Azərbaycanın son 30 ildə çətin və mübarizələrlə dolu yoldan keçərək bugünkü inkişaf mərhələsinə yüksəlməsini və uğurlarını da aydın şəkildə görmək mümkündür. Danılmaz faktdır ki, Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən siyasətin və qətiyyətin nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın istər siyasi, iqtisadi, sosial, istərsə də hərbi inkişafının təməli qoyuldu.

İyunun 2-də Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"unun rəsmi açılış mərasimindəki çıxışında da Prezident İlham Əliyev məhz bu məqama vurğu etdi.

Dövlət başçısı söylədi ki, ilk neft-qaz sərgisi 1994-cü ildə təşkil edilmişdir. Həmin sərgidən dərhal sonra Azərbaycan beynəlxalq neft şirkətləri konsorsiumu ilə "Əsrin müqaviləsi" adlandırılan, regionda bütün geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirən sazişi imzaladı: "Bunlar Prezident Heydər Əliyevin baxışı sayəsində mümkün oldu. O, aydın şəkildə anlayırdı ki, xüsusilə də enerji sahəsində geniş beynəlxalq əməkdaşlıq olmadan - nəzərə alsaq ki, o zaman bizim iqtisadiyyatımızın ən cəlbedici sahəsi məhz enerji idi, - Azərbaycan çətinliklərin öhdəsindən gələ bilməyəcək və həqiqi müstəqil dövlət ola bilməyəcək".

Bu həmin dövr idi ki, Azərbaycan böyük fəlakətlərdən, vətəndaş müharibəsindən, bir dövlət olaraq məhv olma təhlükəsindən məhz Ulu Öndər Heydər Əliyev sayəsində yenicə qurtulmuşdu. Ermənistanın təcavüzkar siyasəti nəticəsində ərazilərimizin 20 faizi faktiki olaraq işğal altında idi. O dövrdə Ümummilli Liderin səyləri ilə atəşkəs əldə edilməsəydi, digər torpaqlarımızın itkisi də labüd idi. Bütün sahələrdə tənəzzül yaşayan Azərbaycanın bir milyondan çox vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdü.

Həmin dövrdə Azərbaycanın düşdüyü bu acınacaqlı halı təbii ki, xarici investorların enerji və digər sahələrdə ölkəmizə yatırım etmələrinə başlıca əngəl törədirdi. Ancaq müdrik siyasətçi Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü siyasət ölkəmizə qarşı bütün ön yarqıları dəyişdi və "Əsrin müqaviləsi" kimi tarixə düşən nəhəng neft müqaviləsi imzalandı. Bununla da yeni müstəqil Azərbaycanın uğura gedən qapısı açıldı.

Əgər zamanında bu addımlar atılmasaydı, Azərbaycanı qarşıda hansı qaranlıq günlərin gözlədiyini təsəvvür eləmək o qədər də çətin deyil.

### Qlobal səviyyədə aparıcı dövlət

"Bu gün isə onu görürük ki, bizim enerji siyasətimiz iqtisadi və siyasi uğurumuzun aparıcı qüvvəsidir. Bu gün Azərbaycan sabit siyasi sistemə və inkişaf etməkdə olan iqtisadiyyata malik ölkədir" deyən dövlət başçısının söylədiyi kimi, düz üç onillik əvvəl iri addımlarla inkişafa və qələbələrə doğru addımlayan Azərbaycan bütün milli hədəflərinə qətiyyətlə nail oldu.

Təməlini vaxtilə Ulu Öndər Heydər Əliyevin qoyduğu müstəqil və hərtərəfli siyasətin Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilərək həyata keçirilməsi sayəsində Azərbaycan dünyanın nüfuzlu və qlobal proseslərdə öz sözü olan ölkəsi olub. Dünyanın nəqliyyat, enerji qovşağına çevrilən respublikamızın enerji layihələri sayəsində Avrasiyanın enerji xəritəsi yenidən tərtib edilib. Hazırda Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bu siyahının artacağı da labüddür.

Ölkəmizin rəhbəri də çıxışında söylədi ki, boru kəməri ilə müəyyən coğrafiyanın qazla təmin edilməsi baxımından Azərbaycan bu gün qlobal səviyyədə aparıcı dövlətə çevrilmişdir: "Bütün bunlar müsbət dinamikadır və biz enerji sahəmizin inkişafının təkcə Azərbaycanın potensialına deyil, həmçinin qonşuluğumuza da töhfə verdiyini görürük".

Vətən müharibəsində qazandığı Zəfər və bölgədə yaratdığı reallıqlar Azərbaycanın beynəlxalq səviyyədə etibarlı və güvənilən tərəfdaşa çevrilməsinə mühüm zəmin yaradıb. Torpaqlarını işğaldan azad edərək suverenliyini tam təmin edən ölkəmiz bununla bölgədə təhlükəsizliyə və sülhə də geniş imkanlar açıb ki, bu, ümumilikdə regionun inkişafı və tərəqqisi baxımından mühümdür. Azərbaycanda keçirilən beynəlxalq miqyaslı tədbirlərdə də bu gerçəklər bir daha qabarıq şəkildə özünü göstərir.

Bu mənada Bakı Enerji Həftəsi də qlobal enerji məsələlərinin müzakirə edildiyi platforma olmaqla yanaşı, Azərbaycanın əldə etdiyi qələbələr sayəsində bölgədə yaratdığı reallıqları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu nüfuzlu tədbir əcnəbi iş adamlarının erməni işğalından azad edilən Qarabağ və Şərqi Zəngəzura səfər etmələrinə və orada dövlətimiz tərəfindən aparılan genişmiqyaslı tikinti və quruculuq işlərinə şahidlik etmələrinə şərait yaradır.

Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası elan olunub. İşğaldan azad edilmiş həmin ərazilərdə aparılan bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması başlıca yer tutur. Bu yerlərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Bu isə işğaldan azad edilmiş torpaqlarımızda "yaşıl enerji" sahəsində əməkdaşlıq üçün geniş imkanlar açır. Bakı Enerji Həftəsi və digər bu kimi qlobal əhəmiyyətli tədbirlərdə iştirak etmək üçün ölkəmizə gələn əcnəbi iş adamlarının da Qarabağın və Şərqi Zəngəzurun sərmayə yatırımları üçün yüksək potensialından xəbərdar olmaları təqdirəlayiqdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Ölkəmiz qlobal tədbirlər üçün alternativsiz subyektə çevrilir

**Azərbaycan başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur və ölkəmiz beynəlxalq təşkilatların işində fəal iştirak etməyi özünün təhlükəsizliyi və xarici siyasəti üçün mühüm və konseptual əhəmiyyətini bəyan edir. Habelə Azərbaycan Respublikasının təhlükəsizlik konsepsiyasına əsasən, beynəlxalq təşkilatlar təhdidlərin aradan qaldırılmasına və ya onların qarşısının alınmasına yardım etməklə yanaşı, ölkəmizin milli maraqlarının qlobal siyasətdə müdafiəsinə imkanlar yaradırlar. Eyni zamanda bu təşkilatlar Azərbaycanın üzləşdiyi təhlükəsizlik problemlərinə tərəfdaş dövlətlərin diqqətini cəlb etmək üçün əlverişli forum rolunu oynayırlar.**



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, məhz bu çərçivədə beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini ehtiva edən milli maraqlar sırasında təsbit edilib. Məlumdur ki, miqyas və nüfuzundan asılı olmayaraq, universal və regional beynəlxalq təşkilatlar dünyada yaranan yeni təhdidlərlə mübarizədə getdikcə daha çox rol oynayırlar. Azərbaycan isə regionun əsas güc mərkəzi kimi bu tendensiyanı düzgün qiymətləndirir. Məsələn, Azərbaycan Respublikası 1992-ci ildən üzvü olduğu BMT-nin beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olmasında, davamlı inkişafın və demokratikləşmənin qorunub saxlanmasında əvəzsiz rol oynadığını qəbul edərək, habelə BMT dəyərlərini bölüşərək insan hüquqları, iqtisadi və sosial sahələrdə həyata keçirilən müxtəlif proqramlar çərçivəsində BMT ilə əməkdaşlığı genişləndirir. Eyni zamanda ölkəmiz beynəlxalq ictimaiyyətin BMT və digər qurumlar çərçivəsində terrorçuluğa qarşı mübarizəsinə töhfə verməkdədir. "Lakin məsələ burasındadır ki, qütblərarası ziddiyyətin dərinləşməsi ilə təşkilatların özlərinin fəaliyyətinin obyektivliyi və səmərəliliyi ciddi şübhə doğurur. Məsələn, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrinə, həmçinin ATƏT-in, Avropa Şurasının müvafiq sənəd və qərarlarında əks olunmuş aydın mövqeyə baxmayaraq, heç bir beynəlxalq mexanizm Azərbaycan Respublikasının beynəlxalq hüququn norma və prinsiplərinə söykənən suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığının təmini üçün real addım atmadı. Nəticə etibarilə Azərbaycanın öz güc və imkanları hesabına beynəlxalq hüququn aliliyi təmin olunaraq ərazilərimiz işğaldan məhz cənab İlham Əliyevin qətiyyəti hesabına, onun Müzəffər Ali Baş Komandanlığında azad edildi, separatizmə son qoyuldu. Bu kimi tendensiyaları əsas gətirərək cənab İlham Əliyev beynəlxalq hüquqa baxışın dəyişməsini zəruri şərt kimi irəli sürdü", - deyə o bildirib.

Deputat qeyd edib ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatı özünün qızıl dövrünü yaşayıb və təsisatın mövcudiyyət tarixinə baxsaq, hərəkat fəaliyyətinin heç bir dövründə dünyada siyasi proseslərə bu qədər təsir imkanlarına malik olmayıb. Qoşulmama Hərəkatı məhz Prezident İlham Əliyevin liderliyi altında istər pandemiya dövrünün qlobal problemlərinə, istər bu çərçivədə siyasi proseslərə dair ciddi qərarların qəbulu ilə nəticələnən addımlar atılıb, BMT Baş Assambleyasının xüsusi sessiyaları çağırılıb. Yaxud COP29-un Azərbaycanda keçirilməsi, ilk növbədə, ölkəmizə növbəti dəfə böyük etimad və hörmətin birmənalı ifadəsi kimi tarixə düşdü. Görünən odur ki, müasir beynəlxalq qeyri-sabitlik zəminində Azərbaycanda təhlükəsiz mühit, o cümlədən yaratdığı yeni geosiyasi konfiqurasiya ilə cənab İlham Əliyevin ölkəni qlobal güc mərkəzi kimi təsdiqləməsi Azərbaycanı dünyamiqyaslı tədbirlər üçün ideal məkana çevirir. Üstəlik, dövlətimizin Qoşulmama Hərəkatına sədrliyi, habelə BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlüyü dövründə uğurlu fəaliyyəti, eyni zamanda Avroviziya, İslam Həmrəyliyi Oyunları, eləcə də digər çoxsaylı tədbirlərə təhlükəsiz, etibarlı və uğurlu formada evsahibliyi etməsi fonunda Bakı irimiqyaslı tədbirlər üçün kifayət qədər cazibədar məkandır. Siyasi əhəmiyyətinə görə yalnız BMT Baş Assambleyasının əsas sessiyaları ilə müqayisə oluna bilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı keçirildiyi zaman dünyanın siyasi nəbzi məhz tədbirin baş tutduğu məkanda döyündü. Ən azı ona görə ki, tədbir 200-ə yaxın ölkənin dövlət və hökumət başçılarının, həmçinin bütün iri qlobal təsisatların rəhbərlərinin, o cümlədən bir qayda olaraq BMT Baş katibinin iştirakı ilə reallaşdı. Görünən odur ki, Azərbaycan ümumbəşəri niyyətlər naminə evsahibliyi etdiyi tədbirlər vasitəsilə əməkdaşlıq etdiyi dövlətlərlə regional və beynəlxalq problemləri həll etmək istiqamətində birgə fəaliyyət göstərir. Beynəlxalq birlik isə iqtisadi və siyasi çəkisinin artması, habelə Vətən müharibəsi və antiterror tədbirlərindəki müstəsna zəfərləri ilə yaratdığı yeni geosiyasi reallıqlar fonunda ölkəmizin roluna birmənalı şəkildə şübhə ilə yanaşmır.

B.Məhərrəmov vurğulayıb ki, Prezident İlham Əliyev qlobal miqyasda sözünün sahibi olan azsaylı liderlərdən biri kimi tanınır və qəbul edilir: "Ötən dövrdə bilateralizm siyasəti ilə ayırıcı xətlər formalaşdırmağa və bununla da hegemonluğa çalışan güclərin əksinə Azərbaycan multilateralizmi fəal şəkildə dəstəkləyir. Bu mənada, biz beynəlxalq tədbirlərə evsahibliyinin edilməsinə həm də beynəlxalq əlaqələrin hər bir ölkənin bütün tərəfdaşlarla münasibətlərdə imtiyazlardan istifadə etməsinə şərait yaradan mexanizmlərə əsaslanaraq təşkili üçün imkan kimi baxırıq və artıq inkişaf etməkdə olan dövlətlər, o cümlədən kiçik beynəlxalq subyektlər cənab İlham Əliyevin formalaşdıracağı konfiqurasiyalara ciddi ümidlə baxır. Bunun üçün isə real əsaslar var. Çünki perspektivsiz və ətalətdə olan təsisat kimi tanınan Qoşulmama Hərəkatının məhz Azərbaycanın 2019-2023-cü illərdə sədrliyi dövründə canlanması, Hərəkatın qlobal arenada nüfuzu və gücünün möhkəmlənməsi, Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının, habelə Qadın Platformasının əsasının qoyulması ilə institusional inkişafına töhfə verilməsi ölkəmizdən və şəxsən cənab İlham Əliyevdən qlobal arenada böyük gözləntilər yaradır. Bakıya dünyanı daha yaxşıya doğru dəyişməyə qadir qlobal güc kimi yanaşılır".

Siyasətçi bildirib ki, müasir geohəssas keçiddə uğur dedikdə yalnız sosial-iqtisadi inkişafdan danışmırıq. Cənubi Qafqaz kimi mürəkkəb coğrafiyada yalnız sosial-iqtisadi inkişafa köklənmək, eyni zamanda ərazi bütövlüyü, suverenlik, ordu quruculuğu, müdafiə sənayesi, milli təhlükəsizlik, ictimai qayda və ictimai təhlükəsizlik təmin olunmadan hər hansı inkişafdan danışmaq mümkün deyil. Üstəlik, Azərbaycanın qarşısında işğaldan azad edilmiş ərazilərin minadan təmizlənməsi, həmin ərazilərdə quruculuq və bərpa, habelə Böyük qayıdış kimi prinsipial məqsəd dayanır. Təbii ki, özündən zəif dövlətlər və okeanlarla əhatələnib Amerika olmağa, yaxud Avropanın mərkəzində heç bir təhdidlə üzləşmədən İsveçrə olmaq mürəkkəb məsələ deyil, iş, güclülərin arasında güclü və qalib ola bilmək, müstəqil iradə diktə edə bilməkdir. Ulu Öndər Heydər Əliyev və cənab İlham Əliyev Azərbaycanı böyük güclərin maraqlarının toqquşduğu bir coğrafiyanın əsas güc mərkəzinə çevirə bilib.

Deputat qeyd edib ki, SSRİ dağılan məqamda digər keçmiş ittifaq subyektləri 1991-ci ildən inkişafa fokuslandığı halda, Bakı Enerji Həftəsi çərçivəsində rəsmi açılış mərasimində möhtərəm Prezidentin ifadə etdiyi kimi, bizdə müstəqillik uğrunda yol regionda bütün geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirən "Əsrin müqaviləsi" imzalandığı tarixi məqamdan başladı: "Xalqın iradəsi ilə cənab İlham Əliyevin prezident seçilməsi və Ulu Öndər siyasətinin davam etdirilməsi Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təntənəsi oldu, ardıcıl və sistemli fəaliyyət nəticəsində milli iqtisadiyyat quruldu, onun xarici təsirlərə qarşı dayanıqlılığı möhkəmləndi, şaxələnməsi dərinləşdi, iqtisadi artım davamlı və inklüziv xarakter aldı, əhalinin rifah səviyyəsi yüksəldi, gələcək nəsillər üçün irihəcmli maliyyə ehtiyatları formalaşdı. Prezident İlham Əliyevin "Bakı-Ekspo" Mərkəzində də qürurla ifadə etdiyi kimi, bu gün bizim xarici borcumuzun səviyyəsi ÜDM-in 7 faizindən azdır və maliyyə ehtiyatlarımız borcumuzu 14 dəfə üstələyir. Hər kəs də yaxşı bilir ki, bu inkişaf zamanla proseslərin təbii gedişatının nəticəsi deyil, zaman qalsa idi, bu gün Mesopotamiya dünyanın ən inkişaf etmiş coğrafiyası olardı. Bu mənada Azərbaycanın inkişafının təməlində Ulu Öndər Heydər Əliyev və cənab İlham Əliyevin müəyyən etdiyi yol xəritəsi dayanır. Bu yolun sayəsində hərbi, siyasi və iqtisadi cəhətdən güclüyük, qalibik, müstəqilik, suveren haqlarımızı diktə edə bilirik".

B.Məhərrəmov vurğulayıb ki, çoxşaxəli tarazlaşdırılmış xarici siyasət həyata keçirən Azərbaycan bütün dövlətlərlə suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmama kimi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri əsasında dostluq münasibətlərinin qurulmasında səmimi olduğunu göstərə və özünün artan nüfuzu ilə əminlik yarada bilib. Bu isə Azərbaycana olan inamı, ölkəmizdə keçiriləcək beynəlxalq tədbirin effektivliyinə olan ümidi artırır, beynəlxalq tədbirlər üçün ən zəruri şərt sayılan sabitliyin mövcudluğu isə ölkəmizi qlobal miqyaslı tədbirlər üçün, sözün əsl mənasında, alternativsiz subyektə çevirir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Dünya miqyasında "yaşıl enerji"yə töhfə verən ölkələr sırasındayıq

**Bakı Enerji Həftəsi qlobal miqyasda nüfuzlu tədbirlərdən biridir və tədbir çərçivəsində hökumət nümayəndələri, qlobal şirkətlər, sənaye sahəsindəki ekspertlər bir araya gələrək enerji siyasətini müzakirə edirlər. Ən mühüm məqamlardan biri odur ki, Bakı Enerji Həftəsi çərçivəsində bir neçə tədbir keçirilir. Eyni zamanda "Caspian Oil and Gas" və "Baku Energy Forum"unun 30 illikləri qeyd edilir. Azərbaycan artıq bir ənənə formalaşdırıb və bu, müstəqillik tariximizdə davamlı olaraq təşkil edilən mühüm tədbirlərdəndir.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, 30 il əvvəl bu istiqamətdə işlərə başlananda Azərbaycan əsasən neft istehsalına və onun artırılmasına fokuslanırdısa, növbəti mərhələlərdə qaz istehsalı məsələləri də gündəmə gəldi: "Son illər Bakı Enerji Həftəsinin gündəliyində "yaşıl enerji" də yer tutur, çünki Azərbaycan bu sahədə də sürətlə irəliləyir. Enerji həftəsi ölkəmizə neft, qaz sahəsi ilə yanaşı, "yaşıl enerji" sektoruna da ciddi dividendlər verir. Tədbirlərdə qlobal miqyaslı nüfuzlu şirkətlər iştirak edirlər və onlar arasında əməkdaşlıq dərinləşir. Ötən il və hazırda keçirilən Bakı Enerji Həftəsi "yaşıl enerji" sahəsində imzalanan müqavilələrlə diqqəti çəkir. Bu müqavilələr Azərbaycanın bu sahədəki mövqeyini gücləndirir, "yaşıl enerji" sektoruna xarici investisiyaların cəlbinə xidmət edir. Məhz Bakı Enerji Həftəsi çərçivəsində ölkəmizin əsas rol alacağı "yaşıl enerji" dəhlizlərinin müzakirə mövzusu olması həm də gələcək planlardan xəbər verir. Bunlardan biri Qara dənizin altı ilə enerji kabelinin çəkilməsini özündə ehtiva edən "Xəzər-Qara dəniz-Avropa" "yaşıl enerji" dəhlizi layihəsidir. Eyni zamanda Azərbaycan-Türkiyə-Avropa, Azərbaycan-Mərkəzi Asiya "yaşıl enerji" dəhlizləri də müzakirə mövzusudur. Azərbaycan təkcə



"yaşıl enerji"nin istehsalı deyil, həm də ixracı ilə bağlı imkanları qiymətləndirir".

İİTKM-in direktor müavini qeyd edib ki, qlobal şirkətlərdən biri olan BP Azərbaycanda "yaşıl enerji" sektroruna da investisiya qoyur. Builki Bakı Enerji Həftəsində bununla bağlı mühüm sənəd imzalanıb. Cəbrayıl rayonunda "yaşıl enerji" istehsalında BP və Azərbaycan şirkətləri yer alacaq və bu sahədə əməkdaşlıq dərinləşəcək. Buna paralel olaraq Naxçıvanda "yaşıl enerji" istehsalı və ixracı, işğaldan azad olunmuş ərazilərimizdə digər layihələrin icrası ilə bağlı məsələlər də müzakirə olunub. Bütün bunlar göstərir ki, Azərbaycan dünya miqyasında "yaşıl enerji"yə töhfə verən ölkələr sırasında yer alır. "Neft və qazla zəngin olan ölkəmiz bu sahədə də öz potensialını reallaşdırmaq istəyir. Bakı Enerji Həftəsinin bu baxımdan da ölkəmiz üçün mühüm rol oynayacağını düşünürəm. Qarşıdakı müddətdə Azərbaycan "yaşıl enerji"yə investisiya qoymaqla yanaşı, həm də enerji ixracatçısı mövqeyini qoruyub saxlayacaq. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda da ölkənin hədəfi bundan ibarətdir ki, enerji qoyuluşu güclərində 2030-cu ildə "yaşıl enerji"nin payı 30 faizə çatdırılsın. Amma müzakirələr göstərir ki, Azərbaycan daha tez - 2027-ci ildə bu hədəfə çatacaq. Burada yeni ideyalar da meydana gəlir. Məsələn, builki Bakı Enerji Həftəsindəki müzakirələrdə "yaşıl enerji" ixracı ilə yanaşı, Qara dənizin dibi ilə data nəql edəcək, fiberoptik kabellərin çəkilməsi də müzakirə olunur. Göründüyü kimi, məsələ enerji müstəvisindən çıxaraq daha böyük və Azərbaycan üçün mühüm olan sahələri əhatə etməyə başlayıb. Bakı Enerji Həftəsində ən son trendlər izlənilir və süni intellektin sürətli inkişafının yaratdığı reallıqlar nəzərə alınır", - deyə R.Hüseyn əlavə edib.

İİTKM-in rəsmisi qeyd edib ki, ümumilikdə Bakı Enerji Həftəsində Azərbaycan iqtisadiyyatına töhfə verəcək layihələr müzakirə olunur, yeni ideyalar gündəmə gətirilir və qarşıdakı müddətdə bunların reallaşması istiqamətində atılacaq addımlar müəyyənləşdirilir.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Qurtuluş məfkurəsi: konstitusion quruluşdan suverenlik zirvəsinə"

**İyunun 4-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının, YAP Nizami rayon təşkilatının, Nizami Rayon İcra Hakimiyyətinin və "Türk Ağsaqqalları arasında Əlaqələrin İnkişafı" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluş məfkurəsi: konstitusion quruluşdan suverenlik zirvəsinə" mövzusunda konfrans keçirilib.**

Heydər Əliyev adına Neft Emalı Zavodunda keçirilən tədbirdə əvvəlcə Ümummilli Liderin büstünün önünə əklil və gül dəstələri qoyulub.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş videoçarx nümayiş olunub.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə tədbir iştirakçılarını qarşıdan gələn 15 İyun - Milli Qurtuluş Günü münasibətilə təbrik edib. Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən bəhs edən A.Rəhimzadə bildirib ki, Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etsə də, onu itirmək təhlükəsi ilə üz-üzə qalmışdı: "Ozamankı hakimiyyət respublikanı idarə etmək iqtidarında deyildi. Bu səbəbdən də respublikamızda dərin böhran hökm sürür, torpaqlarımızın Ermənistan tərəfindən işğalı davam edirdi. Belə bir şəraitdə xalqımız, o cümlədən dəyərli ziyalılarımız bu ağır durumdan çıxış yolunu yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü".

YAP Veteranlar Şurasının sədri qeyd edib ki, 1993-cü ilin 15 iyununda Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın tarixində yeni mərhələ başlandı. O, tarixi qayıdışdan sonra ölkəmizin bütün çətinliklərdən xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlanıldığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib. A.Rəhimzadənin sözlərinə görə, bu gün milli qurtuluş məfkurəsinin təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır: "Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan beynəlxalq müstəvidə güclü, qüdrətli dövlətə çevrilib. "Dəmir yumruq" əməliyyatı ilə qazanılan tarixi Zəfərin əsasında Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, Azərbaycanın siyasi, iqtisadi, mədəni, hərbi sahələrdə, eyni zamanda xarici siyasətdə uğurları və xalq-iqtidar birliyi dayanır".

Tədbirdə çıxış edən Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılov bildirib ki, Milli Qurtuluş Günü Azərbaycan tarixində müstəsna yer tutur. O deyib ki, Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan məhv olmaqdan, parçalanmaqdan xilas oldu: "Ulu Öndərin tarixi qayıdışından sonra respublikada bütün sahələr üzrə dirçəliş dövrü, Azərbaycanın dünya birliyinə fəal inteqrasiyası başladı, siyasi və iqtisadi islahatlar aparıldı. Müstəqil dövlətimizin yeni konstitusiyası qəbul olundu. Bütövlükdə bu gün ölkəmiz dünyanın nüfuzlu dövlətləri sırasındadır. Xüsusilə əlamətdar haldır ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz torpaqlarımızı Ermənistanın işğalından azad etdi, dövlətimizin ərazi bütövlüyü və suverenliyi tam təmin olundu. Biz Milli Qurtuluş Gününü qələbə əhvali-ruhiyyəsi ilə qeyd edirik. Qazanılan bütün nailiyyətlərin əsasında Qurtuluş məfkurəsi dayanır".





"Türk Ağsaqqalları arasında Əlaqələrin İnkişafı" İctimai Birliyinin sədri, YAP Veteranlar Şurasının üzvü Sudeyif İmamverdiyev çıxışında bildirib ki, 1993-cü il iyunun 15-i xalqımızın yaddaşına qurtuluş tarixi kimi yazılıb: "Bu tarixi yaradan isə Ulu Öndər Heydər Əliyevdir. Dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətinin hər iki dövrü dövlətə, xalqa xidmət nümunəsidir. Əgər hakimiyyətinin birinci dövründə Azərbaycanı keçmiş ittifaqın ən qabaqcıl respublikasına çevirmişdisə, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə isə xilaskarlıq missiyasını yerinə yetirərək ölkəmizi müstəqilliyini itirmək, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas etdi, inkişaf yoluna çıxardı".

"Milli Qurtuluş Günü Azərbaycana böyük uğurlar qazandırdı və bu gün də qazandırmaqdadır. "Qurtuluş Azərbaycana nə verdi?" sualının ümumiləşdirilmiş cavabı budur ki, Azərbaycanın dövlət müstəqilliyinin daimiliyi, sarsılmazlığı təmin edildi", - deyə S.İmamverdiyev vurğulayıb.

YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov da çıxışında 15 İyun - Milli Qurtuluş Gününün tariximizdəki rolundan danışaraq müstəqil Azərbaycanın qurulması və inkişafında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindən söz açıb. Onun sözlərinə görə, Ulu Öndər tarix baxımından çox qısa bir müddətdə milli dövlətçiliyin sarsılmaz əsaslarını yaradıb və Azərbaycanın müstəqilliyinin əbədi, dönməz xarakter almasına nail olub: "Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, Azərbaycanın müstəqilliyi əbədi olacaq və ölkəmizin qüdrəti daha da artacaq".

Sonra Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul edilmiş üzvlərə partiya vəsiqələri təqdim olunub, yubiley yaşında olan partiyanın Nizami rayon təşkilatının ərazi partiya təşkilat sədrləri və veteranları təltif edilib, YAP Nizami rayon təşkilatının könüllülük layihəsinin məzunlarına sertifikatlar verilib.

Konfrans Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

*"Azərbaycan"*

# Dekolonizasiya və təzminat məsələlərində elmi öhdəliyə dair Bakı Bəyanatı qəbul edilib

**İyunun 3-də Azərbaycanın paytaxtında keçirilən "İmperial quruluş: Kolonial ideologiyalar və reallıqlar arasında" adlı beynəlxalq elmi konfransda Dekolonizasiya və təzminat məsələlərində elmi öhdəliyə dair Bakı Bəyanatı qəbul edilib.**



AZƏRTAC bəyanatı təqdim edir:

"Biz, 2025-ci il iyunun 3-də Bakıda keçirilmiş "İmperial quruluş: Kolonial ideologiyalar və reallıqlar arasında" adlı beynəlxalq elmi konfransında iştirak edən alim və akademiklər olaraq, insan hüquqları, ədalət, dekolonizasiya, elmi azadlıq və həqiqət axtarışına dair qlobal dəyərlərə sadiqliyimizi elmi təşəbbüs və yanaşmalarımız vasitəsilə bir daha bəyan edirik.

Biz kolonializmin müasir cəmiyyətlərdə davam edən irsini nəzərə alaraq, onun ideoloji, siyasi, sosial, mədəni və iqtisadi təsirləri barəsində davamlı şəkildə elmi səviyyədə araşdırmanın vacibliyini qəbul edir və kolonializm anlayışının doğru dərk olunması, dialoqun təşviqi, insan ləyaqətinə və xalqların dekolonizasiya hüququna hörmətin inkişaf etdirilməsində elmi-tədqiqat və təhsilin həlledici rolunu vurğulayırıq.

Biz kolonial hakimiyyətin tarixi prosesləri və quruluşlarının qitələrdə dərin, çoxşaxəli təsirlər yaratdığını, lakin bunların çoxunun hələ tam şəkildə həll olunmadığını qəbul edirik. Müxtəlif elmi sahələri, regionları və intellektual ənənələri təmsil edən alimlər olaraq, kolonial irsin tədqiqi zamanı bərabərlik, sülh və doğru səlahiyyətlərin verilməsi istiqamətində fənlərarası əməkdaşlığın və müstəqil araşdırmanın vacibliyini təsdiq edirik.

BMT-nin Afrikamənşəli xalqlar üzrə Daimi Forumu və Afrikaəsilli xalqlar üzrə Ekspertlər Qrupunun təşəbbüsü ilə yaradılmış Afrikamənşəli xalqların tədqiqi üzrə Qlobal Şəbəkənin fəaliyyətini yüksək qiymətləndiririk. Bu şəbəkə tədqiqatçılar, hüquq mütəxəssisləri, siyasi ekspertlər, təhsil işçiləri, akademik institutlar, məktəblər və universitetlər arasında əlaqə yaratmaqla, BMT-nin irqçiliklə mübarizə mexanizmlərinə, üzv dövlətlərə, BMT agentliklərinə, vətəndaş cəmiyyətinə, hüquq müdafiəçilərinə və ictimaiyyətə dəstək göstərməyi hədəfləyir.

Bundan əlavə, biz elmi araşdırmalardan tarixən kənarda qalmış icmaların dekolonizasiya və insan hüquqları mövzusundakı müzakirələrə cəlb edildiyi inklüziv elmi platformaların yaradılmasının vacibliyini bir daha vurğulayırıq. Bu yolla sistemli şəkildə ədalətsizliklərin aradan qaldırılmasına və intellektual plüralizmin təşviqinə yönəlmiş qlobal səylərə töhfə vermək istəyirik.

Bu yanaşmanı rəhbər tutaraq və hər hansı hüquqi öhdəlik yaratmadan, biz dekolonizasiya və təzminat məsələlərinə dair gələcək elmi əməkdaşlıq təşəbbüslərini dəstəkləyir və bu istiqamətə töhfə vermək niyyətimizi açıq şəkildə bəyan edirik.

Bu məqsədlə biz beynəlxalq elmi həmrəyliyi gücləndirmək, tədqiqatçılar arasında əməkdaşlığı genişləndirmək, gənc alimləri dəstəkləmək və dekolonizasiya mövzusunda bilik mübadiləsinə şərait yaratmaq məqsədilə Dekolonizasiya üzrə Beynəlxalq Tədqiqat və Bilik Platformasının yaradılmasında ortaq niyyətimizi bildiririk.

Biz beynəlxalq təşkilatları, hökumətlərarası qurumları, regional institutları və vətəndaş cəmiyyəti nümayəndələrini bu platformaya dəstək verməyə çağırırıq. Belə bir dəstək sistemli şəkildə ədalətsizliklərin aradan qaldırılması, təzminatların verilməsi, dayanıqlı inkişaf və dekolonizasiyaya nail olmaq baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir.

# *ADA Universitetində "dəyirmi masa":* "Müasir beynəlxalq münasibətlərdə müstəmləkə düşüncəsinin davamlılığı"

**İyunun 4-də ADA Universitetində "Müasir beynəlxalq münasibətlərdə müstəmləkə düşüncəsinin davamlılığı" mövzusunda "dəyirmi masa" keçirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" adlı beynəlxalq elmi konfransın iştirakçılarının da olduğu "dəyirmi masa"da müstəmləkə düşüncəsinin və müasir beynəlxalq münasibətlərin davamlılığı müzakirə edilib.

Tədbirə ADA Universiteti nəzdində İnkişaf və Diplomatiya İnstitutunun siyasi tədqiqatlar, təhlil və nəşrlər üzrə direktoru Damian Krneviç moderatorluq edib.

BMT-nin Afrikaəsilli Xalqların Daimi Forumunun üzvü June Soomer müstəmləkəçilərin məqsədinin öz ölkəsini inkişaf etdirmək və zənginləşdirmək üçün müstəmləkə edilmiş torpaqlardan ehtiyatların çıxarılması olduğunu və onların heç birinin bu hərəkətlərini səhv hesab etmədiyini vurğulayıb. "Karib adalarına gələn avropalılar milyonlarla yerli əhali ilə qarşılaşdılar. Cəmi 11 ildən sonra onların sayı yüz minlərlə azaldı. Kolumbun gündəlikləri bu xalqların qonaqpərvərliyinə dəlalət edir. Lakin qonaqpərvərlik qətllərlə qarşılandı və kütləvi soyqırımına səbəb oldu. Yerli əhali məhv edildikdən sonra torpaqlar ələ keçirildi. Müstəmləkəçilər rəhbərlərinə müraciət edərək, bunu bu torpaqlarda guya "insan olmadığı" ilə əsaslandırdılar. Torpaqları ələ keçirərək adaların adlarını dəyişdirdilər və onlara aid olduqlarını iddia etdilər", - deyə June Soomer diqqətə çatdırıb.

ABŞ-ni təmsil edən İdarəçilik üzrə beynəlxalq məsləhətçi Carlyle Corbin bildirib ki, tarixən müstəmləkəçilikdən əziyyət çəkən, səs hüququ olmayan xalqlar tədricən Birləşmiş Millətlər Təşkilatı kimi beynəlxalq platformalardan istifadə edərək öz inkişaflarına dair fikirlərini ifadə etmək imkanı əldə etdilər. O qeyd edib ki, dekolonizasiya səyləri tam özünüidarəetmənin ərazi təminatı məsələlərinə aid olan BMT Nizamnaməsinin XI fəslinə əsaslanır. "1946-cı ildə dünyanın 74 koloniyasının siyahısını tərtib etmək üçün təməl qoyuldu. Vaxt keçdikcə bu siyahı azaldı, lakin həmişə qanuni səbəblərdən deyil. Bəzi ərazilər müstəmləkəçilərin tam özünüidarəetməni təmin etmək üçün minimum standartlar hazırlamadan öncə xaric edilib", - deyə beynəlxalq məsləhətçi əlavə edib.

O vurğulayıb ki, 1946-1960-cı illər arasında özünüidarə hüququ olmayan bəzi ərazilər siyahıdan çıxarıldı. Bu, xüsusilə Fransız ərazilərinə aid idi. Bu ərazilərin bəziləri yenidən baxıldıqdan sonra siyahıya qaytarıldı.

Cənub Sakit Okeanı Universitetində baş müəllim Lorenz Rudolf Gonschor öz növbəsində müstəmləkəçiliyin yalnız siyasi strukturlarda deyil, düşüncə tərzində də özünü göstərdiyini qeyd edib. "Məsələn, Ficinin paytaxtı Suva şəhərində küçələr ingilis müstəmləkə xadimlərinin adlarını daşıyır: Elizabeth street, Queen street, Victoria street, Gordon street. Ficiyə məxsus küçə adları olsa da, onlar yalnız ingilis rəhbərliyi ilə əməkdaşlıq edən liderlərlə əlaqəlidirlər. Bu, müstəmləkə düşüncəsinin bölgənin ictimai yaddaşına təsirinin davam etdiyini göstərir", - deyə o bildirib.

Daha sonra fikir mübadiləsi aparılıb və qonaqları maraqlandıran suallar cavablandırılıb.

# Milli Məclisdə "İstilik təchizatı haqqında" qanun layihəsi ilə bağlı dinləmə keçirilib

**İyunun 4-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində "İstilik təchizatı haqqında" qanun layihəsi ilə əlaqədar dinləmə keçirilib.**

Tədbiri açan Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov dinləmədə müzakirəyə çıxarılan qanun layihəsinin vacibliyindən danışarkən deyib ki, bu, vətəndaşların gündəlik həyatına, sosial rifahına, şəhərsalma proseslərinə və enerji təhlükəsizliyinə birbaşa təsir göstərən sənəddir. Müasir yanaşmalara uyğun hazırlanmış "İstilik təchizatı haqqında" qanun layihəsi istilik enerjisinin istehsalı, paylanması, satışı və istifadəsinə dair hüquqi, iqtisadi və təşkilati əsasları müəyyənləşdirir.

Layihənin əsas müddəalarından bəhs edərkən komitə sədri vurğulayıb ki, sənəddə mərkəzləşdirilmiş istilik sistemlərinin təkmilləşdirilməsi, fərdi istilik sistemlərinin hüquqi statusu, enerji resurslarından istifadədə səmərəliliyin artırılması və bərpaolunan enerji mənbələrindən istifadənin stimullaşdırılması məsələləri xüsusi yer tutub. Həmçinin layihə istilik təchizatı sektorunun səmərəli, təhlükəsiz və davamlı fəaliyyətini təmin etməklə dövlət-özəl tərəfdaşlığını, texniki tələblərin standartlaşdırılmasını və bazar mexanizmlərinin təkmilləşdirilməsini nəzərdə tutur.

Qanun layihəsinin parlamentdə birinci oxunuşda geniş müzakirələri barədə məlumat verən komitə sədri diqqətə çatdırıb ki, Milli Məclisin Sədri Sahibə Qafarova məsələnin yüksək ictimai aktuallığını nəzərə alaraq,"İstilik təchizatı haqqında" qanun layihəsinə dair dinləmənin keçirilməsini tövsiyə edib.

Dinləmədə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Fatma Yıldırım mövzu ilə bağlı çıxış ediblər. Onlar qanun layihəsinin aktuallığından söz açıblar, Azərbaycanda energetika sahəsi ilə bağlı vacib qanunların qəbul edilməsinin enerji istehsalında, idarəçiliyində və səmərəliliyində ciddi irəliləyişlərə səbəb olduğunu bildiriblər. Vurğulanıb ki, müzakirə edilən qanun layihəsinin qəbulu istilik enerjisi təchizatının keyfiyyətini yüksəldəcək, binaların istilik təchizatı ilə bağlı bir çox məsələlərin effektiv həllinə kömək edəcək.

Deputatlar enerji istehsalı və istehlakının bəzi aktual məsələlərinə toxunublar, daha müasir, ekoloji təmiz, enerji resurslarına qənaət etməyə imkan verən optimal istilik təchizatı sisteminin qurulması ilə bağlı fikirlərini səsləndiriblər.

Məsələ ətrafında aparılan müzakirələrdə deputatlar Asif Əsgərov, Naqif Həmzəyev, Aydın Hüseynov, Əlibala Məhərrəmzadə, Vüqar Rəhimzadə çıxış edərək, qanun layihəsində istilik enerjisinin istehsalı və istehlakı ilə bağlı təsbit olunan məsələlərin əhəmiyyəti, iqtisadi mahiyyəti, mərkəzləşdirilmiş istilik təchizatının üstünlükləri barədə fikirlərini bölüşüblər. Millət vəkilləri ekoloji cəhətdən daha təmiz enerji növlərindən istifadənin faydaları, o cümlədən istilik təchizatında alternativ enerji mənbələrindən istifadə edilməsinin səmərəliliyi və ətraf mühitin mühafizəsi baxımından vacibliyindən danışıblar, habelə yeni istilik təchizatı sistemlərinin qurulması, mövcud sistemlərin modernləşdirilməsi ilə bağlı qeyd və təkliflərini səsləndiriblər.

Sonra iclasda energetika nazirinin müavini Elnur Soltanov, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini Dövlətxan Dövlətxanov, İqtisadiyyat Nazirliyinin İqtisadi siyasət şöbəsinin müdiri Toğrul Quliyev, Nazirlər Kabinetinin Sənaye və energetika şöbəsi müdirinin müavini Elmar Hüseynzadə, "Azəriqaz" İstehsalat Birliyinin Hüquq departamentinin rəisi Vüqar Eyvazov, "Azərenerji" ASC-nin Texniki-istehsalat idarəsinin rəisi Vaqif Tağıyev, Fövqəladə Hallar Nazirliyinin Maye və təbii qaz obyektlərində işlərin təhlükəsiz görülməsinə nəzarət müfəttişliyinin rəisi Eldar Əhmədov, MİDA MMC-nin şöbə müdiri Rizvan Şərifov, "Kristal Abşeron" MTK-nın icraçı direktoru İbrahim Dostumalıyev, "Azəristiliktəchizat" ASC-nin sədri İlham Mirzəliyev çıxış ediblər.

Çıxışçılar yeni qanun layihəsinin zəruriliyini qeyd edərək, onun hazırlanması zamanı iqtisadi və sosial təsirlərin qiymətləndirilməsini, beynəlxalq təcrübənin, ölkəmizin reallıqlarının nəzərə alınmasını yüksək qiymətləndiriblər. Sənədin istilik təchizatı sektorunun inkişafı, istilik təchizatı obyektlərinin tikintisi, yenidən qurulması, istilik şəbəkələrinin təhlükəsizliyinin təmin edilməsi, habelə istilik enerjisi istehsalçılarının və istehlakçılarının maraqlarının qorunması nöqteyi-nəzərindən əhəmiyyətindən söhbət açıblar.

Qaldırılan məsələlərə münasibət bildirən aidiyyəti qurumların nümayəndələri ölkədə istilik təchizatı sahəsində həyata keçirilən tənzimləmə qaydalarından bəhs ediblər, çoxmənzilli binalarda mərkəzləşdirilmiş istilik sistemlərinin tətbiqinin nəzərdə tutulduğunu, bunun səmərəlilik və təhlükəsizlik baxımından daha əlverişli olduğunu, habelə ekoloji mühitin qorunmasına xidmət etdiyini qeyd ediblər, istilik təchizatı sahəsində dövlət-özəl tərəfdaşlığının əhəmiyyətindən danışıblar.

İctimai dinləməyə yekun vuran komitə sədri Sadiq Qurbanov qanun layihəsinin mükəmməl şəkildə hazırlandığını, məsələ ilə bağlı səmərəli müzakirələrin keçirildiyini və bunun maarifləndirmə nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

Tədbirdə Milli Məclisin deputatları, parlament Aparatının əməkdaşları, aidiyyəti qurumların təmsilçiləri, biznes strukturlarının nümayəndələri və digər şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Azərbaycan və Kamboca deputatlarının onlayn görüşü keçirilib

**İyunun 4-də Azərbaycan və Kamboca parlamentlərinin qarşılıqlı dostluq qruplarının nümayəndələrinin iştirakı ilə videokonfrans formatında görüş keçirilib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, onlayn görüşdə Milli Məclisin Kamboca ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Şahin Seyidzadə çıxış edərək iştirakçıları salamlayıb, ölkələrimiz arasında əməkdaşlığın perspektivləri və mövcud potensialı barədə danışıb. O, Milli Məclisin Kamboca parlamenti ilə əlaqələrin inkişafına böyük önəm verdiyini vurğulayıb, münasibətlərin dərinləşməsində dostluq qruplarının rolunu xüsusi qeyd edərək, bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Kamboca Parlamenti Milli Assambleyasının Azərbaycanla dostluq qrupunun rəhbəri Suos Yara Kambocanın Azərbaycanla müxtəlif sahələrdə, o cümlədən qanunverici orqanlar səviyyəsində əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirib. O, münasibətlərin möhkəmləndirilməsində parlamentlərarası dostluq qrupları arasında sıx təmasların mühüm rol oynadığını qeyd edib.

Sonra görüşdə parlamentlərarası əlaqələrin cari vəziyyəti, inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Onlayn iclasda Milli Məclisin Kamboca ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Könül Nurullayeva, Səbinə Xasayeva, kambocalı parlamentarilər və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndə heyəti BƏT-in 113-cü sessiyasında iştirak edir




**Beynəlxalq Əmək Təşkilatına (BƏT) üzv ölkələrin hökumət nümayəndələri və sosial tərəfdaşların iştirakı ilə Cenevrədə (İsveçrə) Beynəlxalq Əmək Konfransının 113-cü sessiyası keçirilir.**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədovun rəhbərliyi ilə qurumun nümayəndə heyəti tədbirdə iştirak edir.

Sessiyada çıxış edən konfederasiya sədri Azərbaycan vətəndaşının əmək hüquqlarının qorunmasının dövlət siyasətinin prioritetlərindən olduğunu vurğulayıb, ittifaq üzvlərinin əmək, sosial, iqtisadi hüquqlarının müdafiəsi, sağlamlığının qorunması, müalicə və istirahətinin təşkili üçün görülən işlər və göstərilən xidmətlər, tətbiq olunan yeniliklər barədə məlumat verib.

BƏT-in Azərbaycanın etibarlı sosial tərəfdaşı olduğunu qeyd edən konfederasiya sədri ölkəmizin müstəqilliyinin ilk illərindən quruma üzv olduğunu, işçi hüquqları ilə bağlı 59 konvensiyasının ratifikasiya edildiyini diqqətə çatdırıb.

Bildirilib ki, qlobal dəyişikliklər, çağırışlar müəyyən çətinliklər də yaradır və mümkün risklərin qarşısının alınması üçün səylər birləşdirilməlidir. Süni intellektin, rəqəmsallaşmanın məşğulluğa, əmək bazarına təsirlərini qeyd edən konfederasiya sədri BƏT tərəfindən yeni qlobal standartların qəbulunun işçilərinin hüquqlarının qorunmasında hüquqi baxımdan önəmini bildirib.

Tədbirdə Azərbaycan həmkarlar ittifaqları sistemində aparılan islahatlar və layihələr, "Kurort" Turizm İnformasiya Mərkəzi, eləcə də Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinin fəaliyyəti barədə məlumat verilib, həmkarlar ittifaqları ilə bağlı qanunvericiliyə dəyişikliklərə dair qanun layihəsi üzərində iş aparıldığı diqqətə çatdırılıb.

Vurğulanıb ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ittifaq üzvlərinin hüquqlarının qorunması, layiqli iş şəraitinin təmin olunması istiqamətində bundan sonra da səylərini davam etdirəcəkdir.

***N.ƏSGƏROVA,***
***"Azərbaycan"***

# "Deloitte" ilə enerji keçidinə və innovasiyalara dair əməkdaşlıq imkanları nəzərdən keçirilib



**İqtisadiyyat naziri Mikayıl Cabbarov "Deloitte" şirkətinin qlobal enerji, resurslar və sənaye sektorları üzrə lideri Stenli Porter ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanın strateji inkişaf prioritetləri, ölkəmizin təmiz enerji sahəsində təşəbbüsləri və regional layihələrdə artan rolu haqqında məlumat verilib. SOCAR-ın beynəlxalq miqyasda genişlənmə strategiyasına dəstək üzrə "Deloitte" ilə uğurlu əməkdaşlıq həyata keçirildiyi bildirilib.

Tərəflər qlobal enerji keçidində trendlər, sənayedə dayanıqlılıq və karbonsuzlaşma təşəbbüsləri, həmçinin innovasiyaların tətbiqi ilə bağlı müzakirələr aparıb, əməkdaşlıq perspektivlərini nəzərdən keçiriblər.

# Pakistanın neft naziri ilə əməkdaşlıq perspektivləri barədə müzakirələr aparılıb



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Pakistanın neft naziri Əli Pervaiz Maliklə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Pakistan dostluq və qardaşlıq münasibətlərinin dövlət başçılarının siyasi iradəsi əsasında uğurla inkişaf etdiyi vurğulanıb.

İki ölkə arasında sənaye, ticarət və logistika istiqamətləri üzrə tərəfdaşlığın genişləndiyi nəzərə çatdırılıb. Özəl sektor nümayəndələrinin iştirakı ilə mütəmadi keçirilən tədbirlərin işgüzar dairələr arasında qarşılıqlı faydalı əlaqələrin qurulmasına və möhkəmləndirilməsinə töhfə verdiyi bildirilib.

Tərəflər iqtisadi əməkdaşlığın şaxələndirilməsi, enerji sahəsində həyata keçirilən qlobal layihələr və "yaşıl enerji" üzrə işbirliyi imkanları barədə fikir mübadiləsi aparıblar.

# Azərbaycan ilə Şimal və Baltik dövlətləri arasında əməkdaşlıq məsələləri müzakirə olunub

**İyunun 4-də xarici işlər nazirinin müavini Yalçın Rəfiyev regiona səfərləri çərçivəsində Şimal və Baltik dövlətləri (İsveç, Finlandiya, Norveç, Danimarka, Estoniya, Latviya və Litva) xarici işlər nazirliklərinin siyasi direktorlarından ibarət nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Şimal və Baltik dövlətləri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri müzakirə olunub, davamlı siyasi dialoqun saxlanılması üçün qarşılıqlı səfərlər və siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti qeyd olunub.

Görüşdə həmçinin Azərbaycan və Avropa İttifaqı arasında qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyəti vurğulanaraq müxtəlif istiqamətlər, o cümlədən enerji təhlükəsizliyi, ticarət, nəqliyyat, kommunikasiyalar, rəqəmsal inkişaf, kibertəhlükəsizlik sahələri üzrə inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın geostrateji mövqeyi, çoxtərəfli platformalar çərçivəsində oynadığı fəal rol, eləcə də daha geniş regionda sülhün bərqərar olması üçün göstərdiyi praktiki səylər və bütün bunların Azərbaycanla Avropa İttifaqı, o cümlədən Şimal və Baltik dövlətləri arasındakı əməkdaşlıq gündəliyinin daha da zənginləşməsinə verə biləcəyi töhfə vurğulanıb.

Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi, eləcə də qlobal iqlim fəaliyyəti üzrə danışıqlara sədrliyi və əldə olunan tarixi nəticələr yüksək qiymətləndirilib.

Nazir müavini Y.Rəfiyev görüş zamanı həmçinin Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, post-münaqişə dövründə bölgədəki vəziyyət, işğaldan azad edilmiş ərazilərdə aparılan irimiqyaslı bərpa və yenidənqurma işləri, məcburi köçkünlərin əzəli torpaqlarına qayıdışı, eləcə də həmin ərazilərdə mina təhdidləri ilə mübarizə barədə məlumat verib.

Görüşdə habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Bakı Enerji Forumu öz işini tamamlayıb

**Bu gün Bakı Enerji Forumunun 2-ci günü başa çatıb. Bununla da ikigünlük 30-cu "Baku Energy Forum"u başa çatıb.**

AZƏRTAC xəbər verir ki, builki forum enerji sektorunun aktual çağırış, imkanlarını əhatə edən geniş və çoxşaxəli gündəmlə keçirilib.

Bakı Enerji Həftəsi çərçivəsində keçirilən forumda "COP29 nəticələri - Dayanıqlı gələcəyə aparan yol", "Kjell A.Nordström ilə xüsusi sessiya beynəlxalq biznes və ultramüasir şirkətlərin gələcək ssenariləri", "Enerjidə rəqəmsallaşma: məlumat və texnologiyanın gücü", "Qaz bazarı - istehsalçı, nəqliyyatçı və istehlakçılar üçün yeni struktur", "Neft və qaz kəmərləri - etibarlı infrastruktur vasitəsilə enerji təhlükəsizliyinin təmin edilməsi", "Elektrik enerjisinin istehsalı və şəbəkə infrastrukturunun inkişafı: gələcəyin enerji təchizatı" mövzularında panel müzakirələri keçirilib.

İlk sessiyada COP29 prezidenti Muxtar Babayev Bakı Enerji Forumunda "COP29 nəticələri - Dayanıqlı gələcəyə aparan yol" mövzusundakı panel müzakirəsində çıxışı zamanı bildirib ki, COP29 uğurla həyata keçirilib, ortada çoxlu ambisiya olub. Onun sözlərinə görə, yeni çətinliklər ortaya çıxıb, bəzi ölkələr bir qədər fərqli siyasət yürüdür. O qeyd edib ki, xüsusilə ABŞ-nin iqlim müzakirələrindən geri çəkilməsi bu prosesə müəyyən təsirini göstərir.

"Ancaq digər ölkələr, xüsusilə donor ölkələr indi Bakıda vəd etdikləri üzrə artıq hazırlıq işlərinə başlayıblar. COP29 tarixi bir nəticə oldu və 300 milyard dolların toplanmasına başlandı. Çox böyük uğurlar əldə edilib. Azərbaycan Braziliya komandası ilə birlikdə 1,3 trilyon dollarlıq proqramı hazırlayır. Söhbət COP29-da qəbul olunan 300 milyard dollarlıq vəsaiti 1,3 trilyona qədər artırmaqdan gedir. Biz müəyyən etməliyik ki, hansı əlavə maliyyələşdirmə kanalları var və iqlim dəyişikliyi üçün nə edilə bilər. Təkcə donorlar və istehlakçılar nəzərdə tutulmur, həmçinin cənub əməkdaşlığına baxmalıyıq. Bu, bizim üçün çox vacib bir dövrdür, kifayət qədər intensiv və mürəkkəbdir. COP29-da imzalanan sazişlər özəl sektorlara böyük qapılar açdı. Bu resursları necə səfərbər edəcəyimiz üzərində işləyirik. Həmçinin beynəlxalq maliyyə institutları və özəl sektorla birlikdə intensiv işləyirik ki, onları səfərbər edək", - deyə o qeyd edib.

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini, COP29 üzrə baş danışıqçı Yalçın Rəfiyev öz çıxışında qeyd edib ki, COP29 əldə edilmiş nəticələrə görə tarixin ən uğurlu COP-larından biri hesab olunur. O bildirib ki, Paris Sazişi çərçivəsində üç əsas istiqamət fəaliyyət göstərir.

"Təsirlərin yumşaldılması, uyğunlaşma və maliyyələşdirmə. COP29 çətin geosiyasi və qlobal siyasi proseslər şəraitində təşkil olundu. Ölkələrin öz iqlim öhdəliklərini və ambisiyalarını həyata keçirə bilməsi üçün həm texnoloji həllər, həm də potensialın artırılması üzrə tədbirlərin həyata keçirilməsi zəruridir", - deyə o qeyd edib.

Macarıstan Energetika Nazirliyinin energetika siyasəti üzrə dövlət katibi Mark Alfeldi-Boruss nəzərə çatdırıb ki, Macarıstan və Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq artıq strateji mərhələyə keçib. O qeyd edib ki, təchizat marşrutlarını saxlamaq vacibdir.

"Azərbaycanda istehsal olunan "yaşıl enerji" layihəsində iştirak etmək istəyirik. Bunun iqlim hədəflərinə uyğunluğunu nəzərdən keçiririk. Diversifikasiya çox vacib elementdir. Bura yalnız dekarbonizasiya deyil, bərpaolunan enerji də daxildir. Biz COP29-u Paris Sazişindən sonra dönüş nöqtəsi hesab edirik. İndi aydın şəkildə müəyyən edilmiş məqsədlər və maliyyə mənbələri var. COP29-da əldə olunan nəticələrə birlikdə nail olacağıq", - deyə o bildirib.

Daha sonra dünyaca tanınmış qlobal biznes eksperti, məruzəçi, isveçli iqtisadçı, futuroloq və beynəlxalq "bestseller" kitabların müəllifi Kyel A.Nordströmın xüsusi sessiyası olub. Müasir dövrün parlaq mütəfəkkirlərindən olan Nordström Azərbaycanda ilk dəfə olaraq qlobal iqtisadiyyatın gələcəyi, enerji bazarlarının transformasiyası və oyun qaydalarını dəyişəcək innovasiyalarla bağlı fikirlərini bölüşüb. O diqqətə çatdırıb ki, müasir dövrdə urbanizasiya prosesi çox sürətlə gedir.

"10 il əvvəl dünya əhalisinin yalnız 10 faizi şəhərlərdə yaşayırdı. 2016-cı ildə bu rəqəm 50 faizə yüksəldi. Bu gün dünya əhalisinin 70 faizi şəhərlərdə yaşayır, növbəti illərdə isə bu rəqəm 80-85 faizə yüksələcək. Şəhərlər daha da böyüyəcək. Dünyada çox deyil, 600 şəhər olacaq. Bu gün Tokio, İstanbul, London kimi şəhərlərin əhalisi daha da artacaq. Enerji, qida məhsulları, ümumilikdə hər şey şəhərdə istehsal olunacaq. Kosmosdan planetə baxanda yalnız iri şəhərlərin işıqları görünür, qalan yerlər isə qara görünür. Bu qara yerlərin sayı artır. Bəs insanları şəhərlərə köçməyə vadar edən nədir? İnsanları Pekin, Moskva, London və başqa şəhərlərə köçməyə vadar edən ümiddir. İnsan şəhərdə yaxşı təhsil almağa, biznes qurmağa, yaxşı yaşamağa ümid edir. Bu ümidi insanın düşüncəsindən heç kim və heç nə çıxara bilməz. Bu, planetimizin coğrafiyasını dəyişəcək. Gələcəkdə insanlar planetimizin yalnız 2 faizində yaşayacaqlar. Bu gün insanlar, qlobal kampaniyalar, dövlətlər buna hazır olmalıdırlar. XX əsrdən başlayaraq dünyada qloballaşma meyilləri gücləndi. Qloballaşma sanki bir ideologiyaya çevrildi. Divarlar söküldü, informasiya daha geniş coğrafiyanı əhatə etməyə başladı, insanlar daha da yaxınlaşdılar", - deyə o vurğulayıb.

Onun sözlərinə görə, qloballaşma prosesi heç də rəvan keçməyib: "SSRİ dağıldı və bu ərazidə yaşayan xalqlar milli dövlətlərini qurdular və dünyaya inteqrasiya olunmağa başladılar. Bu respublikalar qlobal bazarlara qoşuldular. Bununla yanaşı, texnologiyalar da inkişaf etdi ki, bu da öz növbəsində qlobal iqtisadiyyatın inkişafına səbəb oldu. Lakin bu inkişaf, qazanc istəyi konfliktlər yaratdı və böhranlar başladı. İlk olaraq dünya COVID-19-la mübarizə apardı, Rusiya-Ukrayna müharibəsi başladı və dünyada iqtisadi geriləmə müşahidə olundu".

K.A.Nordström nəzərə çatdırıb ki, müasir dünyada inkişaf istiqamətlərini insanlar özləri müəyyən etməlidir: "Qloballaşma prosesləri heç də rəvan olmur. Çin böyük dövlət olmaqla yanaşı, həm də böyük bir sivilizasiyadır və özünün inkişaf yolu, hədəfləri var. Rusiyanın öz yolu, Avropanın isə tamamilə başqa istiqamətdə inkişaf perspektivləri var. Qlobal səviyyədə əməkdaşlıq və gələcəyin müəyyən olunması konfliktlərin qarşısını ala bilər".

"ACWA Power" şirkətinin Azərbaycan və Türkiyə üzrə direktoru Selim Güven qeyd edib ki, hazırda şirkətin 107 milyard dollarlıq investisiyası var və 14 ölkədə fəaliyyət göstərir. O qeyd edib ki, Azərbaycanda tikilən 240 meqavat gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının (KES) bir hissəsi bu ilin avqustunda istismara veriləcək.

"Daha sonra sentyabr, oktyabr aylarında növbəti mərhələlər həyata keçiriləcək və ilin sonuna bütün layihə tam işə salınacaq. Biz qarşılıqlı etimad əsasında partnyorlarla riskləri aşağı salmağa çalışırıq. Bəzən riskləri azaltmaq üçün rəqiblərimizlə də əməkdaşlıq edirik", - deyə o bildirib.

SOCAR-ın vitse-prezidenti Əfqan İsayev diqqətə çatdırıb ki, SOCAR 2050-ci ilə qədər net sıfır şirkətə çevriləcək: "2035-ci ilə qədər transformasiya edib enerji şirkətinə çevriləcəyik və portfelimizdə qarışıq enerjilər olacaq. Təbii qaz olmasa, biz sərfəli enerjiyə keçid edə bilməyəcəyik. Strategiyamızı 3 məsələ üzrə quracağıq. Birinci əsas məsələ əməliyyatların karbonsuzlaşdırılması, ikinci məsələ korporativ mədəniyyətin dəyişdirilməsi, üçüncü məsələ aşağı karbonlu biznesə başlamaqdır ki, bunlardan da biri bərpaolunan enerjinin istehsalı məsələsidir. Biz dayanıqlı, sərfəli, əlçatan enerjini təmin etmək istəyirik".

Ə.İsayev qeyd edib ki, "SOCAR Green" şirkəti bərpaolunan enerji portfelinin hazırlanmasına birbaşa məsuliyyət daşıyır: "Ölkədə 2030-cu ilə qədər istehsal edilən enerjinin 30 faizinin bərpaolunan enerjidən əldə olunması hədəflənib".

IRENA-nın baş direktor müavini Qauri Sinqx Azərbaycanı COP29-a uğurla evsahibliyi etdiyinə görə təbrik edib: "Bərpaolunan enerji mənbələri 96 faiz daha az xərc aparır və bu, gözəl nəticədir. Biz bu sahəyə investisiyalarımızı davam etdirməliyik".

O qeyd edib ki, bərpaolunan enerji üzrə dünyada çox iş görülməlidir.

"Nəqliyyatın elektrikləşməsi əsas çətinliklərdəndir. COP29-da vədlər verilib. Biz bu hədəflərə doğru irəliləyiriksə, işimizi buna doğru sürətləndirməliyik", - deyə o bildirib.

Energetika nazirinin müavini Kamal Abbasov öz növbəsində bildirib ki, dünyada baş verən son hadisələr dövlətlərin enerji təhlükəsizliyinin təmin olunmasının əhəmiyyətli xarakter daşıdığını göstərir.

O bildirib ki, Azərbaycan təbii qaz ixracı üçün yeni infrastruktur yaradıb və müqavilələrdə müəyyən olunan öhdəliklərini dəqiqliklə yerinə yetirir.

"Təbii qaz enerji və ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Azərbaycan karbon emissiyasını azaltmaq istiqamətində addımlar ataraq təbii qaz hasilatını artırır və Avropadakı tərəfdaşlarının enerji təhlükəsizliyində iştirak edir. Eyni zamanda həmin dövlətlərdə karbon emissiyasının azalmasına dəstək verir. Təbii qaz sənayedə, kənd təsərrüfatında, ümumilikdə iqtisadi inkişafda mühüm amildir. Bununla yanaşı, Azərbaycan külək və günəş enerjisi istehsalında da irəliyə doğru böyük addımlar atır. Azərbaycanda təbii qaz istehsalının artırılması üçün böyük imkanlar var. Bu potensial Avropanın daha çox ölkəsinə qaz ixracına imkan verir. Azərbaycan Qazaxıstan və Türkmənistan qazını da Avropa bazarlarına çıxarmaq üçün tranzit imkanlara malikdir", - deyə K.Abbasov vurğulayıb.

TAP-ın icraçı direktoru Luka Şippatinin sözlərinə görə, Avropaya 47 milyard kubmetrdən çox qaz ixrac olunub ki, bunun da 39 milyard kubmetri İtaliyaya nəql edilib.

"Cənub qaz dəhlizi" vasitəsilə Xəzər dənizində hasil edilən qazı Avropa bazarlarına çatdırırıq. Həqiqətən, son 5 ildə Avropanın enerji təchizatının təhlükəsizliyinə böyük töhfə vermişik. Nominal ötürücülük qabiliyyətini keçmişik. Biz etibarlı, davamlı mənbəyə - Azərbaycana arxalanmışıq. Azərbaycan Avropaya sübut edib ki, o davamlı və etibarlı təchizatçıdır. Biz istənilən riskləri real vaxt ərzində süni intellekt və dron kimi texnologiyalarla idarə edə bilirik. Bütün bu texnologiyalar gündəlik boru kəmərinin etibarlılığını təmin edir", - deyə o nəzərə çatdırıb.

Serbiyanın Mədənçilik və Energetika Nazirliyinin Neft və Qaz üzrə icraçı nazir müavini Saşa Kokoviç bildirib ki, Azərbaycan ilə Serbiya arasında çox yaxşı münasibət mövcuddur.

"Azərbaycanın təbii qazını Macarıstana və digər ölkələrə nəql etmək imkanımız var. Biz 10 ildən çoxdur ki, strateji partnyoruq. Enerji sahəsində ilk dəfə əməkdaşlığa 2023-cü ildə başladıq. Serbiya üçün ilk dəfə idi ki, təbii qazın diversifikasiyasına baş vururdu. Bu çox müsbət haldır ki, cənub-şərqi Avropadan təchizatı əldə edə bildik. Biz istəyirik ki, daxili qaz nəqli sistemimizdə dəyişiklik edək. Təchizat marşrutlarının şaxələndirilməsi bizim üçün kritik vəzifədir və növbəti üç il ərzində həyata keçirilməsi hədəflənib. SOCAR ilə birlikdə istehlak və ötürmə qabiliyyəti üzrə əlverişli həllər tapacağımıza ümid edirik", - deyə o bildirib.

Forum çərçivəsində aparılan müzakirələr enerji sahəsində innovasiyaların tətbiqi, regional və qlobal əməkdaşlığın gücləndirilməsi, həmçinin dayanıqlı və çevik enerji sistemlərinin qurulması baxımından mühüm əhəmiyyət kəsb edib. Bu tədbir həm də Azərbaycanın enerji siyasətinin strateji prioritetlərini və Xəzər regionunun "yaşıl enerji" potensialını beynəlxalq ictimaiyyətə təqdim etmək baxımından vacib platforma rolunu oynayıb.

Ekoloji problemlər və bu problemlərin Yer kürəsi üçün yaratdığı təhlükələr, onların qarşısının alınması yolları, eləcə də "yaşıl enerji" kimi mövzular Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlər proqramında xüsusi yer tutub.

Ənənəvi olaraq, Bakı Enerji Həftəsi çərçivəsində baş tutan tədbirlər zamanı ikitərəfli işgüzar görüşlər (B2B və B2G) keçirilib. Burada yerli və xarici şirkətlərin nümayəndələri üzbəüz formatda əməkdaşlıq və gələcək tərəfdaşlıq yollarını müzakirə edib.

Beləliklə, 30-cu Bakı Enerji Forumu enerji təhlükəsizliyinə nail olmaq yolunda yeni əməkdaşlıqlara zəmin yaradaraq, səmərəli fikir mübadilələri ilə öz işini tamamlayıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycan neokolonializmlə mübarizədə aparıcı ölkələrdəndir

**Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusundakı beynəlxalq elmi konfransın əhəmiyyəti çox böyükdür və tədbiri bir neçə aspektdə dəyərləndirmək olar. Konfrans müasir neokolonializm və müstəmləkəçilik ideologiyalarının təkcə tarixini deyil, həm də müasir dövrdəki formalarını araşdırmaq məqsədi daşıyır. Bu, sadəcə keçmişin bir hissəsi kimi deyil, müasir beynəlxalq münasibətlərdə və siyasi-iqtisadi asılılıqların formalaşmasında müstəmləkəçilik ideyalarının necə təkrarlandığını açıq şəkildə ortaya qoyur. Azərbaycanda bu kimi mövzuların sistemli şəkildə müzakirəyə çıxarılması intellektual səviyyənin yüksəldilməsi və beynəlxalq hüququn, insan haqları sahəsində səylərin artırılması baxımından vacibdir.**



Milli Məclisin deputatı Elçin Mirzəbəyli "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Bakı Təşəbbüs Qrupu dekolonizasiya sahəsində fəaliyyət göstərən qlobal platforma kimi kolonializmə məruz qalan xalqların səslərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün mühüm rol oynayır. Bu, Azərbaycan üçün yeni diplomatik imkanlar yaratmaqla yanaşı, insan haqları, ədalət və beynəlxalq hüququn qorunması kimi sahələrdə aktiv iştirak anlamına gəlir. Müstəmləkəçilikdən əziyyət çəkən digər xalqların nümayəndələrinin konfransda iştirak etməsi Azərbaycanın həmrəyliyini göstərir. "Konfransda qeyd olunduğu kimi, müstəmləkəçilik və onun təsirlərinin universitet proqramlarına daxil edilməsi Azərbaycanın təhsil sistemində də müasir qlobal məsələlərə dair biliklərin inkişafına və gənc nəslin məlumatlandırılmasına xidmət edir. Bu, ölkənin uzunmüddətli strateji inkişafı üçün vacibdir. Konfrans həm tarixi ədalət çağırışıdır, həm də gələcək üçün yeni postkolonial dünyagörüşünün formalaşması təşəbbüsüdür. Bütün bunlarla yanaşı, bütövlükdə mövzu ilə bağlı öz baxış bucağımı ifadə etməyi də zəruri sayıram: XX əsrin ortalarında baş vermiş dekolonizasiya prosesləri nəticəsində Afrika, Asiya və Karib hövzəsi ölkələrinin əksəriyyəti formal müstəqillik qazansa da, neokolonial münasibətlər sistemi hələ də tam ləğv olunmayıb. Fransanın Afrika ölkələri ilə münasibətləri bu baxımdan klassik nümunədir. Bu şəraitdə Azərbaycanın qlobal miqyasda ədalətin bərpası istiqamətində atdığı addımlar xüsusi diqqətəlayiqdir", - deyə E.Mirzəbəyli əlavə edib.

Deputat qeyd edib ki, müasir müstəmləkəçilik klassik müstəmləkəçiliyin zorakı, hərbi ekspansiyasından fərqli olaraq daha incə, strukturlaşdırılmış və "qanuni" mexanizmlərlə həyata keçirilir. Neokolonializmin əsas xüsusiyyətləri iqtisadi asılılığın daha da gücləndirilməsi, mərkəzləşdirilmiş valyuta nəzarətinin həyata keçirilməsi, təbii ehtiyatların talan edilməsi, mədəni və informasiya ekspansiyasının genişləndirilməsidir. Neokolonializm çox vaxt ticarət müqavilələri, borc siyasəti və beynəlxalq maliyyə institutları (IMF, Dünya Bankı) vasitəsilə tətbiq olunur. Keçmiş müstəmləkə dövlətləri Afrika ölkələrinə investisiya və yardım adı ilə iqtisadi nəzarəti davam etdirirlər. CFA frankı zonasındakı 14 Afrika ölkəsinin valyutası bu gün də Fransa Mərkəzi Bankı tərəfindən tənzimlənir. Neokolonial münasibətlərdə çox vaxt Afrikanın neft, qızıl, kobalt, uran kimi strateji ehtiyatlarının xarici şirkətlər tərəfindən aşağı qiymətə istismar olunması müşahidə olunur. Fransız dili və təhsil sistemi, həmçinin Fransa mediasının Afrika ölkələrində yayımı, əhalinin düşüncəsinə ciddi təsir edir. Bu sistemlər müstəmləkəçiliyin rəsmi siyasi formasının ləğv olunmasına baxmayaraq, faktiki asılılığın davam etdirilməsinə xidmət göstərir.

Deputat bildirib ki, Fransanın Afrika ilə əlaqələrində "Françafrik" (Françafrique) adlandırılan qeyri-rəsmi model əsasında qeyri-şəffaf siyasi, iqtisadi və hərbi əlaqələr şəbəkəsi qurulub: "Bu modeldə Fransa bir tərəfdən özəl şirkətlərini, digər tərəfdən isə siyasi elitaları dəstəkləməklə mövcud rejimlər üzərində təsirini saxlayır. Məsələn, Fransa şirkətləri (TotalEnergies, Areva) Çad, Mali, Qabon və digər ölkələrdə energetika və mədən sektoruna nəzarət edir, CFA frankı vasitəsilə maliyyə siyasətinə birbaşa təsir göstərir, Fransa ordusu isə Afrikada daimi hərbi bazalara malikdir. Bu münasibətlərin nəticəsində Afrika ölkələrinin siyasi suverenliyi nominal xarakter daşıyır, iqtisadi resurslar isə əhalinin rifahı üçün deyil, xarici şirkətlərin mənfəəti üçün istifadə olunur".

Son illərdə Azərbaycanın öncüllük nümayiş etdirdiyi proses də daxil olmaqla, neokolonial modellərə qarşı müqavimətini artırmaqda olduğunu vurğulayan deputat bildirib ki, 2020-ci ildən bəri Malidə, Burkina-Fasoda və Nigerdə baş verən çevrilişlər və həmin ölkələrin Fransa ilə əməkdaşlığa son qoyması bu prosesin bariz göstəricisidir. Fransa qoşunlarının bu ölkələrdən çıxarılması, yeni valyuta planlarının hazırlanması və Çin, Türkiyə kimi alternativ tərəfdaşlara yönəlmə neokolonial münasibətlərin zəifləməsinə işarə edir.

Elçin Mirzəbəyli qeyd edib ki, Azərbaycan neokolonializmlə mübarizədə prinsipial mövqe nümayiş etdirən, qlobal Cənubun maraqlarını müdafiə edən aparıcı ölkələrdən birinə çevrilib. Bu kontekstdə Azərbaycanın fəaliyyəti bir neçə əsas istiqamət üzrə qiymətləndirilə bilər: Azərbaycan Qoşulmama Hərəkatına (QH) sədrlik etdiyi müddət ərzində təşkilatın prinsip və dəyərlərinə sadiqliyini nümayiş etdirib. Prezident İlham Əliyevin təşəbbüsü ilə QH çərçivəsində Afrika ölkələrinin maraqlarının müdafiəsi xüsusi yer tutub. "Azərbaycan Afrika ölkələri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlıq prinsipi əsasında əlaqələr qurur. ADA Universiteti vasitəsilə Afrikadan onlarla tələbənin təqaüdlə təhsil alması, habelə Bakı Təşəbbüs Qrupunun fəaliyyətləri mühüm alət funksiyasını yerinə yetirir. Azərbaycanın təşəbbüsü ilə yaradılan Bakı Təşəbbüs Qrupu dekolonizasiya məsələlərinin gündəmə gətirilməsində və informasiya mübarizəsinin aparılmasında mühüm rol oynayır. Azərbaycan yeni dünya düzənində çoxqütblülüyün, ədalətli beynəlxalq münasibətlər sisteminin bərqərar olunmasını dəstəkləyir. Bu yanaşma neokolonial sistemin dağılmasına xidmət edən mühüm ideoloji və siyasi bazanı formalaşdırır", - deyə siyasətçi əlavə edib.

Onun sözlərinə görə, müasir müstəmləkəçilik, qlobal ədalətsizliyin təzahürüdür. Onun aradan qaldırılması üçün yalnız keçmiş müstəmləkə dövlətlərinin məsuliyyət daşıması kifayət deyil, eyni zamanda beynəlxalq ictimaiyyətin prinsipial və ardıcıl mövqeyi tələb olunur. Azərbaycan bu kontekstdə yeni, daha bərabər əsaslı beynəlxalq münasibətlər sisteminin formalaşmasına töhfə verən, siyasi, diplomatik və intellektual resurslarını bu məqsədə səfərbər edən ölkə kimi çıxış edir. Afrika və digər regionlarla həmrəylik, neokolonial təzyiqlərə qarşı ortaq mübarizə XXI əsrin beynəlxalq gündəmində getdikcə daha çox önəm kəsb edir və bu prosesdə Azərbaycanın yeri xüsusilə əhəmiyyətlidir.

Deputat deyib ki, neokolonializmin yaratdığı struktur asılılıqlar və istismar mexanizmləri beynəlxalq münasibətlər sisteminin əsas problemlərindən biridir. Bu müstəvidə Azərbaycan öz tarixi təcrübəsinə, regional liderliyinə və beynəlxalq nüfuzuna əsaslanaraq ədalətli və bərabərhüquqlu münasibətlər sisteminin qurulmasına töhfə verə bilər. Bu, həm də Azərbaycanın Cənubi Qafqazdan kənarda artan geosiyasi əhəmiyyətinin göstəricisidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




## Bakı Təşəbbüs Qrupu məqsədinə daha da yaxınlaşdı

### Paytaxtımızda keçirilən konfrans neokolonializmə qarşı mübarizəyə növbəti töhfə verdi

**2023-cü ildə yaradılmış Bakı Təşəbbüs Qrupunun (BTQ) məqsədi dünyanın müxtəlif ölkələrində yaşayan xalqların müstəmləkəçiliyə qarşı apardıqları mübarizəyə dəstək verməkdir. Qarşısına qoyduğu məqsədə çatmaq üçün BTQ indiyə qədər dünyanın ayrı-ayrı ölkələrində müxtəlif mövzularla beynəlxalq konfranslar keçirmiş və geniş maarifləndirmə işləri aparmışdır.**

Həmin tədbirlərdə insanları istismar altında saxlayan, azadlıq və hüquqlarını əlindən alan müstəmləkəçiliyin aradan qaldırılmasının yollarının müəyyən edilməsi istiqamətində mühüm addımlar atılmışdır. Növbəti belə tədbir BTQ-nin təşkilatçılığı ilə ölkəmizin paytaxtında keçirildi. "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusunda keçirilən beynəlxalq elmi konfransda BMT-nin müxtəlif strukturlarında dekolonizasiya sahəsində çalışan ekspertlər və ixtisaslaşmış alimlər iştirak etmişlər. Böyük maraqla izlənən konfransın başlıca məqsəd və amalı müstəmləkəçilik ideologiyasının elmi əsaslarla təhlili, tarixi və çağdaş reallıqların araşdırılması və qlobal səviyyədə dekolonizasiya istiqamətində səmərəli əməkdaşlığın növbəti dəfə təşviq edilməsi idi.

BTQ-nin icraçı direktoru Abbas Abbasov konfransda çıxışı zamanı kolonializmin bütün müasir təzahürlərinin beynəlxalq hüquqi mexanizmlər, ictimaiyyətin məlumatlılığının artırılması və çoxtərəfli əməkdaşlıq vasitəsilə həll edilməli olduğunu vurğulayıb. Daha sonra bildirib ki, kolonializmin davam etməsi BMT Nizamnaməsinə, Dünya İnsan Hüquqları Bəyannaməsinə və BMT Baş Assambleyasının digər çoxsaylı qətnamələrinə ziddir. İcraçı direktor çıxışı zamanı onu da bildirib ki, Bakı Təşəbbüs Qrupu tərəfindən dekolonizasiya səylərinə dəstək göstərmək məqsədilə son iki ildə Qvadelup, Mayot, Kanaki (Yeni Kaledoniya), Fransız Qvianası, Reyunyon, Korsika, Martinik, Mao hi Nui (Fransız Polineziyası) və müstəmləkəçilikdən əziyyət çəkən digər ərazilərə həsr edilmiş konfranslar təşkil olunub.

Böyük maraq kəsb edən konfransda "Müstəmləkəçiliyin ideoloji əsasları", "Müqavimət və dekolonizasiya" mövzusunda panel iclaslarında BMT-nin Afrikaəsilli Xalqların Daimi Forumunun üzvü (Sent-Lüsiya) xanım June Christine Marie Soomer, ABŞ-ni təmsil edən idarəçilik üzrə beynəlxalq məsləhətçi Carlyle Corbin, PFPAD üzvü, kolumbiyalı pastor Elias Murillo Martinez, Əlcəzair Universitetinin elmi-tədqiqat işləri üzrə rəhbəri professor Chakib Benhafri, Cənub Sakit Okeanı Universitetində baş müəllim Lorenz Rudolf Gonschor, Əlcəzairdən olan elmi tədqiqatçı Hichem Daoud və ADA Universitetinin dosenti Murat Özkale çıxış ediblər. Çıxış edənlər xüsusi olaraq vurğulayıblar ki, müstəmləkəçilik təkcə siyasi və iqtisadi təzyiq vasitəsi deyil, həm də ideoloji əsaslarla bəraət qazandırılmış və uzun müddət davam etdirilməsi üçün nəzərdə tutulmuş idarəetmə sistemidir.

Zaman-zaman mövcud olmuş imperiyalar müxtəlif adlar altında müstəmləkəçilik siyasəti yürütmüş, işğal etdikləri ərazilərdəki insanları istismar etmiş, onların hüquq və azadlıqlarını əlindən almış, yerüstü və yeraltı sərvətlərini mənimsəmişlər. Çox qəribə görünsə də, bütün bu qeyri-bəşəri əməlləri ni sivilizasiyanın yayılması və modernləşmə kimi anlayışlarla örtbasdır etmişlər. Əslində isə bu "missiya" müstəmləkə siyasətinə bəraət qazandırmaq üçün düşünülüb hazırlanmışdı. Guya imperiyanın əsas məqsədi sivil inkişafdan geri qalmış xalqlara mədəniyyət öyrətmək, təhsil verməkdir.

Konfransda çıxış edənlər müstəmləkəçilik siyasətinin ağır fəsadları, kolonial dövlətlərin əsarət altında saxladıqları xalqlara münasibətdə həyata keçirdikləri siyasətdən ətraflı söz açıblar. Onlar beynəlxalq hüququn, habelə BMT qətnamələrinin tələbi olan dekolonizasiya prosesinin yekunlaşdırılmasının kolonial güclər tərəfindən qarşısının alınması və bu kontekstdə beynəlxalq təşkilatlar çərçivəsində mövcud imkanlardan istifadə, təsirli mexanizmlərin həyata keçirilməsi, həmçinin sistemli bərabərsizliklərin beynəlxalq təşkilatlar səviyyəsində həlli yollarını ətraflı müzakirə edib, konfransın mövzusu ətrafında fikir və mülahizələrini bildiriblər. Çıxış edənlər həmçinin BTQ-nin təşkilatçılığı ilə keçirilmiş "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusunda beynəlxalq elmi konfransın böyük əhəmiyyət daşıdığını vurğulayıblar.

BMT-nin Afrikaəsilli Xalqların Daimi Forumunun üzvü P.Martinesin konfransda səsləndirdiyi fikirlər iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. O deyib ki, bu gün Bakı əvvəllər gözardı edilən xalqların problemlərinin səsləndirildiyi platformaya çevrilib: "Biz bu platformadan yararlanıb məqsədlərimizə nail olmalıyıq. Məqsəd isə müstəmləkədən xilas olub, müqəddəratımızı müstəqil şəkildə özümüzün müəyyən etməsidir. Belə bir şəraitdə müstəmləkə xalqlarının Şimali və Cənubi Amerikada qlobal irsin formalaşmasında iştirakını da xatırlatmaq istəyirəm. Bu məsələ unudulmamalıdır".

Ölkəmiz özündə bəşəri dəyərləri daşıyan belə bir mötəbər konfransa evsahibliyi etməklə neokolonializmə qarşı ümumi mübarizəyə böyük töhfələr verdi, BTQ-nin məqsəd və amalına daha da yaxınlaşdı. Bütün dünya mövzu ətrafında aparılan müzakirələr zamanı səsləndirilən dəyərli fikirləri eşitdi.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Fransada müsəlmanlara qarşı növbəti təxribat baş verib

**Fransada son illər islamofobiya və irqçiliyin miqyası artmaqdadır. Bu ölkə Avropada bir növ islamofobiya "flaqman"ına çevrilib. Müstəqil tədqiqatçı və publisist Roland Ejen Laffitt bildirir ki, Fransada islamın siyasi bir anlayış olduğunu aşılamağa çalışırlar.**

"Bu gün Fransada islamofobiya dövlət siyasətinə çevrilib. Əgər Fransada bir şəxs polis tərəfindən saxlanılıbsa və o, ərəbəsillidirsə, bu şəxs böyük çətinliklərlə üzləşir. Əgər işə müraciət edərkən, işəgötürən sizin ərəb soyadınızın olduğunu görsə, şansınız digər müraciət edənlərdən 7 dəfə azdır", - deyə tədqiqatçı vurğulayıb.

Qərbi Azərbaycan İcmasının (DAK) Fransa və Qərbi Avropa üzrə nümayəndəsi, Fransada Qərbi Azərbaycanlıların İrsini Qoruma İctimai Birliyinin sədri Zaur Sadıqbəyli Fransada azərbaycanlılara qarşı qərəzli münasibətin olduğunu deyir: "Fransada son vaxtlar bir çox müsəlman məktəbləri bağlanıb, imamlar işdən qovulub, kitabxanalardan islam dini ilə bağlı kitablar müsadirə olunub. Biz azərbaycanlılar da Ermənistan tərəfindən oxşar irqçi davranışa məruz qalmışıq. Ermənistanda Azərbaycan dilli məktəblər bağlanıb, oradan qovulanlar isə Azərbaycanda təhsil almağa məcbur edilib".




Fransanın Rona departamentinin Məscidlər Şurası xəbər verir ki, iyunun 3-də Lion yaxınlığındakı Villeurbanne şəhərindəki məsciddən Quran nüsxəsi oğurlanaraq yandırılıb. Məscidə gələn şəxs üzünü gizlədərək namaz zalına daxil olub və orada müsəlmanların müqəddəs kitabı olan Quranın nüsxələrindən birini götürüb. Daha sonra o, kitabı yandırıb və girişdə qoyaraq gözdən itib. Qeyd edək ki, Lionda və şəhərin ətrafında 100 min erməni yaşayır.

Şura hadisəni müsəlmanlara nifrət aktı adlandırıb. Açıqlamada bunun tək bir hadisə olmadığı, Fransada müsəlmanlara qarşı silsilə hücumların tərkib hissəsi olduğu vurğulanıb. Müsəlman icmasının nümayəndələri islamofobiyanın güclənməsindən rahatsız olduqlarını bildiriblər.

Polis faktla bağlı araşdırmalara başlayıb. Son məlumata görə, Fransada Quranı yandırmaqda şübhəli bilinən şəxs həbs olunub. Prokurorluq şübhəlinin "əqli cəhətdən qeyri-sabit" olduğunu qeyd edib. Lakin "ruhi xəstə"nin hücum obyekti kimi niyə kilsəni, Tövrat və İncili deyil, məhz məscidi və Quranı hədəf alması izah olunmur.

Bu hadisədən cəmi bir neçə gün əvvəl Fransada baş vermiş digər bir qanlı olay - tunislinin öldürülməsi qəzəb dalğasına səbəb olmuşdur. Fransızəsilli şübhəlinin tunisli qonşusunu güllələdiyi, digər türkəsilli qonşusunu isə yaraladığı və nifrətlə dolu irqçi videolar yaydığı iddia edilir. Kot d'Azur bölgəsinin daxili hissəsində törədilən bu cinayətdən iki gün sonra Fransanın terrorizm işləri üzrə prokurorluğu işə qarışıb.

Prokurorluq irqi nifrət zəminində törədilən qətldə şübhəli bilinən şəxslə bağlı istintaqa başlayıb. Daxili işlər naziri Brüno Retayyo "X" sosial şəbəkəsində "İrqçilik ciddi şəkildə cəzalandırılmalıdır" deyə yazıb. Onun sözlərinə görə, şübhəlinin videoları irqçilik motivinin olmasını tam təsdiqləyir.

Xatırladaq ki, aprelin sonunda Fransada daha bir səs-küylü qətl hadisəsi baş vermişdi. Malidən olan bir kişi Fransanın cənubundakı məsciddə bıçaqlı hücum nəticəsində həlak olmuşdu. Cinayətkar ona 50-dən çox bıçaq zərbəsi vurmuş, törətdiyi cinayəti mobil telefonu ilə çəkmiş və islamofobik ifadələr işlətmişdir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

5 İyun Beynəlxalq Ətraf Mühitin Mühafizəsi Günüdür

# Su qıtlığı, səhralaşma, çirkli hava...

## Azərbaycanda əsas ətraf mühit problemləri hansılardır?

Jurnalist araşdırması

**Qloballaşan dünyada ətraf mühitlə bağlı problemlər getdikcə artmaqdadır. Hətta əksər məsələlər özünü qlobal səviyyədə göstərir. Günümüzdə havanın çirkliliyi, su ehtiyatının azalması və çirkləndirilməsi, biomüxtəlifliyin dəyişməsi və digər problemlər dərinləşir.**

Azərbaycanda da bu problemlər özünü müxtəlif səviyyələrdə göstərir. Xüsusilə iqlim dəyişmələrinin yaratdığı fəsadlar daha aydın şəkildə özünü büruzə verir.

Ümumilikdə ətraf mühitin çirkləndirilməsi, ekosistemə mənfi təsir edən amillər iqlim dəyişmələri ilə sıx bağlı olsa da, burada antropogen təsirlərin də böyük rolu var. Məsələn, havaya buraxılan qazlar atmosferin çirklənməsinə, eyni zamanda qlobal istiləşməyə, müxtəlif tullantılar nəticəsində torpağın münbitliyinin azalması, okean və dəniz sularına axıdılan tullantı suları və atılan zibillər nəticəsində dəniz suyunun keyfiyyətinin azalması biomüxtəlifliyin məhvinə, meşələrin qırılması oksigen çatışmazlığına, dağ-mədən sənayesindən axıdılan zərərli maddələr içməli su ehtiyatının tükənməsinə gətirib çıxarır. Beləliklə, ətraf mühit problemlərini saymaqla bitmir.

Azərbaycana gəldikdə isə ölkəmizdə su ehtiyatının azalması, həmçinin çirklənməsi, torpaqların deqradasiyası, nəqliyyat çoxluğunun yaratdığı hava və səs çirkliliyi, Xəzər dənizində biomüxtəlifliyin azalması, quraqlıq, iqlim dəyişmələri ilə əlaqədar sel hadisələrinin artması əsas ətraf mühit problemləri sırasındadır.

Ətraf mühitin qorunması istiqamətində son illərdə dövlət tərəfindən xeyli işlər görülsə də, təbii ki, iş bununla bitmir, burada vətəndaşların üzərinə də müəyyən məsuliyyət düşür. Düzdür, havanın çirklənməsinin qarşısının alınması üçün elektromobillərə üstünlük verilməsi, ekoloji təmiz nəqliyyat vasitələrinin istifadəsi təşviq edilməsi, tullantıların azaldılması üçün əksər zavod və fabriklərdə təkrar emala üstünlük verilməsi, bərk tullantılarla bağlı Balaxanı Sənaye Parkının yaradılması müsbət irəliləyişlərə gətirib çıxarıb, su ehtiyatlarının qorunması məqsədilə su anbarları və yeni suvarma sistemləri yaradılıb.

### 30 illik işğal dövründə Azərbaycanın ətraf mühitinə ağır ekoloji zərbə dəyib

Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) yanında İctimai Şuranın sədri Amin Məmmədov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanda ətraf mühit problemləri fərqlidir və hər bir problemin səbəbləri və həll yolları var. Hazırda bəzi problemlər kritik səviyyədə olmasa da, amma respublikanın müxtəlif bölgələrində özlərini fərqli şəkildə göstərirlər: "Su ehtiyatlarının azalması prosesi yalnız Azərbaycanda deyil, dünyada gedir. Buna iqlim dəyişmələrinin, əhali artımının da təsirləri var. Ölkə əhalisini, müxtəlif sahələrdə suya olan tələbatı nəzərə alsaq, kənd təsərrüfatı, içməli su və digər ehtiyatlarımız əhaliyə nisbətdə çox deyil. Azərbaycanın su ehtiyatlarının əsas hissəsi transsərhəd çaylara bağlıdır. Məlumdur ki, Kür və Araz çayları ölkəmizə daxil olanda müəyyən təsirə məruz qalır. Kür çayı ilə bağlı vəziyyət müəyyən qədər yaxşıdır, çünki ölkəmizin Gürcüstanla münasibətləri yaxşı səviyyədədir, bunu birgə idarə edə bilirik. Təəssüf ki, Araz çayında problemlər var, çünki Ermənistan ərazisində dağ-mədən sənayesi çayın hövzəsinə yaxın olduğundan Araz çayının çirklənməsinə səbəb olur. Arazın Kürə tökülməsi çaya, Kürün Xəzərə tökülməsi isə dənizin ekologiyasına mənfi təsir edir. Ölkə daxilində də su ehtiyatlarının idarə olunmasında problemlər var. Kənd təsərrüfatında, şəhərlərdə su təchizatında itkilərə yol verilib.

İctimai Şuranın sədri bildirib ki, ətraf mühit problemlərindən biri olan hava çirkliliyi hazırda kritik həddə deyil. Bakıda avtomobil çoxluğu ilə əlaqədar havanın keyfiyyətində bəzi problemlər olsa da, ümumilikdə çox yüksək həddə deyil. "Meşələrin qırılması da Azərbaycanda o qədər kütləvi hal almayıb. Neqativ hallar lokal səviyyədə qeydə alınır. Bununla bağlı da hər zaman tədbirlər görülür. Təəssüf ki, son illərdə meşə yanğınları ilə üzləşirik, amma bu istiqamətdə də maarifləndirmə tədbirləri həyata keçirilir. Bunun səbəbi insanlardır. Dincəlməyə gedənlər qaladıqları ocaqları söndürmürlər və ya başqa səbəblərdən yanğınlar çıxır", - deyə A.Məmmədov əlavə edib.





Ətraf mühitin çirklənməsi ilə bağlı həm insan, həm də təbii faktorların olduğunu qeyd edən ekspert deyib ki, təsirləri minumuma endirmək üçün həm dövlət səviyyəsində, həm də yerli səviyyədə tədbirlər görülür. Qanunvericiliyin icrası, ətraf mühitin qorunması ilə bağlı əsas cavabdeh qurum kimi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ətraf mühitə nəzarəti həyata keçirir. Ekoloji maarifləndirmə işlərinə vətəndaş cəmiyyətləri, QHT-lər də cəlb olunur.

A.Məmmədov bildirib ki, əsas problem Azərbaycanın Qarabağ bölgəsi ilə bağlıdır. 27 il ərzində işğal altında qalan torpaqlarda ermənilər tərəfindən ekoloji terror həyata keçirilib, 60 min hektar yaşıllıq ərazisi məhv edilib. Həmin ərazilərdə kütləvi meşə yanğınları baş verdiyinə görə, müxtəlif fauna növləri öz yaşayış arealını dəyişdirməli olublar. Qarabağda işğal dövründə təbii ehtiyatlar qanunsuz olaraq istismar edilib. Bu müddətdə heç bir normativlər yerinə yetirilməyib. İstismar da ətraf mühitə mənfi təsir göstərib. Məsələn, Kəlbəcərdə Zod, Zəngilanda Vejnəli və digər yataqlardan çıxarılan təbii ehtiyatlar ərazilərin çirklənməsinə səbəb olub. Çayların təbii məcralarına təsirlər olub, çay daşlarının daşınması nəticəsində çay sahillərində deqradasiya baş verib, bu da Xaçınçaya, Köndələnçaya təsirsiz ötüşməyib. "Ümumilikdə Azərbaycanın ətraf mühitinə ağır ekoloji zərbə qonşu Ermənistanın işğalı nəticəsində dəyib. Bütün bunları bərpa etmək üçün milyardlarla manat investisiya tələb olunur. Artıq işğaldan azad olunmuş rayonların yaşıllaşdırılması və həmin ərazilərdə ekoloji problemlərin aradan qaldırılması istiqamətində işlər görülür", - deyə o bildirib.

### Kənd təsərrüfatının ekstremal hadisələrə dayanıqlılığı zəifləyir

ETSN yanında İctimai Şuranın üzvü, Coğrafiya üzrə fəlsəfə doktoru Rövşən Abbasov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanda ətraf mühit problemlərinə başlıca olaraq iqlim dəyişmələrinin su ehtiyatlarına və kənd təsərrüfatına təsirini aid etmək olar: "Həm su ehtiyatlarının azalması, həm də kənd təsərrüfatının iqlimlə bağlı ekstremal hadisələrə dayanıqlılığının zəifləməsi prosesi gedir. İki əsas təsir fonunda kənd təsərrüfatı məhsullarının istehsalında kifayət qədər problemlərlə üzləşirik. Bura su qıtlığı, məhsulun ümumi azalması, quraqlıq hadisələri aiddir. Bütün bunların fonunda kənd təsərrüfatında su ehtiyatlarının idarə olunmasında iqlimə qarşı xüsusi strategiyaların olması vacibdir. Bu sahədə uzunmüddətli dövrlər üzrə təsdiqlənmiş "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" Azərbaycan ərazisində həm milli, həm də regional səviyyədə su ehtiyatlarından istifadənin effektiv surətdə aparılmasına yönəlmiş mühüm sənəddir və geniş istiqamətdə tədbirlər planına malikdir. Bu planların həyata keçirilməsinə artıq başlanılıb. Bura torpaq kanalların betonlaşdırılması, müasir suvarma üsullarına keçid edilməsi, iqlimə dayanıqlı kənd təsərrüfatı bitkilərinin daha çox əkilməsi, müasir texnikalardan istifadə olunmasına yönəlik işlərin həyata keçirilməsi aiddir".

R.Abbasov qeyd edib ki, Milli Adaptasiya planında su, həm də kənd təsərrüfatı sektorunda iqlimə dayanıqlı bitkilərin əkilməsi, su ehtiyatlarından qənaətlə istifadə üzrə yeni sxemlərin tətbiq olunması aydın şəkildə göstərilib.

Mütəxəssis bildirib ki, Azərbaycan ərazisində ətraf mühitlə bağlı ən böyük problemlərdən biri də Abşeron torpaqlarının neftlə çirklənməsidir: "Bu, bizə tarixdən miras qalmış bir çirklənmədir. Hazırda bu istiqamətdə genişmiqyaslı bərpa layihələri həyata keçirilir. Buna ən yaxşı nümunə kimi Ağ Şəhər layihəsini göstərmək olar. Vaxtilə bu ərazilər köhnə texnologiyaların, avadanlıqların əsasında işləyən zavodlar vasitəsilə çox çirkləndirilmişdi. Lakin bu istiqamətdə ciddi dəyişikliklər görürük. Köhnə zavodlar sökülüb, yerində yeni parklar salınıb. Həm Ağ Şəhər, həm də Bayraq meydanı istiqamətində çoxsaylı bərpa layihələrinin şahidi oluruq".

Ekspert bildirib ki, ətraf mühit problemlərindən biri də bərk tullantıların idarə olunması ilə bağlıdır. Onun sözlərinə görə, xüsusilə plastiklərin idarə olunması ilə bağlı problemlər hələ də qalmaqdadır. Bunun həlli çox ciddi cəhdlər tələb edəcək. Azərbaycanda polietilen torbalardan istifadə müxtəlif üsullarla məhdudlaşdırılıb. Bəzi polietilen torbaların istifadəsi isə tam qadağan edilib. Bununla bağlı bu istiqamətdə daha kəskin addımların atılması zəruridir.



### Azərbaycan təbiətinin bugünkü reallıqları

Elm və Təhsil Nazirliyinin akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun "Landşaftşünaslıq və landşaft planlaşdırılması" şöbəsinin müdiri, coğrafiya üzrə fəlsəfə doktoru Mirnuh İsmayılov deyib ki, hazırda dünyada sürətlə artan çoxçeşidli insan tələbatının ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər ilk növbədə təbii mühitə olan təsirləri artırır.

Planetimizin təbii ehtiyatlarından intensiv istifadənin artması, sosial-iqtisadi sahələrdə ən müasir texnologiyalardan istifadə və istehsalın, həmçinin təbii ekosistemlərin antropogen sistemlərə transformasiyanın artması və digər proseslər təbii mühitə texnogen yükün artmasına şərait yaradır. "Bu gün Afrika qitəsinin bir neçə dünyaca məşhur milli parkında vəhşi təbiət haqqında filmlər çəkib bunu dünya əhalisinə qitənin bugünkü təbiəti haqqında yanlış təsəvvür yaradan elmdən uzaq işbazlar mövcuddur. Halbuki Afrikanın təbiəti bu günə qədər dəhşətli dərəcədə deqradasiyaya məruz qalıb. Burada səhralaşma, torpaq deqradasiyası, eroziya, biomüxtəlifliyin sürətlə azalması, tropik meşələrin yox olması və sairə bütün bəşəriyyəti düşündürən problemlərdir. Bu tip problemlər digər qitələr üçün də xarakterikdir", - deyə o əlavə edib.

Alim qeyd edib ki, dünyanın kənd təsərrüfatına yararlı torpaqlarının 10 faizindən çoxu məhsul verməyən səhralaşmaya məruz qalıb. Meşələrin və digər yaşıllıqların məhv edilməsi sayəsində əvvəlki illərlə müqayisədə son illər CO2-nin udulma səviyyəsi 18,5 faiz azalıb. Bu isə qlobal istiləşmənin başlıca səbəbidir. Qlobal istiləşmə insanın həyat fəaliyyətinə ciddi ziyan vurur. Havanın istiləşməsi və landşaftların səhralaşması sonda ərzaq məhsullarının qıtlığına, yoxsulluğun artmasına, insanların kütləvi şəkildə miqrasiyasına, ən nəhayət, siyasi proseslərin gərginləşməsinə şərait yaradır.

Şöbə müdiri bildirib ki, əgər ekosistemləri, landşaftları tam dərk edə bilsəydik, atdığımız addımların nəyə səbəb olduğunu anlayardıq. Belə bir söz var: "Filankəs bir qarışqa belə əzməyib". Bu gün artıq təbiətə belə yanaşmanın vaxtıdır. Artıq təbii mühitin insanların şəfalı əllərinə ehtiyacı var".

M.İsmayılov Azərbaycanda ətraf mühitin müxtəlif səviyyələrində ciddi problemlər olduğunu vurğulayaraq deyib ki, səhralaşma və torpaq deqradasiyası, quruyan çay dərələri və göllər, məhv edilmiş bataqlıq-çəmən ekosistemləri, vaxtilə meşəsizləşmiş ərazilər, yox olmuş və ya sayı kəskin azalmış biomüxtəliflik nümunələri, kortəbii turizmin genişlənməsi, yazda dağ laləsinə bürünmüş yamacların yox olması Azərbaycan təbiətinin bugünkü reallıqlarıdır. Dövlət tərəfindən bu məsələlərin həllinə hər il milyonlarla manat vəsait ayrılır. Lakin bu tip problemlər cəmiyyətimizin bütün təbəqələrinin qarşılıqlı əlaqəsi və yüksək həssaslıq göstərməsi ilə həll edilə bilər.

Hər bir insan yaşadığı ərazinin təmiz saxlanılmasına cavabdeh olmalıdır. Cəmiyyətdəki mövqeyindən asılı olmayaraq, hər bir vətəndaş ekoloji təhsildə, tərbiyədə və mədəniyyətdə məsuliyyət daşımalıdır. Gözümüzün qarşısında aran torpaqlarımız şoranlaşırsa, deqradasiya olunursa, yeraltı və yerüstü su hövzələri quruyursa, ətraf mühit çirkləndirilirsə, bunu vətəndaşlıq borcu olaraq fərdi və ya icma şəklində həll etməyə səy göstərməliyik.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Qlobal istiləşmə sağlamlığı da təhdid edir

**Hava temperaturunun kəskin artması dünyanın bir çox bölgəsində həyat şəraitini əhəmiyyətli dərəcədə dəyişdirib. İstilik dalğaları, yoluxucu xəstəliklərin yayılma arealının genişlənməsi, qida və su təhlükəsizliyinin pozulması kimi amillər insan sağlamlığına da ciddi təsir göstərir. Elmi araşdırmalar təsdiqləyir ki, qlobal istiləşmə bir sıra xroniki və ölümcül xəstəliklərin çoxalmasına səbəb olur.**

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Ümumdünya Meteorologiya Təşkilatı da daxil olmaqla 57 akademik qurum və 122 tədqiqatçı tərəfindən hazırlanan 2024-cü il hesabatında çox narahatedici nəticələr təqdim edilib. Məlum olub ki, iqlim dəyişikliyi ilə bağlı sağlamlıq risklərini izləyən 15 göstəricidən 10-u narahatlıq doğuran yeni rekord göstəricilərə çatıb.

### Yüksək temperatur qadınlarda xərçəng xəstəliyinin artmasına səbəb olub

Qlobal istiləşmə, iqlimin sürətlə dəyişməsi səbəbindən insan rifahı və sağlamlığı birbaşa təhlükə altına düşüb. Misir tədqiqatçılarının son araşdırmalarına görə, hava temperaturunun yüksəlməsi xüsusilə qadınlarda xərçəng xəstəliyinin artmasına səbəb olub. Yaxın Şərq və Şimali Afrikanın 17 ölkəsini əhatə edən tədqiqat "Frontiers in Public Health" jurnalında dərc olunub. Mütəxəssislər Əlcəzair, Bəhreyn, Misir, İran, İraq, İordaniya, Küveyt, Livan, Liviya, Mərakeş, Oman, Qətər, Səudiyyə Ərəbistanı, Suriya, Tunis, Birləşmiş Ərəb Əmirlikləri və Fələstində xərçəngdən ölüm nisbətlərini araşdıraraq, məlumatları 1998-2019-cu illər arasındakı temperatur artımları ilə müqayisə ediblər.

Müəyyən edilib ki, hər 1 dərəcə Selsi temperatur artımı nəticəsində hər 100 min nəfərə düşən müxtəlif xərçəng növlərinə yoluxma halları 173 nəfər artaraq 280-ə çatıb. Ən böyük artım yumurtalıq xərçəngi, ən kiçik artım isə döş xərçəngi hallarında müşahidə olunub. Hər 100 min adama düşən ölüm nisbəti hər 1 dərəcə Selsi temperatur artımında 171 artaraq 332-yə çatıb. O da bildirilib ki, artım templəri ölkə və xərçəng növünə görə fərqlənir. Məsələn, Qətərdə hər bir dərəcə temperatur artımına görə döş xərçəngi hallarının sayı 100 min nəfərə 560 hal artdığı halda, Bəhreyndə cəmi 330 hal artıb. Maraqlısı isə odur ki, bu, onların əhalisinin coğrafi və etnik yaxınlığına baxmayaraq baş verib.

Tədqiqat zamanı daha bir maraqlı məqam üzə çıxıb. Belə ki, valideynlərdə xərçəng xəstəliyinin tezliyi uşaqların sayı ilə əlaqələndirilib. Məlum olub ki, xəstəlik çoxuşaqlı qadınlarda övladı olmayan və ya təkuşaqlı valideynlərə nisbətən iki dəfə azdır.

### Gənclər istilik dalğalarına qarşı daha həssasdırlar

Qlobal istiləşmə yalnız fiziki deyil, həm də psixi sağlamlığa ciddi təsir edir. Avstraliyalı mütəxəssislərin araşdırması nəticəsində məlum olub ki, iqlim dəyişikliyi səbəbilə artan istilər psixi və davranış pozğunluqlarının (MBD) sayını artırır və bu vəziyyət önümüzdəki illərdə daha da pisləşəcək. Adelaida Universitetinin aparıcı tədqiqatçısı Penq Binin sözlərinə görə, əgər qlobal istiləşmə davam edərsə, 2050-ci ilə qədər psixoloji xəstəliklər 49 faizə qədər artacaq. Əgər temperatur artımı 3 dərəcəni ötməsə belə, 2050-ci ildə psixi və davranış pozğunluqları 27,5 faiz artmış olacaq.

Tədqiqat 2003-2018-ci illər arasında Avstraliyanın bütün ştat və ərazilərində toplanan sağlamlıq məlumatlarına əsaslanır. Məlum olub ki, bu dövr ərzində yüksək hava temperaturu səbəbilə xəstəxanaya yerləşdirilmə və təcili yardım müraciətləri artıb. Məsələn, 2008-ci ildə Adelaidada baş verən 15 günlük istilik dalğası uşaqlar arasında MBD ilə bağlı xəstəxanaya yerləşdirmələri 64 faiz, yaşlılar arasında isə 10 faiz artırıb.

Yüksək hava temperaturu xüsusilə yaşlı insanlara və xroniki xəstəliyi olanlara mənfi təsir edir. Diabet, ürək-damar, tənəffüs və digər xroniki xəstəlikləri olan insanlar istilik dalğalarından daha çox təsirlənirlər. Bu xəstəliklər bədənin normal funksiyalarını zəiflətdiyindən istilik stresi daha ciddi problemlərə səbəb olur.

Yaşlı insanlar bədən temperaturunu tənzimləməkdə çox çətinlik çəkirlər və istilik dalğalarına qarşı daha həssasdırlar. Onların bədən funksiyaları və müdafiə mexanizmləri yaşlandıqca zəifləyir, bu da istilik stresinə qarşı müdafiəni azaldır. Buna görə də son illər 65 yaşdan yuxarı insanlar arasında istidən ölüm halları 1990-cı illərlə müqayisədə rekord səviyyədə artaraq 167 faizə çatıb.

Son araşdırmalar göstərir ki, gənclər istilik dalğalarına qarşı yaşlılardan daha həssasdırlar. Çünki onlar bəzən kifayət qədər ehtiyat tədbiri görmür və isti havada çöldə daha çox vaxt keçirirlər. Tənzimləmə sistemləri tam inkişaf etmədiyi üçün azyaşlılar da yüksək temperatura həssasdırlar. Onların istilik vurmasına və digər istiliklə əlaqəli problemlərə qarşı müqaviməti zəifdir.



Təkcə son üç onillikdə planetdə iqlim dəyişikliyi kəskin surətdə artıb və demək olar ki, hər il yeni temperatur rekordları müəyyən edilir. Ekoloqların və meteoroloqların fikrincə, bu dəyişiklikləri gecikdirmək həm də insanların əlindədir. İctimai nəqliyyata üstünlük vermək, yaşıllıqların artırılmasında fəal iştirak, bərpaolunan enerji resurslarından səmərəli istifadə, evlərdə və iş yerlərində enerjiyə qənaət kimi tədbirlərlə hər birimiz planetimizi antropogen təsirlərdən qoruya bilərik.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# REGİONLAR

## Qurban bayramının yaxınlaşması ilə bağlı tədbirlər görülür

**Qurban bayramı günlərində əhaliyə sağlam və təhlükəsiz ət məhsullarının təqdim olunmasını təmin etmək üçün Goranboy RİH-in təşkilatçılığı və aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə rayonda fəaliyyət göstərən kəsim məntəqələrinə baxış keçirilib.**

RİH-in məsul əməkdaşları, Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri, rayon Baytarlıq İdarəsinin mütəxəssislərinin iştirak etdikləri baxış zamanı məntəqələrdə qurbanlıq heyvanların saxlanma şəraiti, onların baytarlıq-sanitariya qaydalarına uyğunluğu, kəsim prosesinin gigiyenik normalara uyğun təşkili, həmçinin ət məhsullarının daşınması və satışının tənzimlənməsi məsələləri yoxlanılmış, vətəndaşlara təhlükəsiz və rahat xidmət göstərilməsi üçün məntəqələrdə yaradılan şərait, texniki təchizat və əməkdaşların hazırlıq səviyyəsi qiymətləndirilmişdir.

Yoxlamalar nəticəsində kəsim məntəqələrində ümumilikdə qənaətbəxş şəraitin təmin olunduğu müəyyən edilmişdir. Eyni zamanda vətəndaşlara bayram günlərində yalnız rəsmi qaydada fəaliyyət



göstərən və sanitar norma və qaydalara cavab verən kəsim məntəqələrindən istifadə etmələri tövsiyə olunmuşdur.

*"Azərbaycan"*

## Daşkəsənin Xoşbulaq yaylağı turizm mövsümünə hazırlaşır



**Hər il yay mövsümündə Daşkəsənin Xoşbulaq yaylağına çoxlu sayda turist gəlir. Onlar Azərbaycanın bu səfalı guşəsində dincəlməklə həm mənalı istirahət edir, həm də təbiətin gözəlliklərindən zövq alırlar.**

Bu il də istər xarici, istərsə də yerli turistlərin istirahət etmələri üçün kənddə çoxsaylı tədbirlər həyata keçirilir. Artıq bir neçə gündür ki, Daşkəsən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Xoşbulaq kəndində geniş təmizlik aksiyasına başlanılmışdır. Təmizlik aksiyası yalnız ərazidə tullantıların yığılması ilə deyil, eyni zamanda vətəndaşların təbiətə məsuliyyətli yanaşmalarını gücləndirmək və ətraf mühitin qorunması sahəsində onların maarifləndirilməsi üçün həyata keçirilir.

Tədbirdə rayon icra hakimiyyətinin əməkdaşları, Kommunal Müəssisələri Kombinatının işçiləri, gənc könüllülər və sakinlər iştirak edirlər. Zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları əraziləri plastik və digər məişət tullantılarından təmizləyərək səliqə-sahman yaradırlar.

Turizm mövsümünün başlanmasına hazırlıq məqsədilə həyata keçirilən tədbir sakinlər tərəfindən razılıqla qarşılanır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Biləsuvarda dini mövzuda tədbir keçirilib

**Biləsuvar şəhəri Cümə məscidində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan-Salyan regional bölməsinin və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini dözümlülük və insan hüquqları" mövzusunda tədbir keçirilib.**

Şirvan-Salyan regional bölməsinin, rayon icra hakimiyyətinin, Qafqaz Müsəlmanları İdarəsinin, rayon Ağsaqqallar Şurasının nümayəndələri, din xadimləri və dini icma sədrlərinin iştirak etdikləri tədbirdə çıxış edənlər insan hüquqları və hüquq bərabərliyi üzərində qurulmuş multikulturalizm dəyərlərini təbliğ etmək, eləcə də cəmiyyətdə insan ləyaqətinə hörmətin, insan hüquqlarına əməl olunmasının zəruriliyini önə çəkməklə humanizm keyfiyyətlərinin formalaşdırılmasından bəhs etmişlər.

## Şairlər yurdu abadlaşır

**Qazaxda aparılan abadlıq davam edir. Şəhər ərazisində nəqliyyat vasitələrinin hərəkətinin yaxşılaşdırılması, vətəndaşların rahatlığını təmin etmək üçün işlər görülür.**

Şəhərin bir sıra küçələri, eləcə də Nəriman Nərimanov yaşayış massivi abadlaşdırılmış, bəzi binaların fasadında təmir işləri aparılmış, yol kənarında yerləşən obyekt və hasarlar səliqəyə salınmış, yeni səkilər düzəldilmiş, Heydər Əliyev adını daşıyan mərkəzi prospektdə müasir işıqlandırma sistemi quraşdırılmış, səkilərin kənarına məhəccərlər vurulmuşdur.

*"Azərbaycan"*

## Arpanı sütül...



### Neftçalada taxıl biçini sürətlənir

**May ayının nisbətən yağışlı və sərin keçməsi fermerlərin işini müəyyən qədər ləngitsə də, lakin onları ruhdan salmadı. Bunu əsasən pambıqçılara aid etmək olar. Onlar bilirlər ki, təbiət mərhəmətlidir, necə deyərlər, onda pis hava yoxdur.**

Taxılçılıq, heyvandarlıq sahəsini götürək. Yağan yağışlar hesabına zəmilərdə bol taxıl, çöllərdə-düzlərdə, biçənəklərdə istənilən qədər yonca və qaba yem kütləsi əmələ gəlmişdir. Mütəxəssislər deyirlər ki, havanın getdikcə istiləşməsi pambıqçılıqda yaranan geriliyi tezliklə aradan qaldıracaq. Neftçala rayonunun fermerləri ilə apardığımız söhbət zamanı buna bir daha əmin olduq.

### Ölkədə arpa biçini ilk olaraq Neftçalada başlayır

Neftçala rayonu ərazisindəki torpaqlar dəniz altından çıxmış hesab edilir. Keçmiş zamanlarda Xəzərin indiki kimi çəkilməsi nəticəsində su altında olan ərazilər quruya çıxmışdır. Zaman keçmiş, həmin torpaqlar burada məskən salan sakinlər tərəfindən əkilib-becərilməyə başlamışdır. Bu torpaqların bir xüsusiyyəti də odur ki, qumsal olduğu üçün günəş şüası altında digər sahələrə nisbətən tez qızır. Buna görə də xüsusən Xəzərətrafı kəndlərin torpaqlarında məhsul o biri ərazilərlə müqayisədə bir neçə gün tez yetişir. Elə o səbəbdən Neftçalada mayın 25-dən seçmə yolla arpa biçininə başlanmışdır. Həmin yerlər həm də dəmyə torpaqlardır.

Rayon üzrə keçən ilin payızında əkilən 32 min 706 hektar taxılın 26 min 618 hektarı arpa, 6 min 88 hektarı buğdadır. Ümumi arpa sahəsinin 14 min 148 hektarı dəmyə şəraitində yetişdirilib ki, bu da arpa əkinlərinin 53 faizdən çoxu deməkdir. Yüksək məhsuldarlığın başlıca səbəbi fermerlərin əkindən tutmuş yığıma kimi bütün aqrotexniki tədbirlərə (şum, əkin, su çıxan sahələrdə suvarma, yemləmə, ziyanvericilərə və alaq otlarına qarşı mübarizə) vaxtında və keyfiyyətlə əməl etməsidir.

Fermer Eldar Cavadov deyir: "Qaramanlı kəndi ərazisində 10 hektar arpa əkmişəm. Toxumu Mərdan Cəlilovdan aldım. Yüksək reproduksiyalıdır. Şumu, səpini, suvarmanı, yemləməni, alaq otlarına qarşı nəzərdə tutulan tədbirləri də keyfiyyətlə yerinə yetirdim. Nəticədə yüksək məhsul aldım - hər hektardan 35 sentner arpa biçdim. Yığımı itkisiz başa çatdırmaq kombaynçıdan da asılıdır. Buna görə təcrübəli kombaynçı, işinə can yandıran Heydər Nəzərovdan çox razıyam. Tək mən yox, bütün fermerlər onun işindən razılıq edirlər. Sürücüləri Amil Rzayev və Bəxtiyar Şükürov da öz peşələrinə məsuliyyətlə yanaşırlar. Daşıma zamanı heç bir itkiyə-filana yol vermirlər".

Taxıl biçini getdikcə sürətlənir. Sahələrə çıxan kombaynların sayı gündən-günə çoxalır. Rayonda 51 kombayn var. Onların 25-i "Aqroservis" ASC-yə, qalanları isə fermerlərə, fiziki və hüquqi şəxslərə mənsubdur. Hər bir texnika keyfiyyətlə təmir edilib. Onu da qeyd etmək lazımdır ki, taxılın vaxtında, itkisiz, habelə təhlükəsiz yığılması üçün yığımdan bir neçə gün əvvəl Neftçala Rayon İcra Hakimiyyəti Dövlət Aqrar İnkişaf Mərkəzi ilə birlikdə kombaynçılar üçün seminar-müşavirə keçirib. Tədbirdə mütəxəssislər, FHN-in nümayəndələri, digər məsul işçilər iştirak etmişlər.

### Pambıq fidanları boy atır

Pambıq bitkisi günəşi və suyu çox sevir. Bu barədə belə bir deyim də var: "Pambığın başı günəşdə, ayağı suda olmalıdır". May ayının ilk iki ongünlüyü pambıq üçün münasib keçmədi. Torpaqda lazımi istilik yaranmadığından toxumun cücərməsi və çıxan fidanların böyüməsi ləngidi. Üçüncü ongünlükdən, xüsusən mayın 25-dən sonra havaların qızması sahələrə can verməyə başladı. Toxumlar hər yerdə tam cücərdi, torpaqdan baş qaldıran bitkilər inkişaf fazasına keçdi. Amma sahələrdə alaq otları da yaranıb. Fermerlər cərgələr arasına kultivator çəkərək torpağı yumşaltmaq üsulu ilə birinci kompleks becərməyə start veriblər. Eyni zamanda alaq otlarının təmizlənməsi üçün qızgəlinləri cəlb ediblər. Bəzi fermerlər alaq otlarına qarşı mübarizə məqsədilə seçmə üsulla sahələrə traktorla xüsusi preparatlar səpirlər. Bir sözlə, aqrotexniki tədbirlər ardıcıllıqla davam edir.

Neftçalanın Kürqarabucaq kənd sakini fermer İmanverdi Əliyev söhbət zamanı dedi: "Kəndlinin işi əsasən hava ilə bağlı olsa da, biz fermerlər də təbiətə tam təslim olmur, bu çətin işdə çıxış yolları tapmağa çalışırıq. 7 hektarda pambıq əkmişəm. Bunun 5 hektarı pay torpağımdır. Qalan 2 hektarı isə icarəyə götürmüşəm. İlin əvvəlində "MKT" MMC, indi isə adını dəyişmiş "PRİME Cotton" MMC ilə müqavilə bağlamışam. Şirkətin rəhbərliyi sağ olsun, lazımi köməyi göstərir. Mütəxəssisləri də hər gün yanımızdadırlar, gərəkli tövsiyə və məsləhətlərini verirlər. Keçən il əkdiyim 4 hektar pambıq sahəsində 5 dəfə kompleks becərmə apardım, 4 dəfə suvarma həyata keçirdim. Nəticəsi də əla oldu. Hər hektardan 50 sentner pambıq götürdüm. Həvəslənib bu il 7 hektarda əkmişəm. Ümid edirəm ki, yaxşı nəticə əldə edəcəyəm. Ancaq, yeri gəlmişkən, bir məsələni də qeyd etmək istəyirəm. Məlum məsələdir ki, hər şeyin qiymətində artım olduğu kimi, pambığın əkilib-becərilməsi xərcləri də artıb. Bu məsələ biz fermerləri çox narahatsız edir. Bəziləri sahələrində digər bitkilər əkmək fikrindədirlər. Əlaqədar təşkilatlar bunu nəzərə alıb xam pambığın satınalma qiymətini artırmalıdırlar. Axı pambıq əməktutumlu sahə olmaqla bərabər, həm də ixracyönlü bitkidir".

Hazırda Neftçalada pambıq istehsalı ilə məşğul olan 4 şirkət - "PRİME Cotton" MMC, "P-Aqro" MMC, "Azərpambıq" MMC və "Aztəsərrüfat" MMC fəaliyyət göstərir. Müqavilə bağlanan 1417 fermer 7 min 117 hektarda pambıq əkmişdir. Hazırda becərmə işləri gedir. Artıq 3 min hektardan çox sahədə birinci kompleks becərmə başa çatdırılıb.

### Mal-qaranın südü ağzındadır

Kənd təsərrüfatını mal-qarasız təsəvvür etmək mümkün deyil. Kənd adamı saxladığı heyvanlardan, quşlardan özü istifadə etməklə yanaşı, artığını satışa çıxarıb həm öz dolanışığını, həm də bazarı ərzaq məhsulları ilə təmin edir. Son illər ətin, südün, yağın və digər heyvandarlıq məhsullarının qiymətinin artımı fermerlərin bu sahəyə marağını artırmışdır. Bu maraq Neftçalada da var. İnək və camışların, qoyun-keçilərin, habelə ev quşlarının sayı əvvəlki illərlə müqayisədə xeyli çoxalmışdır.

Deyirlər, inəyin südü ağzındadır. Bu o deməkdir ki, heyvandarlıqda yem tədarükü mühüm şərtdir. Rayon ərazisində 8 min hektar yonca, 458 hektar vələmir sahəsi mövcuddur. Kürqarabucaq kənd sakini Faiq Bədəlov 3 hektar pay torpağının yarısına yonca, o biri yarısına arpa əkib. Yonca əkdiyi torpaqda artıq 4-cü ildir, biçin aparır. Birinci biçində hər hektardan 350 kip götürüb. Saxladığı 3 inəyin 3 baş da balası var. Dediyinə görə, hər il 4-5 dəfə biçin aparır. Hər inək il ərzində 400, qış sərt keçəndə isə daha da çox, bəzən 600 kip ot yeyir. F.Bədəlov tədarük etdiyi yoncanı ancaq öz mal-qarasına çatdırır. Yəni satış üçün yem istehsal etmək üçün ya məhsuldarlığı, ya da əkin sahəsini artırmaq lazımdır. Birinci variant daha önəmlidir. Təəssüf ki, variantların heç biri hələlik əlçatan görünmür. Deməli, heyvandarlıqda səmərəli üsullar işləyib hazırlamaq, tətbiq etmək qarşıda həllini gözləyən məsələlərdəndir.

Bax beləcə indi Neftçalada hara getsən, hara üz tutsan, qızğın iş getdiyini görərsən. Kəndli səhər gün çıxmamışdan hava qaralanacan tarlada yorulmaq bilmədən çalışır. İstəyir ki, daha çox məhsul istehsal etsin. Əldə etdiyi qazancla ailəsini firavan dolandırsın, kəndin, elin-obanın xeyrində-şərində yaxından iştirak etsin, ölkənin ərzaq təhlükəsizliyinin təminatında payı olsun.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Diqqət, zəhmət, məsuliyyət




### Bunlar olan yerdə qara torpaq da üz ağardır

**Hətəm Əsgərov Tərtərin Kəngərli kəndindəndir. Bir əsrdən çox ömür yaşayıb. Elə indinin özündə də yaxşı hafizəsi var, çox gümrahdır. Hətəm kişi həm də maraqlı həmsöhbətdir. Gözünü açandan torpaqla ünsiyyətdədir. Elə sözü-söhbəti də bu barədədir aqrar sahənin keçmişindən, bu günündən, gələcəyindən:**

- Ötən əsrin 60-cı illərini yaxşı xatırlayıram. Kənddə yaşasaq da, ailələrimizi doyunca çörəklə təmin edə bilmirdik. Dolanışıq çox çətin idi. Şəhərlərdə ərzaq sarıdan vəziyyət daha acınacaqlıydı. Çünki respublikanın kənd təsərrüfatı bərbad gündəydi. Belə bir vaxtda - 1969-cu ilin iyulunda Heydər Əliyev Azərbaycana rəhbər seçildi. O zaman biz hələ bilmirdik ki, məhz həmin gün xalqımızın həyatında dönüş nöqtəsi olacaq.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanda bütün sahələr üzrə misilsiz nailiyyətlər əldə olundu. Bu, xüsusən aqrar sektorda özünü göstərməyə başladı. Respublikaya rəhbər seçildikdən az sonra - 1970-ci ildə Heydər Əliyev "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" Sov.İKP MK və SSRİ Nazirlər Soveti tərəfindən qərar qəbul etdirməyə nail oldu. Bundan sonra kəndlərimizin iqtisadiyyatı, siması inanılmaz dərəcədə dəyişdi. Sanki insanların ruhu da təzələndi. İllərlə tarlalarda çalışıb yaxşı qazanc əldə edə bilməyən kənd adamları zəhmətlərinin bəhrəsini gördülər. Aqrar sahənin inkişafı kortəbii məcradan çıxaraq elmi əsaslar üzərində qurulur, mexanikləşdirmə tətbiq olunur, suvarmada həyata keçirilən mütərəqqi üsullar səmərə verirdi. Nəticədə kənd təsərrüfatında məhsuldarlıq ilbəil artırdı.

Qaradağlı kəndinin o illərin şahidi olan sakini Mətləb Nəcəfov deyir:

- Ötən əsrin 70-ci illərində anam kolxoz sədri işləyirdi, atam isə sürücü idi. Biz uşaqlar daim onların söhbətlərində Heydər Əliyevin adını eşidirdik. Anam bu barədə öz xatirələrində də danışır və deyirdi ki, Ulu Öndərin həyata keçirdiyi tədbirlərlə yanaşı, respublikada yaratdığı sağlam mənəvi mühit, kənd əməkçilərini həvəsləndirməsi, onlarla birbaşa pambıq tarlalarında görüşməsi hamıya qol-qanad verirdi. Anam pambıqçılıqda qazandığı uğurlarına görə "Volqa" markalı minik maşını ilə mükafatlandırılmışdı, "Əməkdar aqronom" fəxri adı almışdı. Eləcə də Heydər Əliyevin tapşırığı ilə digər pambıqçılar da qiymətli hədiyyələr alır, gəlirləri ildən-ilə artırdı.

Həyata keçirilən əsaslı tədbirlər nəticəsində Azərbaycanın, o cümlədən bizim Tərtər rayonu 1971-1975-ci illərdə məhsul istehsalının artırılması, əkinçilik və heyvandarlıq mədəniyyətinin yüksəldilməsi sahəsində çox böyük nailiyyətlər qazandı. Bu, insanların dolanışığında da özünü göstərirdi. Bu gün də köhnə tərtərlilər deyirlər ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə rayonun hər bir kəndində zəhmətkeşlər aldıqları illik qazanc ilə yaraşıqlı evlər tikdirir, minik maşınları alırdılar.

Təməli Heydər Əliyev tərəfindən qoyulan aqrar siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentin 2004-cü il fevralın 11-də imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" regionların və aqrar sektorun inkişafında mühüm rol oynadı. Bundan sonrakı illərdə qəbul edilən analoji proqramlar isə Azərbaycanda kənd təsərrüfatının elmi əsaslar üzərində inkişafını sürətləndirdi, sahibkarların səmərəli fəaliyyətinə şərait yaratdı. Həmçinin kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ilə yanaşı, həmin məhsulların emalı, tədarükü və satışı diqqət mərkəzində saxlanıldı, bu sahələr təkmilləşdirildi.

Dövlətimizin, Prezident İlham Əliyevin aqrar sahənin inkişafına göstərdiyi qayğıdan bəhrələnən fermerlərdən biri də rayonumuzun Bəyimsarov kəndindən olan "Tərəqqi" medallı Habil İbrahimovdur. O, doğma yurdunu tərk etməsindən ürək ağrısı ilə danışır:

- Qərbi Azərbaycanda - Vardenis rayonunun Zər kəndində anadan olmuşam. 1988-ci ildə ailəmlə birlikdə doğma yurdumuzdan qovulandan sonra Tərtərin Bəyimsarov kəndində məskunlaşdıq. 14 yaşım vardı. Vəziyyətimiz çox çətin idi. Ermənilər valideynlərimin illər ərzində halal zəhmətlə qazandıqları mal-mülkü əlimizdən almışdılar. Həyata yenidən başladıq. Ulu Tanrı, bir də Azərbaycanda vətəndaşlara göstərilən qayğı, dəstək köməyimiz oldu.

İndi Habil rayonda tanınan sahibkarlardan sayılır. Deyir ki, əvvəlcə az bir sahədə taxıl və pambıq əkib. İndi icarəyə götürdüyü və ailəsinə məxsus pay torpaqları ilə birlikdə 170 hektarda müxtəlif kənd təsərrüfatı məhsullarının becərilməsi, tədarükü və satışı ilə məşğuldur. Daim yeniliklərə can atan fermer təsərrüfatında iki pilot suvarma sisteminin tətbiqinə nail olub. Bu ildən etibarən isə pambıq və qarğıdalı bitkilərinin becərilməsində Azərbaycan Dövlət Aqrar Universiteti ilə birlikdə yeni pilot layihə həyata keçirir. Texnika elmləri doktoru, professor Ziyad Abbasov deyib ki, universitetin alimləri kənd təsərrüfatında innovativ üsulların tətbiqinə kömək etməklə, Tərtər rayonunun aqrar sektorunun gələcək inkişafına töhfə verəcəklər.

H.İbrahimovdan onu da öyrəndik ki, təsərrüfatı daha da inkişaf etdirmək və möhkəmləndirmək üçün 2012-ci ildə 500 başlıq iri südçülük-heyvandarlıq kompleksi yaradıb. Kiçik emal müəssisəsi də var. Deyir ki, bu il Bakıda keçirilən XVIII Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində iştirak edib, hələlik ziyarətçi kimi. Amma əmindir ki, bundan sonra ölkəmizdə təşkil olunan kənd təsərrüfatı sərgilərində onun məhsulları da nümayiş etdiriləcək.

Son illər iqlim dəyişiklikliyi ilə əlaqədar aqrar sahənin qarşısında yeni vəzifələr dayanır. Bununla bağlı Tərtər rayonunda da xeyli iş görülüb. Rayon icra hakimiyyətinin baş məsləhətçisi Natiq Musayevin verdiyi məlumata görə, Prezidentin "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi haqqında sərəncamının icrası ilə əlaqədar Tərtərdə suvarma prosesində innovasiyaların tətbiqinə başlanılmışdır. Hazırda Şıxarx qəsəbəsində yaradılmış Berton MMC-yə məxsus təsərrüfatda 345 hektar payızlıq arpa və 150 hektar kartof sahəsi müasir üsullarla suvarılır. Eləcə də Frutto-Aqro MMC-nin 255, Rayfrutto MMC-nin 91, Aqro-Pat MMC-nin 228, Tərtər-1 MMC-nin 42 hektar meyvə bağları müasir suvarma sistemləri ilə təchiz edilib. Bu üsul həm su ehtiyatlarından səmərəli istifadəyə imkan verir, həm də məhsuldarlığı artırır. Dövlət bu səbəbdən suvarma sistemlərini 40 faiz güzəşt tətbiq edilən kənd təsərrüfatı avadanlıqları siyahısına daxil edib.

*Svetlana BAĞIROVA,*
*"Yeni Tərtər" qəzetinin redaktoru*

# Bakı Enerji Həftəsi çərçivəsində "Enerjinin səsi" panel iclası keçirildi

**"Enerjinin səsi". Bu, Azərbaycanda hasil və istehsal olunan enerjinin səsidir ki, bütün dünyaya yayılıb. Əks-sədası isə dönüb yenidən səslənərək Bakı Enerji Həftəsində bir daha eşidildi.**




"Enerjinin səsi"ni hər yana çatdıran həm də mətbuatdır. İstər özümüzə, istərsə də digər ölkələrdəki insanlara mətbuat bu nailiyyətlərdən xəbər verən səsdir. "Bakı-Ekspo Mərkəzi"ndə Bakı Enerji Həftəsi çərçivəsində düzənlənən tədbir də məhz belə adlanırdı: "Enerjinin səsi".

Panel iclas şəklində keçirilən tədbirə "Caspian Barrel" Neft Araşdırmaları Mərkəzinin direktoru İlham Şaban moderatorluq edirdi. O, sözü "Caspian" jurnalının baş redaktoru Eldar Ağamalova verdi. E.Ağamalov 1994-cü ildə keçirilən ilk sərgini xatırladı. Orada çıxış edən Ulu Öndər Heydər Əliyevdən aldığı müsahibəni yada saldı. Bütün bunların sonralar jurnalda necə yerləşdirildiyini söylədi.

Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ildən-ilə böyüdü və şaxələndi. Bu, Prezident İlham Əliyevin önəm verdiyi və dəstəklədiyi möhtəşəm bir tədbirdir. Bu barədə "Caspian Energy Club"un sədri Telman Əliyev danışdı.




Ulu Öndər Heydər Əliyevin dəyərli yadigarı olan bu möhtəşəm sərginin ötən 30 il ərzində respublikamızın rəsmi mətbuatında öz əksini necə tapması barədə suala "Azərbaycan" qəzetinin timsalında həmin qəzetin İqtisadiyyat şöbəsinin redaktoru Flora Sadıqova cavab verdi.

Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikovanın çıxışı isə neftlə incəsənətin bir-birinə bağlılığı barədə idi.

Sonda "Caspian Event Organisers"in icraçı direktoru Bəhruz Hidayətzadə tədbirin iştirakçılarına təşəkkürünü bildirdi və onlara sertifikatlar təqdim etdi.

*Fotolar*
***İlham BABAYEVİNDİR,***
***"Azərbaycan"***

# Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində Çin imzası

**İyunun ilk günlərindən Bakı yenidən dünya enerji sənayesinin diqqət mərkəzinə çevrildi. Artıq üç onillikdir ki, ənənə halını alan "Caspian Oil and Gas" və 13-cü dəfə keçirilən "Caspian Power" sərgisi geniş miqyas və yüksək iştirakçı sayı ilə diqqət çəkdi. "Bakı-Ekspo" Mərkəzində 30-cu dəfə təşkil olunan neft-qaz sərgisi təkcə regional deyil, həm də qlobal miqyasda enerji təhlükəsizliyi və texnoloji yeniliklər baxımından strateji əhəmiyyət daşıması ilə yadda qaldı.**

Dünən başa çatan Beynəlxalq Xəzər Neft və Qaz sərgisi təkcə ənənəvi enerji sahəsində tərəfdaşlıq platforması deyil, həm də innovasiya mərkəzi kimi çıxış etdi. Bu il sərgidə təqdim olunan texnologiyalar arasında rəqəmsal neft hasilatı sistemləri, süni intellekt əsaslı quyuyoxlama alqoritmləri, enerji effektivliyi üçün yeni qazma avadanlıqları və dəniz platformaları üçün "yaşıl texnologiya"lar xüsusi maraq doğurdu. Əsas diqqətçəkən yeniliklərdən biri süni intellektlə idarə olunan quyularda avtomatlaşdırılmış nəzarət sistemləri idi. Bu texnologiya hasilatın real vaxtda monitorinqini təmin etməklə yanaşı, potensial sızmaların və texniki nasazlıqların erkən aşkar edilməsinə imkan verir.

"Caspian Oil and Gas"la paralel şəkildə 13-cü "Caspian Power" sərgisi də enerji sektorunda innovasiyalar və davamlı inkişafın önəmli platforması olaraq keçirildi. Bu platformada regionda elektrik enerjisi istehsalı və enerji səmərəliliyi sahəsində ən son yeniliklər təqdim olundu. Burada üç gün ərzində elektrik enerjisi istehsalı və paylanması, enerji saxlanması, "ağıllı enerji" şəbəkələri, bərpaolunan enerji texnologiyaları ilə bağlı geniş təqdimatlar və müzakirələr təşkil edildi. "Caspian Power" həmçinin "yaşıl enerji" həlləri və karbon izinin azaldılması kimi qlobal çağırışlara cavab verən layihələrin təqdimat yeri kimi tanındı.

Sərgi çərçivəsində aparıcı beynəlxalq şirkətlərin və Azərbaycan üzrə fəaliyyət göstərən sənaye nəhənglərinin stendlərində müasir 3D simulyasiya sistemləri, dronlarla boru xətlərinə baxış texnologiyaları və "ağıllı platforma" modulları nümayiş etdirildi. Bu yeniliklər fonunda sərgidə iştirak edən şirkətlərdən biri də "SERWA SJS Limited"in təqdim etdiyi həllər xüsusilə diqqət çəkdi. Şirkətin stendi sərginin peşəkar auditoriyasında xüsusi maraq doğurdu. Məlumat üçün bildirək ki, "SERWA SJS Limited" Çinin Hubei əyalətinin Jingzhou şəhərində yerləşən mühəndislik və istehsalat şirkətidir. Müəssisə 1992-ci ildə qurulmuş və yüksəktexnologiyalı neft-qaz sahəsi avadanlıqları istehsal edən Çin-ABŞ birgə müəssisəsidir. Şirkət ISO 9001 sertifikatına sahib olmaqla yanaşı, API 11D1 sertifikatını da almışdır. "SERWA SJS Limited" həmçinin beynəlxalq bazarlara ixracat həyata keçirən və 82-dən çox xarici distribütora sahib bir şirkətdir. Müasir istehsal imkanları və beynəlxalq sertifikatları ilə neft və



qaz sənayesində etibarlı tərəfdaş olan şirkət əsasən yüksəktəzyiqli triplex və quintuplex nasoslar, sement saxlama avadanlıqları və quyu tamamlama, axın nəzarət və koil boru alətləri kimi məhsulların istehsalı ilə yanaşı, neft və qaz sektorunda kompleks xidmətlərlə də tanınır. "SERWA SJS Limited" ABŞ, Kanada və digər ölkələrə müntəzəm olaraq məhsul ixrac edir.

Şirkəti təmsil edən beynəlxalq satış meneceri Uenpan Li sərgi haqqında fikirlərini bizimlə bölüşdü: "Bu il birinci dəfə "Xəzər Neft və Qaz Sərgisi"ndə iştirak etməyimiz bizim üçün çox önəmli hadisədir. Sərgi həm regional bazarı tanımaq, həm də Azərbaycan şirkətləri ilə birbaşa əlaqələr qurmaq baxımından böyük imkanlar yaratdı. İlk dəfə olmasına baxmayaraq, buradakı peşəkar mühit və təşkilati səviyyə bizi çox təsirləndirdi. Çünki bu sərgi şirkətimiz üçün mühüm platformadır. Burada Azərbaycan neft və qaz sənayesindəki müasir texnoloji yeniliklərlə tanış olmaq və potensial tərəfdaşlarla birbaşa əlaqə qurmaq imkanı əldə edirik. Bu gün Azərbaycan enerji sektorunda sürətli inkişaf edən ölkələrdəndir. Bu da Çin şirkətləri üçün yeni əməkdaşlıq imkanları deməkdir. Buradaca neft və qaz hasilatı, enerji infrastrukturu, bərpaolunan enerji mənbələri sahəsində tərəfdaşlıq üçün geniş potensial olduğunu qeyd etmək istəyirəm".

Uenpan Li Azərbaycan-Çin iqtisadi münasibətlərinə də toxunaraq bildirdi ki, məhz bu amil ölkələrimiz arasında son illər daha da möhkəmlənir: "Biz nəqliyyat və mühəndislik texnologiyaları sahəsində əməkdaşlığı genişləndirməkdə maraqlıyıq. Bu sərgi göstərdi ki, qarşılıqlı investisiya və texnoloji mübadilə üçün böyük potensial mövcuddur. Belə böyük tədbirdə iştirakımız həm də ilk təcrübə kimi olduqca uğurlu alındı və gələcək sərgilərdə də iştirak etməyimizə stimul verdi".

Şirkətin qarşıdakı illərdə Azərbaycanın neft və qaz sektorunda daha geniş iştirak etməyi və lokal tərəfdaşlarla birgə layihələr həyata keçirməyi planlaşdırması onu deməyə əsas verir ki, "SERWA SJS Limited" üçün sərgi yalnız texnoloji təqdimat yox, həm də yeni bazara daxil olmaq üçün mühüm bir başlanğıc olub. Şirkətin sərgidə iştirakı göstərir ki, Azərbaycan bazarı texnologiya və innovasiya baxımından cəlbedici məkandır. Bu ilk addımın gələcək əməkdaşlıqlara yol açacağına inanırıq. Ümumiyyətlə isə, Azərbaycan-Çin iqtisadi tərəfdaşlığı qarşıdakı illərdə enerji və sənaye sahəsində daha məhsuldar nəticələr verə bilər.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***


## AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

2025/2026-cı tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla
**təkrar ali təhsil almaq üçün sənəd qəbulu elan edir**

- **050406 Maliyyə**
- **050409 Mühasibat**
- **050405 İqtisadiyyat**
- **050401 Beynəlxalq ticarət və logistika**
- **050410 Statistika**
- **050408 Menecment**
- **050404 Dövlət və bələdiyyə idarəetməsi**
- **050402 Biznesin idarə edilməsi**
- **050407 Marketinq**
- **050807 Sosial iş**
- **050504 Ekologiya**
- **050201 Beynəlxalq münasibətlər**
- **050616 İnformasiya texnologiyaları**
- **050615 İnformasiya təhlükəsizliyi**
- **050509 Kompüter elmləri**
- **050620 Kompüter mühəndisliyi**
- **050638 Sənaye mühəndisliyi**
- **050606 Ekologiya mühəndisliyi**
- **050635 Qida mühəndisliyi**
- **050622 Maşın mühəndisliyi**
- **050623 Materiallar mühəndisliyi**
- **050619 Kommunikasiya sistemləri mühəndisliyi**
- **050607 Elektrik və elektronika mühəndisliyi**
- **050306 Dizayn (sahələr üzrə)**

Təkrar ali təhsilə sənəd qəbulu ancaq elektron qaydada **https://portal.edu.az/** və **http://www.kabinet.unec.edu.az** internet linkləri vasitəsilə həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan sənədləri ilk növbədə **https://portal.edu.az/** və bundan sonra isə **http://www.kabinet.unec.edu.az** portalları vasitəsilə elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil almaq hüququnu qazanırlar.

Sənədlərin qəbulu 2025-ci il may ayının 26-dan avqust ayının 31-dək aparılacaq.

***Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:***
- Rektorun adına ərizə;
- Ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);
- 3x4 sm ölçüdə fotoşəkil;
- Şəxsiyyət vəsiqəsinin surəti.

**QEYD:** 1993-cü ildən sonra xarici ölkələrdə ali təhsil almış şəxslər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra universitetdə təkrar ali təhsil ala bilərlər.

**Ünvan: Akademik Həsən Əliyev küçəsi, 135, otaq 518**
**Tel.: (012) 564 38 92**
**Mobil: (070) 578 08 59 (həmçinin WhatsApp ünvan)**
**(055) 289 41 46 (həmçinin WhatsApp ünvan)**

***Rektorluq***



## AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)
## Zaqatala filialı

2025/2026-cı tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla
**təkrar ali təhsil almaq üçün sənəd qəbulu elan edir**

- **050406 Maliyyə**
- **050405 İqtisadiyyat**
- **050409 Mühasibat**
- **050408 Menecment**
- **050404 Dövlət və bələdiyyə idarəetməsi**
- **050616 İnformasiya texnologiyaları**
- **050402 Biznesin idarə edilməsi**
- **050407 Marketinq**
- **050810 Turizm işinin təşkili**

Təkrar ali təhsilə sənəd qəbulu ancaq elektron qaydada **https://portal.edu.az/** və **http://www.kabinet.unec.edu.az** internet linkləri vasitəsilə həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan sənədləri ilk növbədə **https://portal.edu.az/** və bundan sonra isə **http://www.kabinet.unec.edu.az** portalları vasitəsilə elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil almaq hüququnu qazanırlar.

Sənədlərin qəbulu 2025-ci il may ayının 26-dan avqust ayının 31-dək aparılacaq.

***Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:***
- Direktorun adına ərizə;
- Ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);
- 3x4 sm ölçüdə fotoşəkil;
- Şəxsiyyət vəsiqəsinin surəti.

**QEYD:** 1993-cü ildən sonra xarici ölkələrdə ali təhsil almış şəxslər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra universitetdə təkrar ali təhsil ala bilərlər.

**Ünvan: Əhməd Rəcəbli küçəsi, 4, otaq 202**
**Telefon: +(994) 24-22-5-21-57**
**E-mail: unec.zf@unec.edu.az; unec.zf@gmail.com**
**Mobil: (050) 788 70 03 (həmçinin WhatsApp ünvan)**
**Mobil: (050) 808 49 08 (həmçinin WhatsApp ünvan)**

***Rektorluq***





# *Kjell A.Nordström:* "Gələcəkdə insanlar planetimizin yalnız 2 faizində yaşayacaqlar"

**"Müasir dövrdə urbanizasiya prosesi çox sürətlə gedir. 10 il əvvəl dünya əhalisinin yalnız 10 faizi şəhərlərdə yaşayırdı. 2016-cı ildə bu rəqəm 50 faizə yüksəldi".**

AZƏRTAC xəbər verir ki, bunu tanınmış iqtisadçı və biznes eksperti Kjell A.Nordström Bakı Enerji Həftəsi çərçivəsində keçirilən sessiyada çıxışı zamanı deyib.

O bildirib ki, bu gün dünya əhalisinin 70 faizi şəhərlərdə yaşayır, növbəti illərdə isə bu rəqəm 80-85 faizə yüksələcək.

"Şəhərlər daha da böyüyəcək. Dünyada çox deyil, 600 şəhər olacaq. Bu gün Tokio, İstanbul, London kimi şəhərlərin əhalisi daha da artacaq. Enerji, qida məhsulları, ümumilikdə hər şey şəhərdə istehsal olunacaq. Kosmosdan planetə baxanda yalnız iri şəhərlərin işıqları görünür, qalan yerlər isə qara görünür. Bu qara yerlərin sayı artır. Bəs insanları şəhərlərə köçməyə vadar edən nədir? İnsanları Pekin, Moskva, London və başqa şəhərlərə köçməyə vadar edən ümiddir. İnsanlar şəhərdə yaxşı təhsil almağa, biznes qurmağa, yaxşı yaşamağa ümid edirlər. Bu ümidi insanın düşüncəsindən heç kim və heç nə çıxara bilməz. Bu, planetimizin coğrafiyasını dəyişəcək. Gələcəkdə insanlar planetimizin yalnız 2 faizində yaşayacaqlar. Bu gün insanlar, qlobal kampaniyalar, dövlətlər buna hazır olmalıdırlar", - deyə o vurğulayıb.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 23 may (Cümə günü) tarixli 186-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 22 şabanül-müəzzəm sənə 1337.
23 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

### İ. V. DENİSOVUN BANKİR KANTORASI

Həmin may ayının 28-də Rostova vəkil göndərir. Hər cür sifarişat və bərat qəbul olunur.

*8785*

### İ. V. DENİSOVUN BANKİR KANTORASI

**(Velikoknyajeski, nömrə 1)**

Açılıb və rus, ingilis, türk [dillərində] müamilatda [əməliyyatda] aşağıdakı üzrə bulunacaqdır: əcnəbi valyuta alıb və satmaq; ildə 6 faizlə cariyyə tövdiələr [əmanətlər] qəbulu; para bərat edilməsi, müxtəlif komisyon sifarişatı qəbul edilir.

*8786*

**Hökumət Teatrosunda axşam tamaşası**
**"AŞIQ QƏRİB"**
Axırıncı opera
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşları Müdiriyyəti

Cümə günü şabanül-müəzzəm ayının 22-sində (mayısın 23-ündə) 1337-1919-cu ildə Müdiriyyətin əzasından Zülfüqar bəy Hacıbəylinin şərəfinə (benefisinə) bu mövsümdə axırıncı dəfə olaraq təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Zülfüqar bəyin yazmış olduğu **"Aşıq Qərib"** operası.

Musiqi orkestri, qızlar və oğlanlar xoru və rəqsi.

Biletlər satılır teatrın kassasında.

Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.

*Müdir: Üzeyir bəy Hacıbəyli*
*T-133*

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərin dəhşəti**

Stokholm - Libavadan çəkilmiş olan bir teleqrafda denilir ki, Riqada bolşeviklər yeddi min nəfər burjuyları və onların ailələrini tövqif [həbs] edərək şəhərdə olan cəzirəyə [adaya] aparıb. Onlar ərzaqsız və pulsuz buraxılmışdır.

Kopenhaq - Xəbər verilir ki, bolşeviklərin Birinci ordusu Ukrayna qoşunlarına təslim olaraq 20 min tüfəng, 35 top, 200 pulemyotu da ukraynalılara vermişlərdir.

London - Boleşviklər məlum edirlər ki, Vilna [Vilnüs] şəhərini tərk etmişlərdir. Fəqət məlum deyil, bu şəhər bolşeviklərəmi, yoxsa nemeslərəmi tərk edilmişdir.

- Məlum olmuşdur ki, Rusiyada yeni təşkil edilən dövlətlərdən Estlandiya [Estoniya], Gürcüstan, Litva, Ukrayna və Belorusiya cümhuriyyətləri Rusiya ilə sazişə gəlmişlərdir. İstiqlal məsələsində bunlar yek-digərinə [bir-birinə] müavinətdə bulunmalı imişlər.

- Kronştadt istehkamatı təhkim edilmişdir. Orada olan əsgərlərdə intizam vardır. Bunlar füqəra (proletariya) inqilabını saxlamaq arzusu ilə ruhlanmışdırlar. Matroslar tamamilə cəbhəyə göndərilmələrini tələb edirlər. Kronştadtın müdafiəsi də mükəmməldir. Ora ərzaq cəhətindən təmin edilmişdir.

Xarkov - Denikin öz yavərləri ilə Rostov şəhərinə varid olmuşdur [getmişdir].

- May ayının 12-də İngiltərənin Avam Kamerasında Bonar Lou məbus Vedjvudun Petroqrad hücumuna dair sualına cavab olaraq demişdir ki, ingilis donanması Petroqrad üzərinə yürüşə hazırlanır. Görünür ki, qırmızı paytaxtı təzyiq altına almışlardır.

**Samara və Petroqrad**

Ukrayna Mətbuat Bürosu xəbər verir ki, amiral [admiral] Kolçak qoşunları Samara şəhərini işğal etmişlərdir. Skandinav qəzetələri yazırlar ki, Finlanda qoşunları Petroqradın bir neçə verstliyindədirlər.

**Almaniyada**

Berlin - Dünən Hamburqda camaat su kənarında olan evləri dağıtmışdır. Camaat ilə polis arasında müsadimə [toqquşma] vaqe olub, nəticədə bir çoxları ölmüş və yaralanmışlardır. Svyatoy Pavel qəsəbəsində müntəzəm müharibə olmuşdur. Polis uçastoku talan edilib, 30 nəfər məhbus azad edilmişdir.

Hamburq - Dəhşətli iğtişaş əmələ gəldiyi üçün polis və milli qvardiyaya əmr verilmişdir ki, talan edənləri hər yerdə güllələsinlər.

**Bavariyada**

London - Yuxarı Bavariyada Freyzinq yaxınlığında qırmızı qoşun əfradı [əsgərləri] ilə hökumət qoşunları arasında müsadimə [toqquşma] vaqe olmuşdur. Deyirlər ki, hökumət qoşunlarından 80 nəfər ölən vardır. Spartaklar şəhər qarşısında xəndəklər qazıyıb və oraya pulemyotlar qoyaraq atışmaya başlamışlardır. "Beqblatt" qəzetəsi xəbər verir ki, şəhərə 30 min hökumət qoşunu girdikcə hökumət Münhendə iqdamatda bulunmayacaqdır [heç bir addım atmayacaqdır].

- Arxangelsk cəbhəsində bizimkilər bolşevik istehkamlarını topa tutmuşlardır.

Arxangelsk - Ayronsayd xəbər verir ki, may ayının 6-da Vaqa nəhri üzərində olan səngərlərimizə bolşeviklər 50 min top gülləsi buraxmışlardır. Sonra iki piyada hücumu icra edilmişsə də, hər ikisi dəf edilmişdir. Bizim tələfatımız çox əhəmiyyətsizdir.

**Bolşeviklərin məlumatı**

Şərq cəbhəsində Ural dairəsi: Biz Uralsk şəhərini tərk eylədik.

Orenburq cəbhəsi: Orenburq dəmiryolu Buzulukun cənub cəhətində əməliyyatda bulunan qoşunlarımız bu yolun cənub-qərb cəhətinin 25 verstliyinə çıxmışlardır. Orenburq yaxınlığında müharibə davam edir.

Buquruslan dairəsi: Bizim qoşunlar Buquruslanın 45 verstliyinə çıxmışlardır.

**Əfqanıstanda**

Şayiata görə, həbsxanada Əfqanıstan əmirinin əmisi Nəsrulla xan qətl edilmişdir.

## SÜLH ƏTRAFINDA

Liondan verilən xəbərlərə görə, Müttəfiqlər bu gün Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] bir şöbəsi olan Beynəlmiləl Zəhmət İttifaqına almanların bilatəxir [təxirəsalınmadan] daxil edilməsi məsələsini müzakirə etmişlərdir. Çox ümid vardır ki, almanlar Cəmiyyəti-Əqvama da daxil ediləcəklərdir. Beynəlmiləl Zəhmət İttifaqına qəbul edilən üzvlərin əksəri Cəmiyyəti-Əqvama qəbul ediləcəkdirlər.

**Adriatik məsələsi**

Adriatik dənizi məsələsi hələ həll edilməmişdir. Fransız mətbuatı bu məsələnin hüsnhəll ediləcəyini gözləyir.

**Saar hövzəsi məsələsi**

Paris qəzetələri yazırlar:

Nahaq yerə zənn edirlər ki, Saar hövzəsi 15 illik istiladan sonra camaatın arzusu ilə Almaniyaya qaytarılacaqdır. Sülh müahidəsinə görə, hərgah camaat Saar hövzəsinin Almaniyaya verilməsini arzu etsə, o zaman Almaniya qızıl pula müqabil bu yeri ələ keçirər. Hərgah Almaniya bu qədər məbləği verməkdən aciz olarsa, onda Saar hövzəsi qətiyyən Fransaya mülhəq ediləcəkdir [birləşdiriləcəkdir]. Sülh müahidəsinin [sazişinin] maddi və iqtisadi şəraitini nəzərə aldıqda anlaşılır ki, Almaniya 5 il müddətində kifayət edəcək qədər qızıl hasil edəmməyəcəkdir. Hərgah Almaniyadan kafi miqdarda qızıl hasil etmək mümkün olsa belə, müharibə xəsarətini ödəyən komisyon ondan istifadə edəcəkdir.

Nauen - Yepiskop Şultse Roma papasından təvəqqe eyləmişdir ki, sülh şəraitinin yüngülləşdirilməsini Müttəfiqlərdən rica eyləsin. Zira cəbrən bu sülh müahidəsi almanlara qəbul etdirilərsə, o zaman cahan inqilabı qalxacaqdır.

**Almanlar sülh barəsində**

Rantsau sülh şəraiti barəsində almanlara məlumat verərkən demişdir: Almanlar bilirlər ki, onların qüvvəti sınmışdır. Fəqət müharibənin yeganə günahkarı almanlar olduğunu etirafdan imtina edirlər. Almaniya bunu etiraf edir ki, təqsirin bir hissəsi öz üstünə düşür, fəqət bütün Avropa bu işdə təqsirkardır. Çünki bu axırıncı 10 ildə bütün dövlətlərin cahangirliyi [imperializmi] beynəlmiləl əlaqəni zəhərləmişdi.

Berlində müntəşir [nəşr olunan] "Taqeblatt" qəzetəsi deyir:

*"Sülh şərtnaməsi ən yaman gözlədiyimiz nəticələri keçdi. Görünür ki, bu şərtnamə düşünülməmiş bir qabalığın nəticəsidir. Danışıqla bu şərtnaməni dəyişdirmək olmaz. Yeganə çarə isə böylə müahidəni qəbul etməriz sözüdür. Hökumət Almaniyada bir intibahnamə [vərəqə; bəyannamə] nəşr edərək məlum edir ki, Versal müahidəsini [sazişini] qəbul etmək olmaz."*

Berlindən verilən teleqrafda təsdiq edilir ki, Lüdendorf müsahibədən imtina eyləmişdir. Fəqət qəzetə müxbirinə məlum eyləmişdir ki, əgər sülh şərti bu isə Amerika rədd olub gedə bilər.

Brüssel - 100 min nəfər üzvü və 300 nəfər xadimi olan milli siyasi komitə krala bir ərizə verərək təvəqqe edirlər ki, sülh şərtnaməsini imza etməsin. Ərizədə denilir ki, Belçikaya az mükafat verildiyindən və hər bir arzusu rədd edildiyindən, Belçika əhalisi çox narazıdır. Belçikasız əqd edilən müahidənin ədalətsiz olduğunu Belçika məhv olsa da isbat edər.

Bu gecə Kral Şurası müttəhidülrəy [yekdilliklə] müahidənin imza edilməsinə qərar vermişdir. 4 saatlıq müşavirədən sonra Himans bəyan eyləmişdir ki, Belçikaya təqdim edilən şərait şərəfli və ümidlidir. Şura qərar qoymuşdur Müttəfiqlərə məlum edə ki, Belçikanın abad və ümran edilməsi üçün onların müavinəti zəruridir.

**İsveçlər sülh barəsində**

Versalda Müttəfiqlər tərəfindən almanlara təqdim edilmiş olan sülh şəraiti barəsində İsveç qəzetələri bəyani-mütaliədə bulunaraq [fikir bildirərək, şərh edərək] yazırlar ki, bu sülh yeni müharibə hədəfi və əmələlərin [fəhlələrin] həyəcanından başqa heç bir səmərə verməyəcəkdir.

**Sülh və alman birjası**

Versal sülh müahidəsi Almaniyanın maliyyə və ticarət dairələrinə artıq təsir eyləmişdir. Münhendə üsyan yatırıldıqdan sonra birjanın halı möhkəmləşmişdi. Fəqət sülh şərtnaməsi barəsində Almaniyaya birinci xəbər yetişərkən, yenə birja qiymətləri düşmüşdür. Nə qədər ki, bu barədə müfəssəl xəbərlər gəlir, o dərəcədə də birja qiyməti düşür.

* Yekşənbə [bazar] günü Almaniya Milli Şurasının iclası vaqe olaraq sülh şərtnaməsi müzakirə edilmişdir. Bu xüsusdakı müzakirat nəticəsi olaraq Versal şərtnaməsinin qəbulu qeyri-mümkün olduğuna qərar verilmişdir. Demokratik müəssisələr intibahnamələr intişar edərək [vərəqələr yayaraq] müahidəni ciddiyyən tənqidlə bərabər deyirlər ki, mütarikə [atəşkəs] zamanında verilən vədələrin kaffəsini [hamısını] bu müahidə pozur və xələldar edir. Bu təklifdə milli azadlıq, sərbəst ticarət və ədalət yoxdur. Almaniya Ticarət İttifaqının məşhur lideri Legin Versaldan Berlinə əzimət eyləmişdir [yola düşmüşdür]. Nazirlərdən Gisberts və Landsberqin də Berlinə əzimət edəcəyi xəbər verilir. Bunlar Berlin Şurasında iştirak edəcəkdirlər.

London - Battomli Avam Kamerasında bəyan eyləmişdir ki, ingilis nazirləri tərəfindən xəsarətin əda ediləcəyi [zərərlərin kompensasiya ediləcəyi] barəsində verilən vədələri sülh müahidəsi vücuda gətirməyir. Bu müharibənin maddi ağırlığı İngiltərənin üzərinə düşür. Bütün hərbi məsarifi əda etməyən müahidə qəbul ediləmməz.

* Türkiyənin sabiq naziri Əbdülqədir paşa və Parlaman üzvü Lütfü Fikri bəy Sülh Konfransında kürdlərin sülh heyəti üzvü təyin edilmişlərdir.

## QƏZETƏLƏRDƏN

**İngiltərə əsgərlərinin hərəkəti**

İngiltərə əsgəri dəstələri tədriclə Tiflisdən çıxıb getməkdədirlər. 1914-1915-ci illərin əsgərləri İngiltərəyə göndərilirlər. 1916, 1917 və 1918-ci illərin əsgərləri isə Misirə gedirlər. 22-ci firqə İngiltərəyə gedəcəkdir. Onun əvəzinə isə bu yaxınlarda Misirdən 27-ci firqə gələcəkdir.

**Batumda bolşevik sualtı qayığı**

Keçən gün Batumdan gələn bir şəxs nəql edir ki, səşənbə [çərşənbə axşamı] günü mayın 13-də Batum iskələsi yanında bolşevik sualtı qayığı suyun üzünə qalxmışdır. Sualtı qayığı iskələ [liman] xaricində duran İtaliya kruvazeri [kreyseri] "Roma"nın yaxınlığında görünmüşdür. İskələ daxilində olan İngiltərə hərbi paroxodu birinci olaraq sualtı qayığını görüb dərhal toplardan qayığa atəş açmışdır. Başqa hərbi gəmilər də, həmçinin, atəş açmağa başlamışlar. Gəmilərdən atəş açılan kimi sualtı qayığı suya cumub gizlənmişdir. Təsəvvür edildiyinə görə, qayıq gecəni Batum sahillərində keçirmişdir. Səhər isə kəşfiyyat üçün iskələyə yaxınlaşmışdır. Batumda dövran edən şayiələrə görə Şura Hökuməti Batum ilə Novorossiysk arasında yolları kəsməkdən ötrü üç ədəd sualtı qayığı göndərmişdir.

**Cioyevin həbsi**

Bu günlərdə Tiflisdə Cənubi Osetin Milli Şurasının müavini-sədri N. J. Cioyevin evində axtarış icra edilib özü də həbsə alınmışdır.

**Krımda**

Feodosiyanın Müttəfiqlər tərəfindən atəşə tutulması

Bolşevik Hökuməti əsgərləri Feodosiya şəhərinə yaxınlaşmışlar. Bu halda iskələdə İngiltərə fövqdrednoutu [superdrednoutu] və bir neçə də İngiltərə və yunan minonosları [torpedo gəmiləri] durmuşmuşlar. İngiltərə və yunan gəmiləri bolşeviklərin yaxınlaşmasını eşidib atəş açmışlardır. Gəmilərin atəşi bolşeviklərə böyük tələfat vermişdir. Gəmilərdən atəş açılan zaman İngiltərə və yunan qoşunları ilə fəhlələr nümayəndəsi gəmilərə gəlib atəşi dayandırmağı xahiş etmişlərdir. Onlar demişlər ki, şəhər bolşeviklər tərəfindən alınarsa, əcnəbi təbəələrini bolşeviklər təqib etməyə başlarlar. Donanma komandanı bunların bu xahişini rədd edib demişdir ki, Feodosiyada yaşayan əcnəbi təbəələrinin hamısını gəmiyə götürməyə hazırdır. Hərgah şəhərdə birisi mütəzərrir olarsa [zərər çəkərsə], atəş şəhərə döndəriləcəkdir. Bolşeviklərin Feodosiya üzərinə hücumu dayandırılmışdır.

**Mitropolit Platon**

Odessa təxliyə edildiyi zaman mitropolit Platon ingilis dilində ingilislərə qarşı demişdir ki, biz sizi gözləyib Müttəfiqlərin köməyinə ümidvar idik. Biz indi də hələ sizin müavinətinizə ümidvarıq. Hərgah bizim ümidlərimiz doğru olmasa, təqdirimiz bizi Almaniya ilə ittifaqa girişməyə məcbur edəcəkdir. Ola bilər ki, bir vaxt bizim müttəfiqlər Uraldan Reynə qədər alaylar görəcəklər.

**Xarkovda**

Xarkovda 18, 19 və 20 yaşında olanların əsgərliyə dəvət edilmələri elan olunmuşdur. Bu münasibətlə üsyan başlanmışdır. Əvvəlcə həyəcan Sumıda başlanıb, sonra Xarkova sirayət etmişdir. Kəndlilər Könüllü ordu əleyhinə çıxmaqdan imtina etmişlər. Üsyan əsnasında komissar Yefimov və başqa 4 nəfər məşhur komissar qətl edilmişdir. Üsyan latışlar və maryaklar [dənizçilər] tərəfindən yatırılmışdır.

Əsgərliyə dəvət edilənlərin bir hissəsi qaçıb, qalanlarını isə qapalı vaqonlarda cəbhəyə göndərmişlər. Fəhlə sinifi bolşeviklərə düşmən nəzəri ilə baxır. Paroxod inşa edən zavod iki dəfə tətil etmişdir. Təzminat cinsən alınır. Çuquyevdə taxıl və qeyri ərzaq şeyləri həcz [müsadirə] edildiyindən, üsyan qalxmışdır.

Savdep üzvləri və bir çox kommunistlər Donets nəhrində qərq edilmişlər.

**İranlı könüllülər**

Batum qəzetələrinin verdikləri məlumata görə, ingilislər bolşeviklərlə mübarizəyə göndərməkdən ötrü İranda könüllü dəstələri təşkil etməyə başlamışlar. Xüsusən Lyaxov dəstəsi süvarilərindən külli miqdarda könüllülər cəm olurlar. İranlı könüllülərinin birinci dəstəsi Batuma varid olub [çatıb], buradan da bu yaxınlarda cəbhəyə göndəriləcəkdir.

**Qərb sosialistləri Moskvada**

Bern Sosialist Konfransı nümayəndələri Moskvaya varid olmuşlar [gəlmişlər]. Bunlar Rusiyanın böyük şəhərlərində mitinqlər tərtib etmək niyyətindədirlər.

**Trotski və Kolçak hücumu barəsində**

Moskvada mitinqdə çıxan Trotski yenə təzədən fəhlələri inqilab fütuhatını [nailiyyətlərini] müdafiə və mühafizə etməyə dəvət edib göstərmişdir ki, Şərq cəbhəsi cahan inqilabı cəbhəsidir. Hərgah Kolçak Volqanı alarsa, o zaman bolşevik hökumətinin həlakəti [məhvi] yəqindir [qaçılmazdır].

**Kuban sülh heyəti Parisdə**

Kuban sülh heyəti Rada sədri L. L. Bıç başda olmaq üzrə 73 günlük bir səfərdən sonra Fransa paytaxtına varid olmuşdur [çatmışdır]. Məzkur [deyilən] heyətdən sonra doktor Dolqopolov əzimət edib [yola düşüb], lakin onlardan qabaq Parisə varid olmuşdur. Doktor Dolqopolov knyaz [Georgi Yevgenyeviç] Lvov başda olaraq rus sülh heyəti dəstəsinə mülhəq olmuşdur [qoşulmuşdur]. Kuban heyətinin başqa üzvləri isə məzkur dəstəyə mülhəq olmayıb, ələlümdə [əsasən] xarici işlərə baxan Parlaman komissiyasının sədri ilə müzakiratdadırlar. Kuban heyəti də rus sülh heyəti kimi Sülh Konfransı işlərində bilavasitə iştirak etməyirlər.

**Buxarada**

Buxarada əmirin hökmranlığı davam edir. Hərçənd Şura Hökuməti namından Peçatnikov adlı birisi Buxarada əyləşirsə də, bununla bərabər, əmirlə Şura Hökumətinin əlaqəsi bir o qədər də yaxşı deyildir. Buxara xanlığında bolşeviklərin kağız paraları işlənməyir. Buxara torpağından kənarda Şura Hökuməti Buxara əleyhinə işləyir. Bolşeviklərin müavinəti ilə Daşkənddə Gənc Buxaralılar Komitəsi təşkil edilmişdir. Buxarada dəxi bu komitənin şöbəsi vardır. Gənc Buxaralılar vaxtın iqtizasına [tələbinə] görə bolşeviklərə qoşulmuşlardır. Hər halda Gənc Buxaralıların əqidəsi bolşevik əqidəsinə müvafiqət etməz [uyğun gəlməz]. Bunlar məşrutəli [konstitusiyalı] hökumət tələb edirlər. Buxaranın özündə rahatlıq yoxdur. Buxara məmurları işi bir dərəcəyə yetirmişlər ki, bəzi yeniliklərdə camaat üsyan qalxızmışlardır. Fəqət hər dəfə bu üsyan ən qaba üsullarla yatırılmışdır.

**Xivə**

Məlum olduğu üzrə, keçən il dekabr ayında Xivə xanı Seyid İsfəndiyar Bahadır xan qətl edilmişdi. Xan taxtına zahiri olaraq onun qardaşı əyləşmişdisə də, fəqət Yomut qəbiləsi rəisi Cüneyd xan Xivə xanlığını idarə edirdi. Bu həman zatdır ki, mütəvəffa [vəfat etmiş] xan ilə ciddi mübarizələr edirdi və bu Cüneyd xanın əleyhinə vaxtilə general-qubernator Samsonov bir dəstə düzəltmişdi.

İbtida [əvvəlcə] Cüneyd xan bolşeviklərlə mübarizə edirdi. Bolşevik dəstələrindən birisi 1918-ci sənə dekabrın axırlarında onları məğlub eyləmişdi. Lakin hal-hazırda Türküstan hökuməti Xivə xanlığı ilə dostanə bir surətdə dolanmaq istəyir. Bu məqsədlə də Daşkəndə varid olmuş [gəlmiş] Əfqanıstandakı türk heyəti üzvü yüzbaşı Məhəmməd Kazım Xivəyə göndərilmişdir. Məhəmməd Kazım xivəliləri bolşeviklərə mail etməyə müvəffəq olmasa belə, Şura Hökuməti ilə müharibənin önünü almağa müvəffəq olacaqdır. Xivə və Buxara hələlik bitərəflik saxlayırlar.

**Əfqanıstan**

Türküstanın gərək şura və gərək qeyri-şura hissəsi olsun, Əfqanıstanla əlaqədardırlar. Əmir Həbibulla xan qətl edildikdən sonra taxt üstündə iki qüvvə yek-digəri [bir-biri] ilə mübarizə edirdi. Birinci, ingilis mühibbi [dostu, tərəfdarı] olan qüvvə mütəvəffa [vəfat etmiş] əmirin siyasətini davam etdirmək, büsbütün ingilis nüfuzu altında qalmaq istəyirdi. İkinci qüvvə isə özünü heç kimə düşmən hesab etməyərək bəyan edirdi ki, Əfqanıstan hüquqlu və müstəqil bir dövlətdir, hər yerdə əfqan milli siyasətini yeritməlidir. Hər kəs əfqan hüququna toxunarsa, müsəlləh [silahlı] surətdə qarşılanacaqdır. Bu dəstə istiqlaliyyət sevən, milli siyasət aparan və Əfqanıstan daxilini islah edən bir dəstədir.

Bu mübarizənin nəticəsi əhalinin hanki tərəfə mail olduğunu göstərdi. İkinci qalib gəldi. Bu dəstənin başçısı əmirin kiçik oğlu Əmanulla xan idi. Onun xanədanı, rəqibləri, böyük qardaşı İnayətulla xan və əmisi Nəsrulla xan yeni əmiri qəbul etmişlərdir. Fəqət böyük qardaşı İnayətulla xan təqibdən ehtiyat edərək Hindistana köçmüşdür.

Yeni əmirin cülusu [taxta çıxması] münasibətilə fərman edərək siyasi mücrimlərin [cinayətkarların] həpsini əfv etmiş, qoşunların məvacibini artırmış və camaata vergiləri bağışlamış, əlavə, qanun qoyucu Milli Şura dəvət edəcəyini bildirmişdir.

**Urmiyəyə müavinət**

İran Hökumətinin əmrinə görə, bütün məmləkətdə Urmiyədə xəsarətdidə olan [zərər görən] müsəlmanlar üçün ianə cəm edilməsinə başlanmışdır. Birinci olaraq Şah əfəndi 15 min tümən ianə vermişdir.

Krım qaçqınları

Krımdan Batuma bir çox qaçqınlar gəlməkdədir. Batuma daxil olmağa hələ heç bir icazə tələb edilməyir. Şəhərdə bahalıq hökmfərmadır [hökm sürməkdədir]. Mehmanxana nömrəsi yüz manatdır. Balaca bir otaq 900 manata kirayəyə verilir. Bahalığa səbəb Batuma varid olan [gələn] dövlətlilər olmuşlar. Dövlətli qaçqınlar arasında tənbəki fabrikaları sahibi [Vladimir Konstantinoviç] Mesaksudi və Stamboli də vardırlar.

## DAĞISTAN ƏHVALI

**Dağıstanlılar və general Biç**

Şənbə günü mayın 10-da Zaqafqaziya Konfransında olan Dağıstan nümayəndələri Əlixan Kantemir, Penzulayev və Butayev ingilis komandanı general Biç hüzuruna qəbul edilmişlərdir. General Biç bunlarla hadisati-cariyyə [cari hadisələr] xüsusunda müsahibədə bulunmuşdur. General məsləhət görmüşdür ki, dağıstanlılar general Denikin ilə barışsınlar. Dağıstan nümayəndələri generala demişlər ki, dağıstanlılar özlərini Qafqaziya heyətindən ayrılmaz bir hissə hesab edirlər. Vilsonun 14 maddəli müahidəsindəki [sazişindəki] vədlərə ümid və o nöqteyi-nəzərlə istiqlaliyyətlərini müdafiə edirlər. Məzkur [deyilən] şərtnamədə millətlərə istiqlaliyyət əsası vardır. General Tomson ibtidada [başlanğıcda] demişdi ki, Qafqaziya cümhuriyyətləri məsələsi Sülh Konfransında həll edilənədək Müttəfiqlər bu cümhuriyyətləri qəbul edirlər. Biz bu vədlərə iman edərək öz istiqlaliyyətimizi müdafiə ediriz. Dağıstan istiqlaliyyəti mənafeyini xələldar edən Denikindir. Denikin bizə təcavüz edir, biz isə bir şey etməyiriz. Onlardan özümüzü müdafiə etməməyi biz bacarmarız, çünki məsələ həyat və məmat [ölüm-qalım] məsələsidir. Bir dəxi əlavə ediriz ki, Denikinlə mübarizədə davam edəcəyiz və bu işdə hər cəhətdən biz kəndimizi haqlı hesab ediriz.

General Biç cavabında demişdir ki, sizə lazımdır ki, Denikinlə nə vasitə ilə olursa-olsun sülh edib müharibəni bitirəsiniz. O ki qaldı Vilsonun 14 maddəsi, müharibə zamanında tərtib edilib almanlara təklif edilmişdi. İndi müharibə qurtarmışdır və bu barədə danışığa belə ehtiyac yoxdur.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin torpaq təmizləyən dəniz karvanı xidmətçilərinə 16 sentyabrdan 31 dekabradək verilməmiş qalan məvaciblərinin verilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

20 milyonluq fonddan Türüq və Məabir Nəzarətinə xidmətçilərə məvacibdən ötrü 14 446 manat buraxılsın.

- Ədliyyə nazirinin Gəncə nahiyə məhkəməsinə sədr təyin etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Gəncə nahiyə məhkəməsi sədrliyinə sabiq İrəvan nahiyə məhkəməsi üzvü Abbasəli bəy Ağababayov təyin edilsin.

- Maliyyə nazirinin Azərbaycan, Gürcüstan və Ermənistan yaylaqlarına azadə surətdə köç etməyə icazə haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hər adam başına bir put un aparmağa izin verilsin.

- Türüq və Məabir nazirinin Nəzarətin avtomobil zavodu təmiri və məxaricatından ötrü 1919-cu sənədə hələlik 681 100 manat təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) 20 milyonluq fonddan istənilən məbləğ buraxılmaqla, Məclisi-Məbusana idxal ediləcək Nəzarət smetasına hesab edilsin.

2) Təcili surətdə zavodun məxarici haqqında geniş məruzədə bulunması nazirə tapşırılsın.

3) Avtokoloniya tərəfindən hökumətə verilmiş avtomobillərdən lazımi miqdarı saxlanaraq, mabaqisi [qalanı] təmir edilmədən sahiblərinə qaytarılsın.

- Ticarət, Sənaye və Ərzaq nazirinin fabrika müfəttişliyi barəsindəki qanun layihəsinə dair məruzəsindən [sonra] qət edilmişdir:

Məruzəni təsviblə [bəyənməklə], təsdiq üçün Məclisi-Məbusana idxalı tapşırılsın.

- Ticarət və Sənaye nazirinin xəzinə mənfəətinə buxar qazanlarından alınan verginin müvəqqət artırılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, Məclisi-Məbusana idxalı tapşırılsın.

- Ədliyyə nazirinin Xüsusi İstintaq və Təftiş Komisyonu təsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, Məclisi-Məbusana idxalı tapşırılsın.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Bakı və dairəsi telefon xətləri xidmətçiləri zavod komitəsi Məsai [Əmək] Nəzarətinə müraciətlə məlum etmişdir ki, Nəzarətin qərardadına görə fəhlələrə verilməli olan atidə mündəric tələbatını [aşağıda yazılan tələblərini] müdiriyyət bu vaxtadək qəbul etməmişdir:

1) Avqust avansı; 2) Bir ay yarımın təfavütünü; 3) Mart ayının; 4) inqilab bayramı gününün məvacibini.

Komitə rica etmişdir ki, lazımi tədbirlər görülsün. Əks surətdə komitə sui-nəticənin məsuliyyətini öz öhdəsindən götürür.

- İşbu sənənin avqust avansı və tarifə məvacibini şəhər xidmətçiləri almamışlardır. Məsai Nəzarəti rica etmişdi həman haqlar xidmətçilərə verilsin.

Bələdiyyə İdarəsi Məsai Nəzarətinə müraciətən onların miqdarını təcili surətdə bildirməyi rica etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Ticarət və Sənaye Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, Gəncədəki Nəzarət anbarlarından nahiyə müfəttişinə 10 pud mədən yağı buraxılsın. Həman yağ oyun (qumar) kağızları çapından ötrü litoqrafiyaya lazımdır.

- Hal-hazırda qaçqınların bəzzaziyyə malına [parçaya, toxunma mala] böyük ehtiyacları olduğundan Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Ticarət və Sənaye Nəzarəti ilə etilafa gəlmişdir ki, Tağıyev fabrikasından bezləri qaçqınlar miyanında [arasında] təqsimdən [paylamaqdan] ötrü Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə verilsin.

- Süni cəhətdən Bakı ətrafında ərzaq şöbələri açmaq namümkün olduğundan, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti qət etmişdir ki, füqəra əhaliyə Bakıdakı mərkəzi ərzaq anbarlarından ərzaq buraxılsın.

- Neftçilər İttifaqı Maliyyə Nəzarətinə müraciətən məlum etmişdir ki, hökumət neftçilərə bu vaxtadək istiqraz açmadığından, neft işləri və ticarəti olduqca fəna bir hal kəsb etmişdir. Böylə gedəcək olarsa, neftçilər öz müəssisələrini qapamaq məcburiyyətində qalacaqdırlar.

İttifaq Məsai Nəzarətinə böylə bir kağız göndərərək, bu halı bərtərəf etmək [aradan qaldırmaq] üçün lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

- Hökumətin 19 mayısdakı iclasında qət edilmişdir ki, Şamaxı şəhəri yeni bir zəlzələ bəlasına düçar olmayacaq bir yerdə təmir edilsin. Bundan ötrü də xüsusi bir komisyon təşkil ediləcəkdir. Komisyona işbu zəvat dəvət ediləcəkdir: Ərazi və Dövlət Əmlak Nəzarəti nümayəndələri (mühəndis, su mühəndisi və yer ölçən mühəndis), Ticarət və Sənaye Nəzarəti nümayəndəsi, mühəndis, təbə-qatülərz [geologiya] mütəxəssisi, Daxiliyyə və Səhhəti-Ümumiyyə Nəzarəti nümayəndəsi (doktor).

- 22 mayısda mədən dairələrinə ərzaq işlərinə baxacaq komisyonun müşavirəsi dəvət edilmişdir. Müşavirədə Məsai [Əmək] naziri də iştirak edir.

- Ümuri-Xeyriyyə və Nafiə naziri Vükəla Şurası nəzdində İlarionovka kəndindəki su yolunu düzəltmək üçün 40 min rublə istiqraz verilmək barəsində təşəbbüsatda bulunmuşdur. İşbu borc bir sənəyədək qaytarılmalıdır.

- Gəncə nahiyə müfəttişi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən, qaçqınlar üçün Gəncədə emalatxana güşadı [açılması] haqqında təşəbbüsatda bulunmuşdu. Nəzarət müfəttişə tapşırmışdır ki, təşəbbüsatı öz öhdəsinə götürməklə, ən yaxın zamanda Nəzarətə mədaxil və məxaric smetası təqdim etsin.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Qarabağ general-qubernatoru ilə etilafa [razılığa] gəlmişdir ki, oradakı üşr buğdasından Zəngəzur qəzası Susa və Abdallar mahalları kəndçilərinə yerlərini əkmək üçün Nəzarət nümayəndəsi Axundovun vasitəsi ilə 3000 put buğda buraxılsın.

## BİR NEÇƏ SÖZ

Dövri-istiqlaliyyətimizdə hökumətimizin təşəbbüsatı ilə bir taqım milliləşmiş idarələrimiz vücuda gəlmişdir. Məsələn, bu sənə ibtidai, ali-ibtidai və edadi məktəblərimizin bir qaç sinifləri, posta idarəmiz milliləşmiş, caddələrdə böyük mağazaların lövh yazıları [lövhə yazıları] dəxi türk hürufatı [hərfləri] ilə yazılmışdır.

İstiqlaliyyətimiz zərfində [müddətində] milliləşmək uğrunda göstərdiyimiz təşəbbüsat iştə ancaq fövqəlzikr [yuxarıda qeyd edilən] fəaliyyətlərdən ibarət olmuşdur. Halbuki idarələrimizin əksəri hənuz sabiqdəki şəkillərində davam etməkdə olduqlarından, yerli müsəlman əhalisinin çox hissəsi rus dilini bilmədiklərindən, naməqbul bir hala məruz qalmışdır.

Məsələn, Bələdiyyə İdarəsi kimi bir böyük, milli olacaq müəssisədə 5-6 nəfər xidmətçilərə pul verən (kassirlər) vardırlar ki, bunların heç biri türkcə qonuşa bilmədiklərindən dolayı ay axırlarında bələdiyyə xidmətçilərindən rusca bilməyən zəvat [şəxslər] məzkur [deyilən] kassirlər tərəfindən qayət bədrəftaranə bir surətdə "Uxodi, ya ne znayu, niçeqo ne znayu, ne ponimayu, tebe qovoryu uxodi" ["Çıx get, bilmirəm, heç nə bilmirəm, başa düşmürəm, sənə deyirəm çıx get"] kimi sözləri eşitməklə müttəhim olunaraq, biçarələr saatlarla işlərindən avara olub, böyük Bələdiyyə İdarəsini bir türk dili bilən kimsəni tapmaq, kəndi sözlərini kassirlərə anlatdırmaq və maaşlarını kimdən alacağını bilmək üçün sərsəri halında dolaşmağa məcbur olurlar. Qeyd etməli burasıdır ki, bəzən ağa kassirlər öylə vəhşiyanə, sərt rəddi-cavab verirlər ki, onların əbnayi-cinsi olan [onların cinsindən olan, onlar kimi insan olan] qardaşları ayda bir dəfə də olsa onların üzlərini görməkdən imtina edirlər.

Zənni-acizanəmə görə, məzkur kassirlərdən bir-iki nəfəri müsəlman yaxud türkcə qonuşmaq bilən olsaydılar, rus dili bilməyənlər bu qədər əziyyət-azara məruz qalmazdılar.

Bunlardan maəda [başqa], bəzi milliləşmiş idarələrimizdə xidmətçilərin bir çoxları öz ana dillərinə kəmetina [laqeyd] olmalarındanmı, yaxud nə səbəbdənsə, rusca qonuşub rusca da yazırlar. Bu minval gedərsə, milliləşmiş idarələrimizin milli əhəmiyyəti qayət az olacaqdır.

Binaənileyh [ona görə], rə'sikarda [iş başında] bulunan müsəlman zəvati-giramilərinin [hörmətli şəxslərin], ələlxüsus hökumətimizin, zikri mürur edən vəqələrə [haqqında danışılan hadisələrə] nəzəri-diqqətlərini cəlb edərək, məzkur vəqələrin [deyilən hadisələrin] gələcəkdə bir də təkrar olunmayıb, önü alınacağı ümidindəyiz.

*Bir türk*

## 16 VAQON DÜYÜ

Bu günlərdə Bakı tacirlərindən (yanılmayırsam dəyirman sahiblərindən) birisi Gürcüstana 16 vaqon düyü göndərmişdir. Şübhəsizdir ki, bu, birinci və axırıncı deyildir. Böylə vaqonlar çox göndərilmişdir və çox da göndəriləcəkdir. Ona görədir ki, necə göndərildiyini və ərzaq işlərində nələr olduğunu qeyd etmək lazım gəlir. Zira bu kimi işlərdə azuqənin kənara getməsi ilə bərabər, xəzineyi-dövlətə də aşağıda görüləcəyi vəchlə milyonlarca zərər vururlar.

Söz burasındadır ki, son zamanlar İrandan düyü az gəldiyi halda, məhəlli [yerli] tacirlərdən birisi Nəzarətdən [Nazirlikdən] izin almadan Tiflisə 16 vaqon düyü göndərmişdir. Həm də tranzit olmamaq üçün burada dəyirmanda düyünü bir balaca "təzə"ləmişdir. Bu surətlə dövlət xəzinəsinə verməsi lazım gələn yarım milyon gömrük (480 min manat) xəzinəyə verilməmişdir.

Məmləkətimizdə düyü azaldığı və bahalandığı bir zamanda tacir əfəndi həm camaatın azuqəsini əcnəbilərə satır, həm də barı lazım olan xərci də vermək istəməyir.

Düyü yola salınır.

Bu əsnada Ticarət və Sənaye Nəzarəti müfəttişləri əhvalatdan xəbərdar olurlar. Nəzarət əmr edir düyünü tutub saxlasınlar. Müfəttişlər gedirlər və malı həbs edirlər. Mühafizə dəstəsi rəisinə əmr olunur düyünü buraxmasın.

Aradan bir neçə gün keçir. Mayısın 11-də rəis əfəndi Nəzarətdən bixəbər özbaşına düyünü buraxır. Bu vəchlə Nəzarətin tutmuş olduğu mal bir məmurun "izni" ilə buraxılır.

Hal-hazırda bu iş təhqiq və təftişdədir.

Hökumət öylə tacirlərin, ələlxüsus böylə məmurların cilovunu çəkməlidir, yoxsa nəticəsi pək fəna olar. Həm nəticəsi görülməkdədir də. Məsələn, qəzetəmizin keçən nömrəsində bir xəbər vardı ki, Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] Gəncə və Qazax mahalında buğda baha olduğundan, daha doğrusu buğda olmadığından, qaçqınlar üçün taxılı Cavanşir qəzasından – Bərdədən almağı təhti-qərara almışdır.

Əcəba Qazaxda buğda nə üçün yoxdur və nədəndir ki, orada taxıl Cavanşirdən bahadır?

Mövsuq [mötəbər] mənbələrdən aldığımız məlumata görə, Qazax tərəflərdə taxıl yox deyildir. Biləks [əksinə], külli taxıl vardır, fəqət bahadır.

Çünki qaçqınlar üçün taxıl yoxdur deyən əfəndilər həman yox olan taxılı bir qədər baha qiymətlə Ermənistana satırlar. Bizə məlumdur ki, o tərəflərdən külli miqdarda taxıl aparılmaqdadır. Həm də Ermənistana o qədər taxıl satılır ki, yalnız Ümuri-Xeyriyyə Nəzarəti üçün deyil, oranın öz camaatı üçün də taxıl azlıq edir və bu üzdən qiymətlər gündən-günə qalxmaqdadır.

Doğrudur, Ticarət, Sənaye və Ərzaq Nəzarəti bu işləri açır, müqəssirləri tapır, gedən malları bilir, fəqət müqəssirlərə qanunun tələb etdiyi kimi cəza verilmir.

Hökumət bu işlərə diqqət və əhəmiyyət verməli və kontrabandaçılıq müqabilinə şiddətli tədbirlər görməlidir. Bunun da kökünü kəsmək üçün mütləqa hökumət məmurlarının cilovunu yığmalı, təqsiri açılan qulluqçu və məmurları cəzasına yetirməlidir ki, başqalarına da ibrət olsun. Xəyanətkar məmur da, mütəəssifanə [təəssüflər olsun ki], çoxdur. Hətta bir dərəcəyə çatmışdır ki, Nəzarətin dəftərxanasında belə həyasızlıq dərəcəsinə çatmışdır. Məsələn, bu günlərdə Nəzarət qulluqçularından birisinin saxta icazənamə (vəsiqələr) yazıb verməkdə olduğu kəşf edilmişdir. Müqəssir tutulub məhkəməyə verilmişdir.

Böylə məmurlar cəzayi-səzasına [layiq olduqları cəzaya] çatmadıqca, bu quldurlar vətənimizin damarlarını qurudacaqlardır.

*X. İ.*

## İTALİYA HEYƏTİ RƏİSİ POLKOVNİK QABBANIN PAYTAXTIMIZA VÜRUDU

May ayının 22-də səhər saat 7-də sürət qatarı ilə İtaliya heyəti rəisi polkovnik Qabba şəhərimizə varid olmuşdur [gəlmişdir]. Vağzalda Azərbaycan əsgərlərindən fəxri qaraqol qoyulmuşdu. Polkovnikin keçəcəyi küçələrdə milli bayraqlar rəkz edilmişdi [sancılmışdı]. Azərbaycan Cümhuriyyəti namından polkovniki Xariciyyə naziri müavini Adil xan Ziyadxan cənabları təbrik eyləmişdir. Cavabında polkovnik Qabba cənabları təvəqqe eyləmişdir ki, özünə edilən ehtiramdan naşi [ötrü] Azərbaycan Hökumətinə onun səmimi təşəkkürünü yetirsin. Sonra polkovnik Azərbaycan əsgərləri qarşısından ötərək onları salamlamış və əsgərlər cavab vermişlərdir. Polkovnik Qabba əsgərlərin naçalniki polkovnik Ağalarovu qoşunların intizamından naşi təbrik eyləmişdir. Sonra polkovnik Qabba öz salon-vaqonuna daxil olub Adil xan Ziyadxanı da oraya dəvət eyləmiş və onunla müsahibədə bulunmuşdur. Bədəhu [sonra] polkovnik heyət əzaları [üzvləri] ilə avtomobilə rakibən [minərək] "Metropol" mehmanxanasına əzimət eyləmişdir [yollanmışdır].

**Məclisi-Məbusan rəisi hüzurunda**

Saat 2 tamamda heyət Azərbaycan Məclisi-Məbusan rəisi həzrətlərinin ziyarətinə gəlmişdi. Rəis əfəndi paytaxtımızda mədəni Avropa nümayəndələrini görməkdən şadlandığını qeydlə heyəti təbrik edir. Bunun cavabında heyət rəisi Qabba azərbaycanlıların mehmannəvazlığından məmnun qaldığını və təşəkkürünü bəyanla Zaqafqaziyaya, Azərbaycana ancaq qanun və nizamın müdafiəsi və qan tökülməsinin önünü almaq

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 23 may (Cümə günü) tarixli 186-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

qəsdi ilə gəldiyini bildirmiş və arzu etmişdir ki, bundan sonra gələcək olan heyətlərə də azərbaycanlılar böyləcə mehmannəvazlıq etsinlər.

Məclisi-Məbusan rəisi həzrətləri cavabi nitqlərində böylə ifadeyi-məraim etmişlərdir [məramlarını ifadə etmişlər]:

*"Türk millətinin mehmannəvazlığı qorxudan ya tamahdan olmayıb, kəndinə məxsus bir xislətdir ki, həmişə və həmıya qarşı ənsəmimülqəlb ibraz edir [səmimi qəlbdən nümayiş etdirir]. Biz azərbaycanlılar dəxi həmişə qanun, nizam və asayiş tərəfdarı olub hamı ilə sülh və müsalimətlə [əmin-amanlıqla] yaşamağı arzu edir, xüsusən qonşularımızla hüsn-münasibatda bulunmağa çalışırız. Biz Qafqaziyanı neçə qardaşa məxsus bir qonaq [imarət] kimi təsəvvür ediriz ki, burada hər qardaş öz odasını öz istədiyi kimi bəzəməklə bərabər, ümumiyyətlə qardaşcasına yaşamalıdırlar. Bunun yalnız quru sözdən ibarət olmayıb, feilən də buna çalışdığımızı isbat üçün bu qədər kifayət edər ki, bu saat heç yerdə Azərbaycan qədər asayiş, müsalimət və rifahi-hal ilə yaşamayırlar. Qabaqca ərz etdiyim kimi, biz qanun və müsalimət tərəfdarıyız. Sizlərdən də bu uğurda kömək gözləyiriz və özümüz səmimi olduğumuz üçün hamıdan da böylə səmimiyyət tələb ediriz və hər kəs eyni səmimiyyətlə bizə kömək edərsə, həmişə bizdən hüsn-qəbul və mehmannəvazlıq görər. Biz əminiz ki, mədəni Avropa bizim də arzularımızı nəzərə alar və milli amalımıza erişmək uğrunda kömək edər."*

Heyət rəisi cavab vermişdir ki, Azərbaycanda italiyalılar ancaq buna çalışırlar və bizim milli amalımıza erişməkdə İtaliyanın kömək edəcəyinə əmin ola bilərsiz.

## ERMƏNİ MƏTBUATI

* Şimali Qafqaziyadan gələnlərin rəvayətincə, "Joxovrdi dzayn", Könüllü ordunun binagüzarlığına [sərəncamına] görə Rostov-Donun təxliyəsini xəbər verir. Xəstəxanalarda olan yaralıları Kislovodska göndərirlər.

Həman qəzetə genə yazır ki, Şimalı Qafqaziyadan gələnlər deyirlər ki, Könüllü ordu komandanlığı qəzetələrdə elan buraxmışdır ki, kənardan gələnlərin Yekaterinodar şəhərinə daxil olmağı mən'dir [qadağandır]. Rəvayətə görə, həman elanın şəhəri təxliyə etmək binagüzarlığı ilə rabitəsi vardır.

* Ermənistan istiqlaliyyətinin ilk səneyi-dövriyyəsi [ildönümü] münasibətilə hökumət qərar vermişdir ki, mayın 28-ci günü məmləkətin bütün dairəsində mütəntən [təntənəli] bir surətdə bayram edilsin. Bayramın proqramını tərtib etmək üçün vəzir Qaragözyanın təhti-sədarəti ilə [başçılığı altında] xüsusi bir komissiya təşkil edilmişdir.

* İngilis məlumatına məbni olaraq [istinad edərək] "Aşxatavor" xəbər verir ki, İstanbulda Tələt paşa təzədən həbs edilmişdir.

* İtaliya qəzetəsi "K."nın yazdığına istinadla "Aşxatavor" yazır:

*"Aşkar olur ki, Şərqdə Düvəli-etilafiyyənin [Antanta dövlətlərinin] fəaliyyətinin əsası müəyyən edilmişdir. Suriya, Dəməşq, Hələb və İsgəndərun üçün Millətlər İttifaqı tərəfindən Fransaya bir etimadnamə veriləcəkdir. O cür etimadnamə də Ermənistan üçün Amerikaya veriləcəkdir. Əmir Faysalın Beyrut tərəfinə hərəkəti xüsusunda razılıq hüsula gəlmişdir. Amerika komissarı Franinin ayın 28-də rautu [təntənəli qəbulu] təyin edilmişdir."*

* "Caqatamart" qəzetəsi rəsmi mənbədən aldığı məlumata nəzərən xəbər verir:

*"Amerika hökuməti kəndisinə təklif edilmiş Ermənistan etimadnaməsini qəbul etmişdir. Bu qərardad Parisdə intişar edilmişdir [yayılmışdır]."*

* "Aref"in xüsusi müxbiri Tehrandan xəbər verir ki:

*"Naxçıvandan İrana qaçqın sayaqda köçmüş müsəlmanlar tərəfindən teleqrafən İran hökumətinə, qeyri hökumətlər səfirlərinə və Sülh Konfransına müraciət edilib, Naxçıvan həvalisinin İrana ilhaqını [birləşdirilməsini] təklif edirlər. Naxçıvanlılar xeyli mükəddər [qəmgin] olub, onu böyük bir xəyanət ədd [hesab] edirlər."*

** "Şərur və Naxçıvan dairələrində türk müşəvviqlərinin [təşviqatçılarının] fəaliyyətinə xitam verib, Novo-Bayazid nahiyəsində müsəlmanların binizamlıqlarını rəf etmək [aradan qaldırmaq] məqsədi ilə İngilis Komandanlığının binagüzarlığı [sərəncamı] ilə həman yerlərə ingilis qoşun dəstələri sövq edirlər. Müsəlman dəstələrini ingilislər tərksilah edirlər. Bu günlərdə ingilis və erməni qoşunları Culfanı işğal edəcəklər."*

*"Aref"*

** "Van türkləri Türkiyə vəziri-daxil[iyy]əsinə [Daxili İşlər nazirinə] göndərdikləri teleqramlarında yazırlar: Erməni hüdudunu Van gölünün kənarınadək çəkmək istəyirlər. Böylə iş mümkünmüdür? Bu, ədalətdən kənar olar, zira həman yerin erməniləri müsəlmanların ədədinə nisbətən ancaq yüzə on miqdarında olarlar. Van müsəlmanları heç bir vəchlə Türkiyədən ayrılmaq istəməyirlər."*

*"Aref"*

* "Tan" qəzetəsindən iqtibasən "Aref" yazır:

*"«Pro Armenia» qəzetəsinin sabiq müdiri Pyer Kiyyar Şərq məsələsinə dair irad etdiyi [söylədiyi] nitqində demişdir: Şərq məsələsinin yeganə təriqi-həlli [həll yolu] Osmanlının mövcudiyyətini qət etməkdir [varlığına son verməkdir]. 1915 sənədə İngiltərə, Fransa və Rusiya arasında əqd edilmiş [bağlanmış] müqavilə ilə Türkiyənin təqsimi müqərrər olunmuşdur [bölünməsi qərarlaşdırılmışdır]. Lakin ələn [hazırkı] siyasətin cərəyanından naşi [ötrü] Türkiyənin aradan götürülməsi[nə] bu səyaq əncam bulunsun:*

*1) İstanbul və boğazlar beynəlmiləlləşsin;*

*2) Kiçik Asiyanın qərbi hissəsi İzmir ilə belə [İzmirlə birgə] Yunanıstana verilsin;*

*3) Hazırkı Türkiyənin mərkəzi olan Kiçik Asiyanın vəsətində [ortasında] yeni bir türk hökuməti təşkil edilsin;*

*4) Əhalisi erməni və kürd olan Kiçik Asiyanın şərqi hissəsində erməni hökuməti təşkil edilib Cəmahiri-Müttəhidəyə [Birləşmiş Ştatlara] tapşırılsın;*

*5) Tavr dağlarının cənubunda olan bütün islam vilayətləri – Suriya, Beynənnəhreyn, Fələstin və Ərəbistan İngiltərə təhtihimayəsinə [himayəsi altına] verilsin."*

## BAKI XƏBƏRLƏRİ

**Tacirlərin şikayəti**

Bu gün Bakıda və mədənlərdə yaşayan tənbəki və papiros alış-verişçiləri min nəfərdən ziyadə, Mirzəbekyans tənbəki və papiros fabrikasına gedib, fəqət Mirzəbekyansın dövlətindən məəttəssüf [təəssüf ki], hamısı məlul və dilgir, labüd qalıb [məcbur olaraq] Ticarət və Ərzaq Vəzarətinə [Nazirliyinə] rücu [müraciət] etmişdirlər və öz ərizələrində bu neçə ayın müddətində farbikada nə qədər gizli mal satılması və nə qayda ilə Mirzəbekyansın mallarının qiymətindən artıq satılmağı və fəhlələr nümayəndəsi və fabrika müdiri və cənab Mirzəbekyansın özü ilə əlbir olub mallara növbənöv vasitələrlə tərəqqi verməsini [qaldırmasını] göstərirlər. Əlavəbərin [bundan əlavə], neçə aydan bəri alış-verişçilərə edilən əziyyətin və biinsaflığın qabağın almaq üçün vəzirdən xahiş edirlər ki, fabrikanın içində və kənarda olan möhtəkirləri göstərib, onları məhkəməyə versinlər.

Ərizəni imza edənlər:

1) Bakı Baqqallarının Komitəsi;

2) Bakı optovoyçuların [toptançıların] komitələri;

3) Bakı Baqqalları Sayuzu [İttifaqı] müdiri.

**Ümumi iclas**

Cümə günü may ayının 16-da "İttihad" məktəbində Cəmiyyəti-Maarifi-İraniyan [İranlılar Maarif Cəmiyyəti] "Tərəqqi"nin müvəqqəti idarəsi tərəfindən ümumi iclas çağırılmışdı. Saat 10-da üzvlərin əksəri hazır olur. Ümumiyyətlə, Hacı Müəllim sədr, [Mircəfər] Cavadzadə münşi [katib] intixab edilir [seçilir].

1) Müvəqqəti heyətin tərtib etdiyi məramnamə müxtəsər təbəddülatdan [dəyişiklikdən] sonra qəbul olunur.

2) 15 nəfərdən ibarət idarə heyəti, 4 nəfər təftiş komissiyası əzası [üzvü] intixab olunub, saat 1-də iclas qapanır.

**Məclisi-Məbusanda**

Dün mayısın 22-də Məclisi-Məbusanın növbəti iclası təyin edilmişdi. Fəqət lazım olan miqdarda əza [üzv] gəlmədiyindən iclas baş tutmadı.

**Dağıstan günü**

"Dağıstan günü" toplanmış ianənin miqdarı iki yüz min (200.000) rubləyə baliğdir [çatır]. Bu günlərdə müfəssəl hesab dərc edilib, cəbələrin [ianə qutularının] nömrəsi və içində olan məbləğin miqdarı həm göstəriləcəkdir.

**Fəhlə həyatı**

May ayının 16-da Bibiheybətdə "Sovet Syezd"in ambulatoriyasında müsəlman əmələlərinin iclası olub, Naxçıvanın ermənilərə verilməsi məsələsinə özlərinin narazılıqlarını izharla protesto etmişlərdir.

İkinci[si], kollektivni doqovorun [kollektiv müqavilənin] hansı maddələrinin hökumət tərəfindən qəbul edilməsini hökumətin qəzetələrdə bəyan etməsini hökumətdən istəməyi qərara almışlardır.

**Ziyalılar İttifaqında**

*12 mayıs iclası*

İclas açıldıqda 5 mayıs tarixli iclasın bəratülqövlü [protokolu] oxunub imza edilir. Əxzi-əsgər [Hərbi çağırış] idarəsinə dair maddə oxunduqda, validən gəlmiş 10 mayıs tarixli bir kağız oxundu. Bu təzkirədə vali idarədən üç üzv istəyir ki, Əxzi-əsgər idarəsində işləyəcəklər. Bu təzkirə oxunduqdan sonra idarə qərar qoydu ki:

a) Keçmiş iclasda qərara alınmış müraciətnamə daha çapa verilməsin;

b) Əxzi-əsgər idarəsində işləməyə Camo bəy Cəbrayılbəyov, Abdulla bəy Abaşidze və Sadıq Hüseynzadə intixab edildilər və bu xüsusda onlara vəsiqə verilsin; və:

c) Bunların intixabı haqqında valiyə bir məşruhə [izahat] yazılsın.

Günlük məramnaməyə keçildikdən əqdəm [qabaq] Sadıq əfəndi [Hsüeynzadə] fövqəladə bir ərizəsi var deyə söz aldı:

*"Şimali Qafqaziyadan gələn xüsusi xəbərlərdən böylə anlaşılır ki, könüllü rus ordusu dağıstanlılarla müharibə etməkdədir və gün-gündən hücumunu artırıb, əhaliyə çox ziyan verib, kəndlərdə təxribat icra etməkdədir. Dağıstanlıların qüvvələri az olduğu üçün bunlara müqabil durmayırlar. Bu qara fikirli ordu olar ki, dağıstanlıların istiqlaliyyətinə təcavüz edən kimi Dağıstanı yarıb Azərbaycan istiqlaliyyətinə də təcavüz etsin. Bu halı Azərbaycan diqqətdə tutmalıdır."*

İdarə qərar qoydu ki, bu xüsusda heyəti-rəyasət bir layihə hazırlayıb idarəyə təqdim etsin.

Bədəhu [sonra] bu tərtiblə növbədəki məsələlər müzakirə edildilər:

1) Hilali-Əhmər [Qırmızı Aypara] Cəmiyyəti təşkili;

2) Ümumi iclas dəvəti;

3) Bez məsələsi;

4) Lənkəranda istixbar [xəbərləşmə];

5) Tətili-ümumi haqqında;

6) Maarif nazirinin və Nəzarətdəki məmurların istefası haqqında;

7) Mərkəzi Evlər Komitəsindən gəlmiş təzkirə;

8) Şamaxı mühacirlərindən əsgər toplamaq xüsusunda;

9) Əhməd bəy Ağayev haqqında.

Birinci məsələ müzakirəyə qoyulduqda, [Heydər bəy] Şahtaxtinski cənabları keçmiş iclasda dediyi kimi, Azərbaycanda bir Hilali-Əhmər Cəmiyyəti təşkil etmək çün lazım olduğu haqqında bəyanat verdi və idarə qərar qoydu ki, səhiyyə heyətinə tapşırılsın ki, bu xüsusda gələn iclasa bir layihə təqdim etsin. Hazırda olan səhiyyə heyətinin sədri doktor [Əliheydər] Allahverdizadə nam məlum etdi ki, heyətə intixab olmuş üzvlər nə iclasa gəlirlər və nə də işə mübaşir olurlar [işə girişirlər]. İş də həpsi kəndisi ilə katibin boynuna düşübdür. Bu səbəbə idarə qərar qoydu ki, səhiyyə heyətinə doktor Ordubadi Firuz daxil olsun. Bundan əlavə, Hilali-Əhmər işinə mübaşir olmaq üçün Kalantarov və [Heydər bəy] Şahtaxtlı daxil olsunlar.

Ümumi iclas dəvəti xüsusunda bir çox danışıq oldu. İdarə qərar qoydu ki, işbu mayıs ayının 30-da axşam saat 6-da Ziyalılar İttifaqının ümumi iclası dəvət edilsin və heyətlər həpsi ümumi iclasa təqdim edilmək üzrə layihələrini hazır edib, cümə günü mayıs ayının 23-də idarənin fövqəladə iclası çağırılsın.

Tağıyevin fabrikasından əsgər üçün bez buraxılmaq məsələsi müzakirə edildi və bu işlərə şimdi artıq İdareyi-Hərbiyyə ləvazim məmuru baxdıqlarından, bu məsələ müzakirədən götürülsün.

Teymur bəy [Bayraməlibəyov] Lənkəran qəzasından xəbər olaraq məlumat verdi ki, şəhər düşmən tərəfindən odlanmışdır və hal-hazırda yanır. Bu xəbərin doğru olmasını Lənkərana getmiş vaporların [gəmilərin] bu zamana kimi qayıtmaması da isbat edir. Çox ehtimal var ki, doğrudan Lənkəran yanır. İdarə Teymur bəyin bu məlumatını nəzərə alsın.

Fəhlələr tərəfindən elan edilmiş tətili-ümumi hər ittifaqın fikrin[i] cəlb edərək fövqəladə bir surətdə müzakirəyə qoyulmuşdur. Ziyalılar İttifaqı bu növ ciddi məsələni nəzərə alaraq, nə səbəbə bu xüsusda bir müzakirə açmamışdır, deyə Zivər bəy idarəyə sorğu verdi. İdarə bu xüsusda müzakirə açmamanı kəndisinin xətası bilib atidəki [aşağıdakı] qərarı aldı: Tətilin zahirən iqtisadi, batinən [daxilən] və həqiqətən siyasi olduğunu nəzərdə tutub Ziyalılar İttifaqı iqrar edir [təsdiqləyir] ki, istiqlaliyyətimizi mühafizət etmək üçün var qüvvəsi ilə Parlamana və hökumətə kömək etməyə hazırdır. Bu məsələdə Cəmil bəy Vəzirov xüsusi təsəvvüründə qaldı.

Yerdə qalan məsələlərin müzakirəsi təcil edildi [sonraya saxlanıldı].

*14 mayıs iclası*

1) Maarif Nəzarəti haqqında;

2) Mərkəzi Evlər Komitəsindən gəlmiş təzkirə;

3) Mühacirlərdən əsgər toplamaq haqqında;

4) Əhməd bəy Ağayev haqqında.

Əvvəlinci məsələ müzakirəyə qoyulduqda, Səməd bəy [Hacıəlizadə] söz alaraq Maarif nazirinin və Nəzarətdə xidmət edən baş məmurların yenidən iş başına qayıtmaları maarif işi üçün ziyadə faydalı olacağını qeydlə, bu səbəbə idarəyə bir təşəbbüsatda bulunmağı tövsiyə edir. Maarif nazirinin və Nəzarətdəki məmurların istefa vermələrinin səbəbini müzakirəyə qoymayaraq, böylə bir vaxtda həqiqi ziyalı və öz vəzifələrini sevən şəxslərin hökumət xidmətindən kəndilərini kənar etmələri maarif işi üçün eyi nəticə verməyəcəyini və bu işin təbii olmadığını nəzərdə tutub idarə qərar qoydu ki, Məclisi-Məbusan fraksiyonlarına müraciətlə rica olunsun ki, bu ixtilafın tez bərtərəf edilməsi [aradan qaldırılması] üçün lazım olan təşəbbüsatda bulunsun. Fraksiyonlara məsələni məlum etmək üçün Ağa Axundzadə və Səməd bəy Hacıəlizadə cənabları nümayəndə seçildilər.

Mərkəzi Evlər Komitəsindən gəlmiş kağız Camo bəy [Cəbrayılzadə] tərəfindən oxundu. Bu təzkirədə Komitə Bakı ətrafındakı kəndlərdə evlər komitəsi təşkil etmək fikrində olduğunu və bu məqsədlə bir iclas qurulacağını bildirərək, idarədən bu iclasa üç nümayəndə istəyir. Həman iclasa getmək üçün idarə Əli bəy Seyidzadə, Rəhim əfəndi və Camo bəy Cəbrayılbəyzadəni intixab etdi [seçdi].

Üçüncü məsələ müzakirəyə qoyulduqda, Şamaxı mühacirlərindən əsgər toplamaq məsələsini təklif etmiş Abbasqulu Vəlixanlı ərz etdi ki, bu məsələ Yeni Şirvan Cəmiyyətində həll olundu və burada yenidən müzakirəyə qoyulmağının lüzumu yoxdur, söylədi.

Əhməd bəy Ağayev haqqındakı məsələ gələn iclasa qaldı ki, o iclasda [Heydər bəy] Şahtaxtinski cənabları izahat verər və məsələ sonra müzakirəyə qoyular.

İclasın axırında doktor Əli bəy söylədi ki, yay fəsli yavuqlaşdığı münasibətilə xaraba qalmış kəndlər əhalisinin ziraət karastılarına [əkinçilik alətlərinə] və makinalarına çox ehtiyacları vardır. Hərgah pişəzvəqt [gec olmadan] onlara yardım edilməzsə, taxıl və ot, vaxtında biçilməyib tələf ola bilər. Bu səbəbə, lazımdır ki, Ticarət Nəzarətindən onlar üçün kömək istənilsin ta ki, Nəzarət öz ixtiyarında olan makinalardan İttifaq əli ilə camaata paylasın. İdarə Əli bəyi vəkil etdi ki, bu xüsusda Ticarət naziri ilə görüşüb cavab alsın.

**Bakı kəndlərindən**

Biz kənd füqərayi-kasibəsi ki, ziraət [əkinçilik] və bostançılıqla dolanırıq, neçə illərdən bəri kəndimizin qoyunçuları tərəfindən – ki, qoluçomaq və zənginlərdən ibarətdirlər – külli zərərlərə mütəhəmmil olurduq [dözürdük] və heç bir vəchlə onların zülmündən qurtulmağa yol tapa bilmirdik. Hərgah istəsəydik ki, şikayətnamə yazıb öz halımızı məqamialilərə bildirib istimdad edək [kömək istəyək], o zalımların təsiri-nüfuzu mane olurdu və həmçinin şifahi şikayətlərimiz onların ənvai [müxtəlif] təşəbbüsləri ilə bisərəncam qalırdı. Əlhəmdülillah, bu halda cavan cümhuriyyətimizin zübdə [seçmə, ən yaxşı] məmurlarından, tabe olduğumuz Balaxana-Sabunçu polis baş müdiriyyətinin müdiri Lütfəli bəy Əmircanov cənabları şikayətimizə görə bu il təhti-idarəsində [tabeçiliyində] bulunan məmurlara vermiş olduğu əvamiri-əkidəsi [qəti əmrləri] ilə zalımların zülmünün qabağını kəsdikdən başqa, bu günlərdə öz idarəsində bulunan kəndləri gəzməyə çıxıb, qəryəmizi [kəndimizi] dəxi müşərrəf eylədikdə, biz füqərayi-kasibənin dərdlərimizə rəsidəlik eyləyib [çatıb, dərdimizlə tanış olub], ümdə dərdlərimiz ki, qoyunçular barəsində idi, sabiqən [keçmişdə] verdikləri əmrləri şifahən biltəkid [təkidlə] ehqaqi-haqq eyləyib [hər kəsə öz haqqını verib, ədaləti təmin edib], ziraət, bostan və bağçalarımızı öz qoyunları ilə tələf edənlərdən zərərlərimizin iki qatı alınması xüsusunda binagüzarlıq [sərəncam] eylədiklərindən, cavan hökumətimizin ədalətli məmurlarının sayəsində minbəd [bundan sonra] asudə yaşayıb, qoluçomaq və qoçuların zülmündən xilas olacağımızı yəqin etdik.

Bundan başqa, özümüz kəndli və avam olsaq da, bunu yaxşı başa düşmüşdük ki, zəmanə öylə bir zəmanədir ki, elmsiz şəxs dünyada yaşaya bilməyib, elm sahiblərinin qarşısında məhv və nabud [yox] olacaqdır. Müşarünileyh [haqqında danışılan] Lütfəli bəy cənabları öz müşfiqanə [şəfqətli] nəsihətləri ilə bizi elm və maarifə tərğib və təhris etməklə [rəğbətləndirməklə və həvəsləndirməklə], uşaqlarımızı oxutmağını tövsiyə edib və qubernatorumuz həzrətlərinə bu xüsusda bəyanatda bulunub, asan vəchlə bizim gələcək nəslimizin cəhalət pəncəsinə düşməyib elmlə işıqlanmaları xüsusunda səy edəcəklərini və'd buyurub və bizi ümidvar etdilər.

Əsgərlik vəzifeyi-vacibəsi haqqında da bizi bu qədər başa saldılar ki, əsgər demək odur ki, bir şəxs öz sinəsini hasar etməklə əziz vətənini düşməndən saxlayıb və millətinin əğyara qul olmayıb hürr və azad yaşamağına çalışsın və bu vəzifeyi-müqəddəsədən boyun qaçıranlar ancaq o kimsənələr ola bilərlər ki, öz irz-namuslarının qeydinə qalmasınlar.

Lütfəli bəy cənabları bu gəzdiklərində kəndçilər barəsində etdikləri bir çox qeydkeşlik cümləsindən biri də bu oldu ki, çox vaxtlardan bəri kəndlərimizdə mütədavil [işlənən, adət olan] qəbih [pis] bir adəti, yəni toy məclislərinə əcnəbiyyə [əcnəbi qadın], əxlaqsız əcnəbiyyələr dəvət edib, onları oynadıb, cavanlarımızın əxlaqını pozdurduqdan başqa, ailələrimizi də heç bir vəchlə islamlıq və türklük şanına layiq olmayan bir rəzalətə şahid edirdik; kəndlilərdən bu nalayiq adəti tərk etməyə söz alıb və bu gunə [bu cür] xilafi-islamiyyət hərəkətin minbəd [bundan sonra] camaatlar tərəfindən qadağan olunması xüsusunda qəryəmiz [kəndimiz] və sair cümlə kəndlərdə məsləhətnamələr tərtib etməyə tövsiyədə bulundular. Bu gunə millət və camaat işlərinin qeydkeşi olan bir "hakim"ə təşəkkürati-acizanəmizi ərz etməklə, əmsalının [onun kimilərin] cümhuriyyətimiz daxilində çox olmasını arzu edib, yaşasın özümüzün cavan cümhuriyyətimiz, sağ olsun, var olsun onun millət qeydkeşi hakim və məmurları, yox olsun onun xain qulluqçuları deməklə xətmi-kəlam edirik.

*Kəndçilər*

## AZƏRBAYCANDA

**Kürdəmirdən**

Zaman və təcrübə bunu bizə göstərdi ki, dünyada yaşamaq, qəsb olunmuş haqq və hüququnu əldə etmək istəyən millət daima bəsirət üzrə çalışıb, həyata və dünya işlərinə müstəid [qabiliyyətli, istedadlı] olmalıdır. Əvət, səy vasitəsi ilə insan qalibən [əksər halda] arzusuna nail olar. Kiçik isə böyüyər, məhkum isə azad və sərbəst yaşar. İştə bu nöqteyi-nəzərdən Cənabi-haqqın biz Azəri türklərinə nəsib etdiyi azadəlik evinin qədrini bilib, cavan cümhuriyyətimizin təməlini möhkəmlətmək və bunun tərəqqi və təalisinə [ucalmasına] yorulmaz bir fədakarlıqla kömək etmək ən müqəddəs bir vəzifə, ədası [qaytarılması] vacib bir borcumuzdur. Çünki bir ağacın davam və səbatı onun köklərinin bütün və sağlam olmağına vabəstə [bağlı] olduğu kimi, cümhuriyyətimizin də parlaq[lığı] və sətvəti [qüdrəti], millətimizin doğru və dürüstlüklə üzərinə tərəttüb edən [üzərinə düşən] vəzifəni kamalınca ifaya bağlıdır. Binaənileyh [ona görə], bunu düşünməli, düşünüb də ifasına mübaşirət etməli [girişmək lazımdır]. Lakin nədənsə yenə biz keçmiş macəralar[d]a düçar olduğumuz bədbəxtliklərdən ibrət almayıb, sabiqki [əvvəlki] işlərimizdə davam ediriz. Fikrimiz ancaq kəndi mənfəəti-şəxsiyyəmizə münhəsir [həsr edilmiş] olur.

Əvət, pul, dövlət gözəl şeydir. Məmafih [bununla belə], dövlət və sərvətimizi mühafizə edən, əmin-amanlığımıza çalışan dövlətimiz və cümhuriyyətimiz üçün dəxi çalışmalıyız. Əks surətdə varlığımızı, qazandığımızı qeyb edəriz.

Şimdiki halda cümhuriyyətimizin əksər yolunda qaçqın və fəlakətzədələr bulunmaqdadırlar. Şübhə yoxdur ki, hökumətimiz bunlara beqədri-imkan [gücü çatdığı qədər] yardım edir və edəcək də. Fəqət hökumət yardım edir deyə əlimizə bəhanə düşüb kənardan tamaşaçı olmamalıyız. Bu xüsusda biz də müavinətdə bulunub hümmət əlimizi müzayiqə etməyəcəyimizi [əsirgəməyəcəyimizi] bildirmək üçün bir qaçqın cəmiyyəti tərtib etməliyiz ki, bu yol ilə bizim də fəqirlərə, öksüzlərə, əlil və şikəstlərə köməyimiz dəysin.

Zənn edirəm bizim Kürdəmir ziyalıları keçənə güzəşt deyib bundan böylə işləyəcəklər. Haydı, qardaşlar, siz də varlığınızı bildiriniz!

*Əlif Əlif*

**Lənkərandan**

Lənkəranın əhvalı gün-gündən get-gedə fənalaşır. Bir gecə yoxdur ki, adam tələfatı, ya mal qarəti olmasın. Neçə vaxt bundan qabaq Seyidəkəran kəndində hər gecə qətl və qarət var idi. Üç kişi, bir arvadı xaxollar öldürdülər və pullarını apardılar. İndi iki gündür ki, bu bəla Gərmətük şəhərinə sirayət edibdir.

Aprel ayının 25-də Gərmətük kəndində gecə vaxtı Hacı Məhəmməd adlı bir şəxsin evinə tökülüb, bir cavan oğlunu öldürüb, 7 min manat pulunu alıb və qiymətli şeylərini də aparıblar. Xaxollar ermənilərlə bərabər türk dili danışırmışlar və hər bir yerdə və kənddə varlı və çörəkli adamlar var isə qarət edirlər.

Bir həftədən artıq Lənkəranda elə şiddətlə soyhasoy və öldür ha öldürdür ki, çünki Denikin tərəfdarları ilə bolşeviklər dava edirlər. Axırda bolşeviklər qələbə edib Suxorukovun başçılığı ilə 15 zabit həbs ediblər. Şəhərdə tamam başsızlıq hökmfərmadır [hökm sürməkdədir].

Aprelin 28-ci gecəsi lənkəranlı məşhur Məşhədi İbad Şəfiyevin evi xaxollar tərəfindən qarət olub, 50 min manat nağd pul və çoxlu ev əşyasını aparıblar.

*Lənkəranlı*

**Şamaxılıların şikayəti**

Şamaxı camaatı Bakı qubernatoruna ərizə ilə məlum etmişdir ki, Şamaxı qaçqınlarına yardım etməkdən ötrü külli miqdarda məbləğ təxsis edilib [ayrılıb], onu təqsim etmək [bölmək] isə vəkil Əli-əkbər Axundova həvalə olunmuşdu. Həman məbləği Axundov bu vaxta qədər onlara təqsim etməyib və pulun nərədə olduğunu dəxi bildirməmişdir. Buna binaən [buna əsasən], Şamaxı əhalisi qubernatordan tezliklə həman məbləğin Axundovdan alınıb onlara verilməsini rica etmişdir.

**Yüzbaşı və pristavdan şikayət**

Quba qəzası Şahnəzərli kəndi camaatı Bakı qubernatoruna müraciətən, məzkur [deyilən] kəndin yüzbaşısı Övsət Əliyev və pristav Rəsul Vəliyevin onlara artıq dərəcə zülüm və əziyyət etdiklərini göstərərək şikayət və onların yerinə başqa şəxslər təyin edilməsini rica edirlər.

## GÜRCÜSTANDA

**Dəmiryol münasibatı**

Vladiqafqaz dəmiryolunun cənubi hissəsi naçalniki mühəndis Qerman Petrovsk-Bakı təriqi [yolu] ilə Tiflisə varid olmuşdur [getmişdir]. Buna həvalə edilmişdir ki, bütün Vladiqafqaz dəmiryolu boyu doğru və müstəqim sərnişin və yük hərəkatı bərpası üçün Zaqafqaziya cümhuriyyətləri ilə müzakiratda bulunsun. Mühəndis Qermanın dediyinə görə, Rostovdan Vladiqafqaza qədər Könüllü ordu olan yerdə müntəzəm bir surətdə dəmiryol hərəkatı vardır. Qudermeslə Qroznı arasında yolun bir para yerləri yıxılmışdır. Burada yolun təmir edilməsi üçün mühəndis Qerman Dağıstan Hökuməti ilə müzakiratda bulunacaqdır.

**Romaniya heyətinin vürudu**

Romaniya heyəti Tiflisə varid olacaqdır [gələcəkdir]. Bu günlərdə yunan heyətinin də vürudu [gəlişi] gözlənir.

**General Milnin əziməti**

General Miln mayın 18-də gündüz saat 3-də sürət qatarı ilə Tiflisdən Qarsa, Sarıqamışa əzimət etmişdir [yola düşmüşdür].

**Denikin ordusunun Abxaziyanı təmizləməsi**

Denikin ordusunun Abxaziyanı təmizləməsi haqqında böylə təfsilat verilir: Hücuma keçən gürcü əsgərləri ancaq "Yaşıllar" tərəfindən müavinət görmüşlərdir. "Yaşıl" deyilənlər Könüllü ordunun təcavüzkaranə istehzari-əsgəriyyəsindən [əsgər yığmasından] silahları ilə bərabər dağlara, meşələrə qaçıb gedən kəndlilərdən ibarət partizan dəstələridir ki, təşkilat yapıb Könüllü ordunu narahat etməkdədirlər. Könüllü ordu hərəkət edən kimi onlar qaçan düşməni dağlardan və meşələrdən vurmağa başlayıb, Könüllü ordu dəstələri arasında həyəcan qaldırmışlardır. Könüllü ordu dəstələri Abxaziyanı təmizləyib, Gürcüstanı hələ tərk etməmişlərdir. Buna görə Suxum Həmkarlar İttifaqı Şurası fəhlələrə və həmkarlar təşkilatına təklif etmişdir ki, silah əldə inqilab fütuhatını [nailiyyətlərini] Denikin irticasından mühafizə etməlidir.

**Xariciyyə Nəzarətində raut**

Mayın 16-da Gürcüstan Xariciyyə Nəzarətində raut [ziyafət, təntənəli qəbul] olmuşdur. Bu rauta Tiflisdə olan hamı əcnəbi heyət nümayəndələri dəvət edilmişdir. Rautda 85 adam isbati-vücud [iştirak] etmişdir. Xariciyyə naziri Y. P. Gegeçkori birinci olaraq fransız lisanında böylə bir nitq irad etmişdir:

"Həzərat! Mənə müsaidə veriniz, Gürcüstan Hökuməti namından bura cəm olan hökumətlər və millətlər nümayəndələrini təbrik edəyim. Mən dərin bir ümid bəsləyirəm ki, axırda millətlərin təyini-müqəddərat hüququ əsasına müvafiq Qafqaziya millətlərinin hər birinin özü üçün müstəqil hökumət bərpa etmək arzusu Avropanın müəzzəm [böyük] millətlərinin hüsn-təvəccöhünə məzhər olar. Bəli, mən ümidvar oluram ki, Qafqaziya millətlərinin müttəhid [birgə] qüvvələri ilə Avropa sıxı münasibat vücuda gətirmək üçün öz müqəddəs amalımızın vücuda gəlməsinə müvəffəq olaq və bununla da Avropanın ali mədəniyyətinə yanaşaq. Yaşasın, nümayəndələri burada bizim qonağımız olan müəzzəm millətlər!"

Sonra İtaliya heyəti sədri polkovnik Qabba, Ermənistan Xariciyyə naziri [Sirakan] Tiqranyan, Azərbaycan Xariciyyə naziri M. Y. Cəfərov, Dağıstanlılar İttifaqı nümayəndəsi Əlixan Kantemir, Gürcüstan Məclisi-Müəssisanı üzvü Kedia və qeyriləri nitqlər söyləmişlərdir. Banket xeyli ruhlu keçib qonaqlar gecə saat 3-də çıxıb getmişlər.

## ERMƏNİSTANDA

*(Erməni qəzetələrindən)*

\- "Caqatamart" qəzetəsi rəsmi mənbədən məlumat almışdır ki, Amerika Hökuməti ona təklif edilən Ermənistan mandatını qəbul etmişdir. Amerikanın bu qərarı Parisdə elan edilmişdir.

\- Qafqaziyadan İstanbula övdət edən [qayıdan] bir erməni zabiti "Aşxatavor" qəzetəsinin müxbiri ilə müsahibə əsnasında demişdir ki, Ermənistan Hökuməti qəti və müəyyən surətdə bərpa, rəsmi surətdə təsdiq edildikdən sonra Ermənistan dəmiryolları üçün amerikalılar parovoz və vaqon göndərəcəklər.

\- Hindistan erməniləri böyük mitinqlər tərtib verib çıxardıqları qətnamələrində Ermənistan istiqlaliyyətini tələb edirlər.

\- Bolqariya erməniləri ermənilərin dübarə Ermənistana köçürülmələrinə müavinət olmaqdan ötrü yarım milyon frank para təxsis etmişlərdir.

\- Parisdən "Aşxatavor" qəzetəsinə verilən xəbərlərə görə, Lloyd Corc böylə zənn edir ki, zamani ki [madam ki], Konfransda xırda millətlərin nümayəndəsi olmağa imkan verilir, o vaxt müəzzəm [böyük] dövlətlərinin nim-rəsmi [yarırəsmi] surətdə də olsa onları dinləmələri lazım gəlir. Rəisicümhur Vilson xırda millətlərin xüsusi konfrans təşkil etmələri əleyhinədir. Zənn edildiyinə görə, bu millətlərə imkan veriləcəkdir ki, aşkara surətdə öz tələbatlarını elan edib Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] təqdim etməkdən ötrü müfəssəl surətdə öz məramnamələrini hazırlasınlar.

## İZHARİ-TƏŞƏKKÜR

**- 1 -**

"Azərbaycan" qəzetəsinin möhtərəm müdirindən rica edirik ki, bizim iki kəlmə təşəkküratımızı qəzetə sütunlarında dərc buyursunlar.

Bakıda məşhur ehsan sahibi cənabi-möhtərəm Hacı Zeynalabdin Tağıyev həzrətləri bizim Şağan füqəralarından ötrü üç min manat mərhəmət buyurubdur. Biz Şağan qəryəsinin [kəndinin] camaatı öz təşəkküratımızı səmimi-qəlbdən Hacı cənablarına izhar edirik və Allah-taaladan Hacı cənablarına uzun ömür istida edirik [arzulayırıq].

*Şağan qəryəsinin*
*İanə Cəmiyyətinin sədri:*
*Cəfərqulu bəy Məhəmmədbəyov*

**- 2 -**

Möhtərəm müdir əfəndim, rica edirəm mübarək qəzetənizin bir guşəsində bu kəlmələrə yer verəsiniz.

Mən Şuşa qəzası, Malıbəyli kəndindən olduğum halda Gəncə şəhərinə gəldim. Orada "Toyuqçu Əkbəriyyə" məktəbinin müdiri Hüseynzadə cənabları məni məktəbə qəbul etdi. Maddi tərəfim olmadığına görə, halımı Gəncə Cəmiyyəti-Xeyriyyə sədri cənablarına bəyan etdim. Bəndəyə bir dəst əla əlbisə aldıqdan sonra hər ay yüz manat maaş qət etdilər [maaş kəsdilər]. O cəmiyyətə və o cəmiyyətin sədri cənablarına təşəkkürümü bəyan edirəm.

*"Toyuqçu Əkbəriyyə"*
*məktəbinin mütəallimi [şagirdi] Nüsrət Firidunzadə*


**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-132*

**Satılır**

Balaxanski və Budaqovski küçələrin küncündə dükan satılır. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski Birinci Kantepinski küçələrin küncündə nömrə 176. Dükançı Movsesdən xəbər almaq olar.

*8788*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrovı küçələrin küncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

*8779*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Diş həkimi**
**M. B. Şternin**

Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə. Süni dişlər qayırır. Qızıl ənglər və damaqlar qayırır. Dişləri ağrısız çəkir.

*8757*

Doktor M. M. Kərimov göz naxoşlarını və diş həkimi A. Əmirov naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*


**Elan**

Ticarət, Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, Nəzarət tərəfindən Hidayət Səlimova 20 fevralda verilmiş 996 nömrəli kontrolluq şəhadətnaməsi ondan alınıb və bu gündən onun kontrolluq vəzifəsini ifa etməyə ixtiyarı yoxdur.

Ticarət, Sənaət, Ərzaq naziri müavini (imza)

*T-129*


**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*


**Elan**

Ticarət və Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, bu günə qədər xarici məmləkətə köhnə dəmir aparmaqdan ötrü verilmiş icazələr bir ay etibarlıdırlar. Həmin elan edilməmişdən əvvəl icazə almış olanların icazələri isə bir həftə etibarlıdırlar.

*Ticarət, Sənaət və Ərzaq naziri müavini (imza)*
*T-128*

**Maliyyə Nəzarəti elan edir ki:**

Bu son zamanlarda anlaşıldığına görə, güclü bir surətdə sərhəd xaricinə bir çox gizli mallar, xüsusilə özümüzün birinci dərəcədə ehtiyacı olan yük, ərzaq aparılır. Buna binaən [buna görə], Nəzarət kəndisinə tərəttüb edən [üzərinə düşən] vəzifənin ifası üçün pişəzvəqt [qabaqcadan] əhalini xəbərdar edir ki, Cümhuriyyət xaricinə aparılan gizli mallar tutulduğu kimi tamamilə hökumət hesabına həcz [müsadirə] ediləcəkdir. Göndərən və aparan əşxas [şəxslər] isə qanunun (1910-da müntəşir Məcəlleyi-Qanunun 6-cı hissəsi) 1054[-cü] maddələri ilə təhti-məsuliyyətə [məsuliyyət altına] alınacaqdır.

*T-125*

**Elan**

Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] İdarəsində kargüzarlıq və dəftərdarlıq (registrator) vəzifələrində istixdam [xidmətə qəbul edilmək] üçün türkcəsi kamil olmaq şərti ilə rusca dəxi bilən iki nəfər adam lazımdır. Arzu edənlər Bakıda Nijni Priyutski caddədə 66 nömrəli evdə Məşixət İdarəsinə müraciət buyursunlar.

**Elan**

Bununla camaata elan edirəm, Bakı pasport idarəsi (duptatxana) Təzəpir məscidinin [həyətində] (sabiq 8-ci ərzaq rayonu) Verxni-Təzəpir və Gimnaziçeski küçələrin küncündə olan otağa köçübdür.

*Bakı Pasport İdarəsinin duptatı Muxtar Hüseynov*
*8788*

**Elan**

Bununla ümuma elan edilir ki, Azərbaycan Hökumətinin 20 aprel 1919-cu ildəki qərardadına görə Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən xarici məmləkətlərə neft aparmağa mal mübadilə etmək şəraitilə icazə verilir. Aparılan neft və neft emalatı qiymətinin 50 faizi Nəzarətə rəhin (zaloq) təriqilə verilməlidir. Bu məbləğə Nəzarətin adına olaraq qeyri məmləkətlərdən birinci zəruri şeylər gətirilməlidir və gətirilən mallara Nəzarət bazar qiyməti ilə bütün mallara qiymət təyin edəcək və bu qiymətdən 25 faiz skonto [endirim] edəcəkdir.

Bu şəraiti əmələ gətirmək üçün 2 aylıq vaxt təyin olunur.

*Ticarət, Sənaət və Ərzaq*
*naziri müavini Əliyev*
*T-55*

**Elan**

Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] böyük və kiçiklərə məxsus karxanalar (masterskoy) təşkil etmək üçün təcrübəli inspektor [müfəttiş] lazımdır. Xahiş edənlər köhnə fəaliyyətləri kağızları ilə bərabər Nəzarətin müdirinə müraciət edə bilərlər.

*T-131*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri***

"Avam Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

"Svyatoy Pavel qəsəbəsi": hal-hazırda Hamburq şəhərinin bir rayonu olan Sant-Pauli [St. Pauli] nəzərdə tutulur.

"Spartaklar": Almaniyada fəaliyyət göstərən marksist təşkilat olan Spartak İttifaqının üzvləri nəzərdə tutulur.

***Sülh ətrafında***

"Nauen": qəzetdə təhrif edilmişdir.

"Roma papası": 1914-1922-ci illərdə Roma papası XV Benedikt [Benedictus XV] idi.

"Berlində müntəşir "Taqeblatt" qəzetəsi": 1872-1939-cu illərdə Berlində almanca nəşr olunan "Berliner taqeblatt" [Berliner Tageblatt] qəzeti nəzərdə tutulur.

***Qəzetələrdən***

"Savdep": Rusiya Deputatlar Soveti.

"Şah əfəndi": 1909-1925-ci illərdə İran şahı olan Sultan Əhməd şah Qacar.

***Nəzarətlərdə***

"3 mart ayının; 4) inqilab bayramı gününün məvacibini": qəzetdə belə getmişdir: "3) Mart ayının 12 inqilab bayrağı gününün məvacibini."

***Bir neçə söz***

"İstiqlaliyyətimiz zərfində": qəzetdə "istiqlaliyyətimiz tərəfindən" getmişdir.

***16 vaqon düyü***

"X. İ.": bu imza Xəlil İbrahimə məxsusdur.

***Erməni mətbuatı***

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

"Pro Armenia": 1900-1914-cü illərdə Parisdə fransız dilində nəşr edilmiş qəzet; erməniləri dəstəkləmək məqsədi güdürdü.

"Tavr dağları" (yaxud Toroslar): Türkiyənin cənubunda dağ silsiləsi.

"Beynənnəhreyn": (yaxud Mesopotamiya, İkiçayarası): Yaxın Şərqdə tarixi-coğrafi bölgə, Dəclə və Fərat çaylarının arasında qaldığından, bu adı almışdır.

***Bakı xəbərləri***

"Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayının rəhbər orqanı olan Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

"Bu təzkirə oxunduqdan sonra idarə qərar qoydu ki:": bu cümlədən sonrakı maddələr qəzetdə ərəb əlifbasının hərf sırasında görə əlif, bə, tə kimi işarələnmişdir.

***Azərbaycanda***

"ədası vacib bir borcumuzdur": qəzetdə belə getmişdir: "ədası vacib və borcumuzdur".

***Elan***

"Bakı pasport idarəsi (duptatxana)": Burada söhbət Bakı Meşşan İdarəsindən (Бакинская Мещанская Управа) gedir. Çarlıq dövründə şəhərlərin xırda burjuaziyası "meşşan idarələri" yaradır və öz "deputatlarını" seçirdilər.



# Mədəniyyət



●Ədəbi nümunələr



# Adiliyin içində qeyri-adilik axtarırdı



## Qələm dostları şair Sərdar Əsədi belə xatırlayırdılar

**Dövrünün ustad şairlərindən olmuş Sərdar Əsəd 1929-cu il avqust ayının 29-da Cəbrayılın Soltanlı kəndində dünyaya göz açıb. Onun atası Heydər kişi kəndli, anası Həsyə xanım təhsil görməmiş qadın olub.**

Sərdarın doğulduğu illərdə ölkədə siyasi vəziyyət, ictimai vəziyyət çox dumanlı və mürəkkəb idi. Yeni qurulmağa başlayan sovet dövləti əvvəlki cəmiyyətdə, sistemdə olanları "köhnə" hesab edərək hamısının üstündən xətt çəkir, kollektivləşmə dalğası tüğyan edirdi. İllərdən, əsrlərdən bəri formalaşmış qaydalara öyrəşmiş, adət etmiş insanlar kollektivləşməni qəbul etmir, ona qarşı müxtəlif formalarda etirazlarını bildirirdilər.

Sərdarın atası Heydər kişi də kollektivləşməni qəbul etməyənlərdən biri idi. O, yeni qurulmuş hökumətin qanunları ilə barışmayaraq qaçaqlara qoşulmuşdu. Buna görə də bolşeviklər onun ailəsini, o cümlədən balaca Sərdarı, anasını və böyük bacısını gedər-gəlməzə - Sibirə sürgün etmişdilər. Buna görə də gələcəyin böyük şairi kiçik yaşlarından sürgünlük həyatı yaşamış, əzab-əzyyətlər içində böyümüşdü. Sürgünlük həyatı Sərdarın həyata baxışında, gələcək yaradıcılığında dərin iz qoymuşdu.

Sərdar Əsəd 1955-ci ildə keçmiş APİ-nin Filologiya fakültəsini bitirmişdi. O, 1958-1963-cü illərdə "Ədəbiyyat və incəsənət" qəzetində çalışmışdı. Oxucuların heç vaxt unutmadığı, zaman-zaman xatırladığı Sərdar Əsəd ədəbiyyat aləminə 50-ci illərdə gəlmiş və yaradıcılıqları ilə ədəbiyyatımıza böyük töhfələr vermiş Əli Kərim, Qulu Xəlilov, Əlfi Qasımov, Tofiq Mütəllibov, Fikrət Sadıq nəslinin nümayəndələrindən olmuşdur. Sərdar Əsəd Məmməd Araz, Əli Kərim poeziyasının vurğunuydu. Bir-birləri ilə dostluq edirdilər, görüşürdülər. Söhbətlərinin mövzusu həmişə ədəbiyyatdan olurdu. Sevilən şair Əli Kərimin vaxtsız ölümü Sərdarı sarsıtmışdı.

50-ci illərin ortalarından bədii yaradıcılığa başlayan Sərdar Əsəd Azərbaycan ədəbiyyatına yeni mövzular, yeni formalar gətirdi. Onun yaradıcılığı, dili, üslubu, poetik sözü əzəməti və qüdrəti ilə oxucuların diqqətini cəlb edirdi. Sərdar Əsəd 40 yaşının tamamında yazdığı "Ömür keçdi yarıdan" şeirində öz həyat yolunun çətinliklərini nəzmə çəkmişdi. Yaradıcılığının lap erkən çağlarında - 1954-cü ildə qələmə aldığı "Şairin arzusu" şeirini onun poeziya yolunun proqramı da saymaq olar.

Bu günə qədər ana haqqında çox şeirlər yazılıb. Yəqin ki, hələ bu gündən sonra da yazılacaq. Sərdar Əsəd də bu mövzuda bir-birindən gözəl şeirlər yazmışdır. Şairin ana haqqında qələmə aldığı şeir başqalarından yeni nəfəsi, duyum dərinliyi, bənzərsiz ifadə tərzi ilə seçilirdi. Sanki şair sözlərlə həm özünün, həm də anasının rəsmini çəkirdi. Qəlbləri oxşayan misraları ilə oxucunun əlindən tutub öz ardınca uşaqlıq illərinə, analı günlərinə aparırdı. Şair həmişə həsrəti ilə yaşadığı uşaqlıq illərini nəzmə çəkərək yazırdı:

*Ana, nə deyirdin sən qulağıma,*
*Bəlkə söyləyirdin yaman kürəm mən,*
*Mənə deyirdin ki, qaç qucağıma,*
*Hələ də yanına yüyürürəm mən.*

Sərdar Əsədin "Gənclik illəri" adlı ilk şeir kitabı 1957-ci ildə nəşr olunmuşdu. Sonra şairin müxtəlif illərdə "Səni axtarıram" , "Yanan memar", "Cərrah ürəyi", "Simlərin tufanı", "Yer ulduzu", "Dağları aşdı sellər", "Gözəl", "Meşədə qonaqlıq" kitabları işıq üzü görmüşdü. Sərdar Əsədin kitabları yaradıcılıqları ilə Azərbaycan ədəbiyyatında dərin iz qoymuş N.Həsənzadə, M.Araz, E.Borçalı, Ə.Salahzadə və başqalarının redaktorluğu ilə çap olunmuşdu. Bu kitablar indiyəcən oxucular tərəfindən böyük maraq və sevgi ilə qarşılanır. 1977-ci ildə - şairin vəfatından 2 il sonra şeir və poemalardan ibarət "Dağları aşdı sellər" kitabı nəşr edilmişdir.

Yaradıcılığının zirvəsinə yüksəldiyi bir vaxtda - 30 iyun 1975-ci ildə Sərdar Əsəd dünyasını dəyişdi. Onun ölüm xəbəri yaxınları, doğmaları ilə yanaşı, oxucularını da sarsıtdı. Sərdar Əsədi tanıyanlar, yaradıcılığına yaxından bələd olanlar onu həmişə hörmətlə, ehtiramla xatırlayır, haqqında xoş sözlər danışırlar. Sərdar Əsəd poeziyasının mərkəzində insan amili dayanırdı. Bundan başqa, şairin yaradıcılığından təbiət mövzusu da qırmızı xətlə keçirdi. Onu gördüyü, müşahidə etdiyi hər şey düşündürüb, maraqlandırırdı. Şairin ürəyi, qəlbi sanki heç vaxt boşalmayacaq, daim kükrəyib-daşan dərin bir quyuya bənzəyirdi. Elə buna görə də 46 illik ömründə sözü bitmədi, fikirləri tamamlanmadı. Ömrü kimi yaradıcılığı da yarımçıq qaldı. Bir zamanlar şair şeirlərinin birində yazırdı:

*Gedəni gəlməz olur,*
*Hey fikir daşıyanlar,*
*Dünyada ölməz olur,*
*Əzabla yaşayanlar...*

Hələ ürəyində neçə-neçə yazılmamış şeir və poemaları qaldı. Adiliyin içində daim qeyri-adilik axtaran Sərdar Əsəd oxucuların qəlbində əbədi yaşayacaq. Heç vaxt unudulmayacaq, xatırlandıqca xatırlanacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

●Teatr xadimlərimiz

# Səhnəmizin Səyavuşu



**Teatrın səhnəsində komediya da oynanılır, faciə də. Onun da həyatı belə səhnəyə bənzəyirdi. Sanki oynadığı rolları daha inandırıcı alınsın deyə, Tanrı ona yaratdığı obrazların həyatına bənzər bir həyat vermişdi. Təsadüfi deyil ki, müsahibələrinin birində taleyindən bəhs edən aktyor "Bütün ömrüboyu bir gözüm güləndə, bir gözüm isə ağlayırdı" demişdi.**

Səhnədə insanlara gülüş bəxş edən aktyorun taleyi, həyatı faciə janrına bənzəyirdi. Teatrda, kinoda bəxti gətirsə də, talesiz insan da demək olar ona. Həyat qəribəliklərlə doludur, deyirlər. Onun həyatı sanki elə qəribəliklərdən ibarət idi.

Kiçik yaşlarında tar çalmağı çox sevərmiş. Hətta tar ifaçılığını öyrənmək üçün hər gün "Pionerlər evi"nə getsə də, təsadüfi bir hadisə həyatını tamamilə dəyişib. Dram dərnəyinə gedən Hacıağa adlı dostu teatr haqqında ona elə gözəl şeylər danışıb ki, gözünü açanda bir də görüb ki, dram dərnəyinin səhnəsində məşq edir.

Söhbət Azərbaycan realist aktyor məktəbinin ən məşhur nümayəndələrindən biri, görkəmli teatr və kino aktyoru, komik, faciə və dramatik rolların mahir ifaçısı Səyavuş Məmmədağa oğlu Aslandan gedir. Görkəmli səhnə ustası 1935-ci il sentyabrın 5-də Bakının Saray kəndində yoxsul bir ailədə dünyaya gəlib. Atası Məmmədağa kişi sürücü, anası Anaxanım isə evdar qadın idi. O zamanlar belə bir qayda var idi ki, məktəbli mütləq hansısa bir dərnəyə yazılmalı idi. Səyavuş da tarı seçmişdi.

Həmin illər ağır zaman idi. Bir yandan SSRİ-nin qanlı repressiya maşını insanları öz dəyirmanında üyüdür, digər tərəfdən də İkinci Dünya müharibəsi qapını kəsdirib durmuşdu. Yoxsulluq o həddə gəlib çatmışdı ki, nə uşaqlar öz həyatlarını yaşaya bilirdi, nə də böyüklər... Səyavuş da müharibə dövrünün uşaqlarından idi. Muharibə dövrünün uşaqları tez "böyüyürlər". Qayğılar, problemlər onları daha düşüncəli edir. Erkən yaşlarında mütləq bir işin qulpundan yapışıb ailəyə kömək etməyi özlərinə vəzifə, borc bilirlər. Səyavuş da ailəyə kömək etmək məqsədilə 7-ci sinfi bitirən kimi Dəmiryol Texnikumuna üz tutur ki, bir sənətə sahib olub ailəsinə arxa, dayaq dursun. Amma o, texnikumda oxusa da, fikri səhnədə qalmışdı. Dram dərnəyində də bəxti gətirmişdi. Müəllimi görkəmli səhnə ustası Ağadadaş Qurbanov ona səhnənin sirlərini bir ata məhəbbəti ilə öyrədir, gələcəkdə tanınmış səhnə ustası olacağına tam inandıra bilmişdi.

O, dram dərnəyində Həsən Turabovla tanış olur və aralarında möhkəm dostluq münasibətləri yaranır. Səyavuş ona verilən fərqli və çətin obrazları özünəməxsus ustalıqla oynayır, ona ölməz səhnə ömrü verirdi. Aktyor 1947-1953-cü illərdə Atamoğlan Rzayevin, Ağadadaş Qurbanovun, Qurban Musayevin, Ağasəlim Manaflının dram dərnəklərində çıxış edir, səhnə təcrübəsi toplayır.

Görkəmli gülüş ustası Lütfəli Abdullayev Səyavuş Aslanın ən çox sevdiyi aktyorlardan olub. Musiqili Komediya Teatrında xorda işləyən Səyavuş Lütfəli Abdullayevin oynadığı bütün rolların sözlərini əzbərdən bilirmiş. "Arşın mal alan" tamaşasının premyerası zamanı Lütfəli Abdullayev xəstələndiyi üçün teatrın rəhbəri Ələsgər Şərifovdan xahiş edir ki, Vəli rolunu əzbər bildiyi üçün Lütfəlini əvəz etməyə icazə versin. Belə də olur. 1954-cü ildə Musiqili Komediya Teatrı səhnəsində xorda işləyən Səyavuş Aslan Vəli obrazında Lütfəli Abdullayevi əvəz edir. Bu əhvalatdan sonra Lütfəli Səyavuşun vaxtaşırı səhnəyə çıxması üçün özünü xəstəliyə vurur, dostunun özünü göstərməsi üçün ona imkan yaratmağa çalışırdı.

1954-cü ildə az müddət musiqili komediya estrada truppasında çalışan aktyor 1958-ci ildə Quba Dövlət Dram Teatrında işləməli olur. 1959-cu ildə yenidən Bakıya qayıdan Səyavuş Aslanı Azərbaycan Dövlət Musiqili Komediya Teatrının yardımçı heyətinə işə götürürlər. Elə həmin ildə də Ağası Məşədibəyovun "Toy kimindir?" tamaşasında Qoşun rolunu uğurla ifa etdiyinə görə teatrın əsas aktyor heyətinə qəbul edilib.

Hərbi xidmətdə olduğu müddətdə də imkan düşdükcə Səyavuş sevimli peşəsindən ayrılmayıb. Əsgərlikdən sonra isə bir müddət Kukla Teatrında və Quba Dövlət Dram Teatrında çalışmalı olub. Qəribədir ki, Səyavuş Aslan həmin illərdə Musiqili Komediya Teatrına dəvət edilsə də, onu aktyor heyətinə götürməyiblər. O zaman qayda belə idi ki, sınaqdan keçmək üçün aktyor mütləq uğurlu bir rol oynamalı idi. Teatrın rəhbəri Şəmsi Bədəlbəyli "Yol" tamaşasında Ooşun obrazını yaradan Lütfəli Abdullayevə Səyavuşu dublyor olaraq təyin edir. Premyera çox uğurlu olduğu üçün Səyavuş teatrın aktyor heyətinə qəbul olunur.




Aktyorun səhnə taleyində Mirzəağa Əliyevin, Cahangir Zeynalovun, Lütfəli Abdullayevin, Nəsibə Zeynalovanın böyük rolu olub. Lütfəli Abdullayevlə münasibətlərinə gəldikdə isə, bu münasibətləri özü belə ifadə edib: "Doğma atamı itirəndə həyatı dərk etmədiyimdən almadığım zərbəni Lütfəli Abdullayev dünyadan köçərkən aldım".

Həyatının böyük bir hissəsini Azərbaycan Dövlət Musiqili Komediya Teatrının səhnəsində keçirən aktyor yüzlərlə obraza səhnə həyatı verib. Aktyorun teatr və kino sahəsində göstərdiyi fəaliyyət yüksək qiymətləndirilərək 1974-cü ildə Əməkdar artist, 1982-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. Aktyor 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olub. 2010-cu ildə isə Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə təltif edilib. Azərbaycan mədəniyyəti və incəsənətinə xidmətləri 1995-ci ildə "Şöhrət", 2013-cü ildə isə "Şərəf" ordenləri ilə mükafatlandırılıb.

Uzun illər Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aparıcı aktyorlarından biri, hətta həmin teatrın bədii rəhbəri də işləmiş məşhur aktyor Səyavuş Aslan uzun sürən xəstəlikdən sonra 27 iyun 2013-cü ildə vəfat edib. İkinci Fəxri xiyabanda dəfn olunan aktyorun məzarı onu sevən insanların ziyarət yeridir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Özbəkistanda Azərbaycan muğamı ilə bağlı ustad dərsləri keçirilib

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə bu ölkənin nüfuzlu ali təhsil ocaqlarında Azərbaycan muğamı və milli musiqi sənətimizlə bağlı ustad dərsləri keçirilib.**

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, ustad dərslərini Azərbaycanın və Özbəkistanın Xalq artisti Gülyanaq Məmmədova aparıb.

Dərslər musiqişünaslıq, solo ifa və xalq çalğı alətləri üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulub. Onlara Azərbaycan milli musiqi mədəniyyəti, muğam sənətinin tarixi kökləri, ifa üslubları, xalq musiqimizin janr zənginliyi və milli irsimizin qorunması ilə bağlı ətraflı məlumatlar təqdim olunub. Gülyanaq Məmmədova mühazirələrində Azərbaycan muğamının dünya musiqi xəzinəsindəki yeri, bu sənətin UNESCO tərəfindən bəşəri irs nümunəsi kimi tanınması, həmçinin muğamın müasir ifaçılıq və bəstəkarlıq məktəblərindəki rolu barədə məlumat verib.



Ustad dərslər çərçivəsində tanınmış Azərbaycan bəstəkarları Üzeyir bəy Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov və digər sənətkarların yaradıcılığına da xüsusi yer ayrılıb, dərslər interaktiv sual-cavab sessiyaları ilə müşayiət olunub.

Layihənin əsas məqsədi Azərbaycanla Özbəkistan arasında mədəni əlaqələrin daha da inkişaf etdirilməsi, gənc özbək musiqiçilərin Azərbaycan musiqi məktəbi ilə yaxından tanış olması və regionda mədəni inteqrasiyanın gücləndirilməsidir.

# Şair Qulu Ağsəslə görüş

**Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında "Ulduz" jurnalının baş redaktoru, Əməkdar jurnalist, şair Qulu Ağsəslə görüş keçirilib.**



Kitabxanadan bildirilib ki, tədbirdə əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Görüşdə Qulu Ağsəsin yaradıcılığı haqqında video nümayiş olunub. Şair yeni şeirlərini səsləndirib.

Qulu Ağsəs "Sənsən hər yer", "Külək poçtu" (ukraynca), "Nabran novellası", "Nöqtələr", "Dan yeri" (ingiliscə) kitabının müəllifidir.

# "Səda"nın tələbələrinin çıxışları alqışlarla qarşılanıb



**Ankarada fəaliyyət göstərən "Səda" musiqi kurslarının tələbələri hər il Türkiyə Jurnalistlər Cəmiyyəti tərəfindən ölkənin ən uğurlu idman jurnalistlərinə, idmançılara və idman klublarının nümayəndələrinə təqdim edilən Arman Talay adına mükafatın təqdimetmə mərasimində çıxış ediblər.**

Musiqi kurslarının rəhbəri Aytən Rəhimova AZƏRTAC-a bildirib ki, tədbirdə fortepiano tələbəsi Enis Efe Özdəmir Tofiq Quliyevin "Vals" əsərini, Pelin Beyazkılıç isə pianoda "Nazəndə sevgilim" (A.Babayev) mahnısının musiqisini ifa edib.

Musiqi kursları tələbələrinin çıxışları alqışlarla qarşılanıb.

Ümumilikdə, bu il Türkiyənin 14 tanınmış idmançısı və jurnalisti Arman Talay adına mükafatın sahibi olub.

# Laçında 7 ölkənin bədii kollektivləri çıxış edir



**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Laçın rayonunda Azərbaycan Prezidentinin Xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə iyunun 3-də Laçın şəhərində, Həkəri çayının sahilində "MDB-nin mədəniyyət paytaxtı - 2025" çərçivəsində möhtəşəm konsert proqramı təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, proqramda 7 ölkədən - Azərbaycan, Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan gəlmiş bədii kollektivlər çıxış edirlər.

Tədbirlər çərçivəsində "Birlik rəngləri" adlı Beynəlxalq İncəsənət sərgisinə baxış da nəzərdə tutulub.

